RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 157 (10177) 1 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İlham Əliyevlə hesablaşırlar - Qərbdə də, Şərqdə də



## Prezident İlham Əliyev Qırğızıstana işgüzar səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğız Respublikasına işgüzar səfərə gedib.

Həmin gün Prezident İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüş keçirib.

Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.

Sonra Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkianla görüşü olub.

Avqustun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak ediblər.

2-3

## Azərbaycan-Özbəkistan münasibətləri bu gün özünün ən yüksək zirvəsindədir

### Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə



Hörmətli Şavkat Miromonoviç!

Əziz Qardaşım!

Əlamətdar ildönümü - Özbəkistan Respublikasının müstəqilliyinin 35 illiyi münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Müstəqilliyini qazandıqdan ötən dövr ərzində qardaş Özbəkistan hərtərəfli və dinamik inkişaf yolu keçərək böyük uğurlara imza atmış, beynəlxalq aləmdə və regionda yüksək nüfuz və hörmət qazanmışdır. Sizin müdrik rəhbərliyiniz və strateji baxışınız sayəsində ölkənizdə bütün sahələrdə genişmiqyaslı islahatlar və quruculuq işləri müvəffəqiyyətlə həyata keçirilmiş, iqtisadi tərəqqiyə nail olunmuş, əhalinin sosial rifahı təmin edilmişdir.

Özbəkistanın qarşıya qoyduğu məqsəd və hədəflərə çatmasında, qazandığı bütün nailiyyətlərin təməlində Sizin yorulmaz əməyiniz və qətiyyətlə apardığınız dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Qardaş ölkə və müttəfiq olaraq Özbəkistanın hər bir uğurunu öz uğurumuz hesab edir, bundan qürur duyuruq. Hər dəfə bənzərsiz və qonaqpərvər ölkənizə səfər edərkən Özbəkistanın əldə etdiyi mühüm nailiyyətlərin əyani şəkildə şahidi oluram. Bu yaxınlarda qardaş ölkəyə həyata keçirdiyim dövlət səfərini və Sizinlə görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

Ortaq tarixi-mədəni tellər, sarsılmaz dostluq və qardaşlıq üzərində qurulan Azərbaycan-Özbəkistan münasibətləri bu gün özünün ən yüksək zirvəsində yer alıb. Özbəkistanla ikitərəfli əlaqələrimizin bundan sonra da hərtərəfli inkişaf etdirilməsi və dərinləşdirilməsi bizim üçün prioritet məsələlərdən biridir. Şadam ki, birgə səylərimiz nəticəsində dövlətlərarası əlaqələrimiz və müttəfiqliyimiz gündən-günə daha da möhkəmlənir, çoxşaxəli əməkdaşlığımız yeni praktiki məzmunla zənginləşir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Özbəkistan birliyini qoruyub saxlamaq, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək, müttəfiqliyimizi daim gücləndirmək yolunda üzərimizə düşən şərəfli missiyanı bundan sonra da birgə səylərimizlə uğurla yerinə yetirməyə davam edəcəyik.

Hörmətli Şavkat Miromonoviç!

Bu tarixi gündə Sizin və qardaş Özbəkistan xalqının sevincinə qoşulur, Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Özbəkistan Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2026-cı il*

## Qırğızıstanın uğurlarına öz uğurumuz qədər sevinirik

### Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sadır Japarova



Hörmətli Sadır Nurqojoyeviç!

Qardaş Qırğız Respublikasının müstəqilliyinin 35-ci ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu gün Qırğızıstan Sizin rəhbərliyiniz altında dövlətçiliyin möhkəmləndirilməsi, sosial-iqtisadi tərəqqi və genişmiqyaslı quruculuq sahələrində mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Qardaş ölkə olaraq Qırğızıstanın uğurlarına öz uğurumuz qədər sevinirik.

Ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin ildən-ilə inkişaf edərək bu gün müttəfiqlik səviyyəsinə çatması və yeni mahiyyət kəsb etməsi məmnunluq doğurur. Bu yaxınlarda qonaqpərvər ölkənizə həyata keçirdiyim dövlət səfəri ölkələrimizin sıx tərəfdaşlıq əzmini və geniş əməkdaşlıq gündəliyinin olduğunu nümayiş etdirmiş, Azərbaycan-Qırğızıstan münasibətlərinin tarixində yeni mərhələnin əsasını qoymuşdur.

Əminəm ki, Azərbaycan-Qırğızıstan əlaqələri və müttəfiqliyi xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və güclənməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2026-cı il*

## Azərbaycan-ŞƏT tərəfdaşlığının strateji perspektivləri



2025-ci ilin sentyabrından etibarən ŞƏT-ə Qırğızıstan sədrlik edir. Təşkilatın 2026-cı il Zirvə toplantısı Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev də Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğızıstana işgüzar səfər edib.

Yaradılmasının 25 illiyini qeyd edən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) hazırda 10 tamhüquqlu üzvü özündə birləşdirir. Təşkilatın əhatə etdiyi ərazi təxminən 36 milyon kvadratkilometr, bu ölkələrdə yaşayan əhalinin sayı isə 3,4 milyard nəfərdən çoxdur. Dünya Bankının 2025-ci il üzrə göstəricilərinə görə, ŞƏT-in 10 üzvünün ümumi iqtisadi həcmi təxminən 27,4 trilyon dollara çatır ki, bu da ümumi dünya iqtisadiyyatının dörddəbirinə yaxındır. ŞƏT bir tərəfdən, böyük əhali və alıcılıq qabiliyyətinə malik bazarları, digər tərəfdən, zəngin neft-qaz və xammal ehtiyatları olan ölkələri, eyni zamanda Avrasiya materikinin əsas quru tranzit yollarını bir araya gətirir. Bu üstünlüklər təşkilatın iqtisadi və coğrafi-siyasi çəkisini daha da artırır.

ŞƏT-in 2035-ci ilə qədər olan İnkişaf Strategiyası qurumun gələcək yol xəritəsini müəyyən edir. Sənəddə təhlükəsizliklə bərabər ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi, birgə layihələrin icrası, elm, texnologiya, səhiyyə, ətraf mühitin qorunması və təhsil sahələrində əlaqələrin dərinləşdirilməsi əsas məqsəd kimi göstərilir.

Azərbaycan bu geniş coğrafiya ilə təkcə təkbətək əlaqələr saxlamır, həm də təşkilat səviyyəsində əməkdaşlıq edir ki, bu da ölkəmizə ŞƏT-in siyasi, iqtisadi, tranzit, energetika, təhlükəsizlik və mədəniyyət sahələrindəki fəaliyyətinə yaxından qoşulmaq imkanı yaradır. Ölkəmiz üçün bu məkan həm mövcud ticarəti böyütmək, həm də logistika, investisiya və sənaye imkanlarını artırmaq baxımından çox önəmlidir. Azərbaycanın gücü həmin böyük bazarları Avropa ilə birləşdirən etibarlı mərkəz rolu oynamağındadır.

6

## Rəqəmsal gələcəyin əsas qüvvəsi - insan

### Məhz insan məlumatı biliyə, biliyi innovasiyaya, innovasiyanı dəyərə çevirir

Ölkəmizin son illər qəbul etdiyi strateji sənədlər də bu transformasiyanın mahiyyətini aydın ortaya qoyur. Prezident İlham Əliyevin 16 yanvar 2025-ci il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" dövlət idarəetməsinin təkmilləşdirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, rəqəmsal iqtisadiyyat və cəmiyyətin formalaşdırılmasını da hədəfləyir. Konsepsiyada bu istiqamətdə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün İKT sahəsində əlavə mütəxəssis və menecer heyətinin formalaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilir.

Bu yanaşma dövlətimizin başçısının 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" ilə daha da konkretləşdirilir. Strategiyanın məqsədləri sırasında süni intellektin inkişafının sürətləndirilməsi, tədqiqatların təşviqi, infrastrukturun əlçatanlığının təmin edilməsi və ixtisaslı kadr potensialının gücləndirilməsi xüsusi yer tutur. Sənəddə süni intellekt ekosisteminin formalaşdırılması üçün dövlət-özəl sektor əməkdaşlığı, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi də prioritet kimi müəyyənləşmişdir.

9



## İlham Əliyev Tufan Erhürmana başsağlığı verib

### Şimali Kipr Türk Respublikasının Prezidenti zati-aliləri cənab Tufan Erhürmana

Hörmətli cənab Prezident!

Girnə yaxınlığında baş vermiş gəmi qəzası nəticəsində insanların həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2026-cı il*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri

# İlham Əliyevlə hesablaşırlar - Qərbdə də, Şərqdə də

## "Manas" Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğız Respublikasına işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, "Manas" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bişkekdə Qazaxıstan Prezidenti ilə görüşü olub





**Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Qazaxıstan Respublikasının yeni parlamentinə - qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə ölkədə aparılan genişmiqyaslı islahatlara Qazaxıstan xalqının dəstəyinin növbəti nümunəsi idi.

Qazaxıstan Prezidenti dövlətimizin başçısının göndərdiyi təbrik məktubuna və Azərbaycandan olan müşahidəçilərin bu seçkilərdə fəal iştirakına görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin dərinləşdirilməsində yüksək səviyyədə qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulandı. Nəqliyyat-logistika məsələləri müzakirə olundu, Orta dəhlizin əhəmiyyətinə toxunuldu, bu istiqamətdə Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Dövlət başçıları Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin sammitinin Bakıda keçiriləcəyinə də toxundular.

Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Bişkekdə Ermənistanın Baş naziri ilə görüşü keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində avqustun 31-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, liderlər 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvə görüşünün, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannamənin, həmçinin "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəənin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülh dividendlərinin mühüm əyani təzahürü kimi qeyd edilib. Liderlər həmçinin işgüzar dairələr arasında təmasları alqışlayıb və qarşılıqlı faydalı iqtisadi, ticarət və enerji əməkdaşlığının daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə müvafiq dövlət komissiyalarının mühüm rolunu qeyd edib, onların iki ölkə arasında əldə olunmuş razılaşmalara uyğun olaraq, öz işlərini davam etdirməsinin vacibliyini vurğulayıblar.

Liderlər Vaşinqton Sülh Zirvə görüşünün mühüm nəticələrindən biri olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçirilməsi ilə bağlı növbəti praktiki addımlar barədə müzakirə aparıb və TRIPP boyunca bağlantı layihələrinin əhəmiyyətini qeyd ediblər.

Liderlər parlamentarilər və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı etimadın gücləndirilməsi və daha geniş sülh gündəliyinin dəstəklənməsinə verdikləri töhfələrini qeyd edərək, onların iştirakı ilə etimad quruculuğu üzrə təmasları müsbət dəyərləndiriblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan birbaşa ikitərəfli təmaslar vasitəsilə davamlı sülhün daha da möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi və bağlantıların gücləndirilməsi istiqamətində addımları davam etdirmək barədə razılığa gəliblər.



## Azərbaycan və İran prezidentləri Bişkekdə görüşüblər





**Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Məsud Pezeşkian dövlətimizin başçısı ilə görüşlərini və telefon danışıqlarını məmnunluqla xatırladı, İranın üzləşdiyi bu çətin vəziyyətdə Prezident İlham Əliyevin mövqeyinin, nümayiş etdirdiyi dəstəyin, verdiyi başsağlığının, həmçinin Azərbaycan tərəfindən göstərilən humanitar yardımın İran dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini vurğuladı, bütün bunlara görə bir daha minnətdarlığını bildirdi.

Əlaqələrimizin inkişaf etdirilməsi üçün çox yaxşı imkanların olduğunu deyən İran Prezidenti Azərbaycanla bütün sahələrdə münasibətləri genişləndirməkdə maraqlı olduqlarını qeyd etdi.

Məsud Pezeşkian ölkələrimiz arasında əlaqələrin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğulayaraq, İranın bütün qonşu ölkələrlə yaxşı münasibətlərə malik olmaq niyyətində olduğunu dedi.

Dövlətimizin başçısı da öz növbəsində İranın üzləşdiyi bu şəraitdə Azərbaycanın yardımının qardaşlıq nümunəsi olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, ölkəmiz İranla bağlı yaranmış vəziyyətin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycanla İran arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri

# İlham Əliyevlə hesablaşırlar - Qərbdə də, Şərqdə də

## Bişkekdə 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimi keçirilib
















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Dünya Köçəri Oyunlarının əsas məqsədlərindən biri əsrlər boyu müxtəlif xalqları birləşdirən dostluq, birlik və qarşılıqlı hörmət kimi dəyərləri təbliğ etməkdir. Bu tədbir köçəri sivilizasiyasının irsinin, mədəniyyətinin, qədim ənənələrinin və milli dəyərlərinin nümayiş etdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm beynəlxalq platforma kimi qiymətləndirilir. Dünyanın müxtəlif ölkələrindən nümayəndələri bir araya gətirəcək bu Oyunlar çərçivəsində köçəri xalqların tarixən formalaşdırdıqları ənənəvi qədim idman növləri, o cümlədən atçılıq, güləş, oxatma və digərləri üzrə yarışlar təşkil ediləcək.

Sentyabrın 6-dək davam edəcək tədbir çərçivəsində iştirakçı ölkələrin mədəni irsi və milli adət-ənənələri də təqdim olunacaq.

## Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimə

Əlahəzrət!

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Malayziya arasında təşəkkül tapmış, dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan tərəfdaşlıq əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan-Malayziya dövlətlərarası münasibətləri və qarşılıqlı faydalı əməkdaşlığımız həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da uğurla inkişaf etməyə və genişlənməyə davam edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Malayziya xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2026-cı il*

## Trinidad və Tobaqo Respublikasının Prezidenti zati-aliləri xanım Kristin Karla Kanqaluya

Hörmətli xanım Prezident!

Trinidad və Tobaqo Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Trinidad və Tobaqo arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2026-cı il*

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Əziz Mehriban xanım!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin fəal həyat mövqeyiniz və enerjiniz məqsədə doğru yorulmadan irəliləməyə, uğurlar qazanmağa imkan verir. Siz Azərbaycanın haqlı olaraq fəxr edə biləcəyi xanımsınız. Hər zaman hər cəhətdən belə cazibədar və gözəl qalın.

Sizə və gözəl ailənizə cansağlığı, uzun ömür, xoşbəxtlik, uğurlar, sevimli Azərbaycana isə daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Dərin hörmət və minnətdarlıqla,*

***Tatyana ANODİNA,***
***Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın prezidenti***

# Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının baş prokuroru ilə görüşüb



**Avqustun 31-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri bu səfərin Azərbaycan və Çin arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin, həmçinin prokurorluq orqanları arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Spiker 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından keçən illər ərzində münasibətlərimizin dostluq, qarşılıqlı hörmət və dəstək əsasında inkişaf etdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan "Vahid Çin" siyasətini, Çin isə öz növbəsində Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü həmişə dəstəkləyib.

İkitərəfli əlaqələrin güclənməsində ali və yüksəksəviyyəli səfərlərin müstəsna rolundan danışan Sahibə Qafarova, Prezident İlham Əliyevin Çinə səfərlərinin və imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin əhəmiyyətini vurğulayıb.

Spiker qonağa Milli Məclisin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə konstruktiv əməkdaşlığı, parlamentin strukturu və qanun yaradıcılığı prosesi barədə məlumat verib. O qeyd edib ki, hazırda fəaliyyət göstərən VII çağırış Milli Məclis 2024-cü ildə keçirilmiş seçki nəticəsində formalaşıb. Həmin seçki Azərbaycanın bütün suveren ərazisində keçirilmiş ilk parlament seçkisi kimi xüsusi əhəmiyyət kəsb edir.

Görüşdə Milli Məclisin Sədri Çin parlamenti ilə əməkdaşlığın mövcud vəziyyəti və gələcək imkanlar barədə danışıb, özünün cari ilin mart ayında Çinə işgüzar səfərini və bu ölkənin parlament Sədri Cao Lıci ilə görüşünü, apardığı müzakirələri məmnunluqla xatırlayıb. Spiker Sahibə Qafarova parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyəti barədə də fikirlərini bölüşüb.

Söhbət zamanı Azərbaycanla Çin arasında qarşılıqlı faydalı siyasi əməkdaşlığın daha bir nümunəsi olan Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq yüksək qiymətləndirilib. Həmçinin Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə fəal iştirakı, ölkəmizin Çinlə Avropanı birləşdirən Orta dəhlizin inkişafında mühüm rolu diqqətə çatdırılıb.

Görüş üçün təşəkkürünü bildirən Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonq Azərbaycana səfərdən əvvəl Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədri Cao Lıci ilə görüşüb müzakirələr apardığını qeyd edib və onun xahişinə əsasən, salamlarını Milli Məclisin Sədrinə çatdırıb.

Spiker Sahibə Qafarova da öz növbəsində təşəkkürünü bildirərək, salamlarının həmkarına çatdırılmasını xahiş edib.

Azərbaycanla Çin arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluqla danışan qonaq Prezident İlham Əliyevin 2025-ci ildə Çinə səfərlərini və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşlərinin əhəmiyyətini diqqətə çatdırıb.

İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafından söz açan baş prokuror Azərbaycan Baş prokurorluğu ilə imzalanmış sənədlərdən və əməkdaşlığın perspektivlərindən danışıb. O, diqqətə çatdırıb ki, iki ölkənin Baş prokurorluqları arasında sıx əməkdaşlıq hər iki ölkənin vətəndaşlarının hüquqlarının qorunmasına və cinayətkarlığın qarşısının alınmasına öz töhfəsini verəcək. Qonaq Çində hüquq-mühafizə orqanlarının fəaliyyəti, ədliyyə sistemi, Baş Prokurorluqla parlament arasında əməkdaşlıq və ölkə prokurorluğunun fəaliyyəti haqqında məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Qonaqlar Milli Məclisin inzibati binasında olarkən parlamentin plenar iclas zalına da baş çəkiblər, burada yaradılmış iş şəraiti ilə tanış olublar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti Qoşulmama Hərəkatına üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Birinci Konfransının 65 illiyinə həsr olunmuş Yüksək Səviyyəli Xatirə Görüşündə iştirak etmək üçün Serbiya Respublikasına işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Belqrad şəhərinin Nikola Tesla Hava Limanında Milli Məclisin Sədrini Serbiya Respublikasının daxili və xarici siyasət naziri, EXPO-2027-nin Baş Komissarı Yaqoda Lazareviç, Azərbaycanın Serbiyadakı səfiri Tahir Tağızadə və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Mozambik Respublikasının Baş naziri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində avqustun 31-də Mozambik Respublikasının Baş naziri xanım Maria Benvinda Levi ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan Afrika ölkələri ilə münasibətlərin inkişafına mühüm əhəmiyyət verir. Milli Məclisin Sədri Qoşulamama Hərəkatı çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışaraq, Azərbaycanın bu təşkilata 4 illik sədrliyi dövründə gördüyü işlər, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti, ölkəmizin sədrliyi dövründə əldə edilmiş nailiyyətlər barədə danışıb.

Görüşdə bir sıra sahələrdə ikitərəfli əlaqələrin mövcud vəziyyətinə də toxunulub, qarşılıqlı münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılıb. Spiker cari ilin iyun ayında İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Mozambik Respublikası Respublika Assambleyasının Sədri Marqarida Talapa ilə görüşünü xatırlayaraq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı dəstəyin əhəmiyyətini qeyd edib.

Söhbət zamanı parlamentlər arasında və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib, qarşılıqlı səfərlərin həyata keçirilməsi ilə bağlı fikirlər səsləndirilib.

Baş nazir Maria Benvinda Levi Mozambik və Azərbaycan arasında münasibətlərin mövcud vəziyyətindən razılıqla danışıb. O, mozambikli tələbələrin və diplomatların Azərbaycanda keçirilən proqramlarda iştirakına görə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan COVID-19 pandemiyası dövründə də Mozambikə öz dəstəyini göstərib.

Baş nazir diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bir sıra mühüm məsələlərin müzakirəsi üçün mühüm platformadır və Mozambik də bu Şəbəkənin işində iştirak edir.

Görüşdə parlamentlərarası təhsil, humanitar və digər sahələrdə əlaqələrin inkişaf perspektivlərindən danışılıb, qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Çin prokurorluqları arasında memorandum imzalanıb

**Avqustun 31-də Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana işgüzar səfərə gəlib.**




Əvvəlcə nümayəndə heyəti Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Nümayəndə heyəti həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarını ziyarət edib.

Daha sonra qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ilə Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru cənab Yinq Yonq arasında iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərinə dair görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında dövlət başçılarının siyasi iradəsinə və möhkəm etimada əsaslanan münasibətlərin bütün istiqamətlər üzrə dinamik inkişafından məmnunluq ifadə olunub. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin arasında formalaşmış yüksəksəviyyəli etimad və siyasi iradə iki ölkə arasında dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün mühüm əsas təşkil edir.

Azərbaycan və Çin arasında münasibətlərin etimad, bərabərlik, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə qarşılıqlı fayda prinsipləri əsasında inkişaf etdiyi vurğulanıb. Çin Xalq Respublikasının müxtəlif beynəlxalq platformalarda Azərbaycan Respublikasının mövqeyinə və irəli sürdüyü təşəbbüslərə göstərdiyi ardıcıl dəstək yüksək qiymətləndirilib.

Qeyd olunub ki, dövlət başçılarının müntəzəm təmasları və siyasi iradəsi nəticəsində Azərbaycan-Çin münasibətləri son illərdə yeni inkişaf mərhələsinə qədəm qoyub. Habelə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ildə Çin Xalq Respublikasına iki dəfə səfər etməsi, müxtəlif səviyyələrdə səfər və görüşlərin intensivləşməsi, eləcə də 2025-ci ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması ikitərəfli münasibətlərin yüksək səviyyəsinin və strateji xarakterinin mühüm göstəriciləri kimi xüsusi vurğulanıb.

Baş prokuror Kamran Əliyev iki ölkənin prokurorluq orqanları arasında etimada, hörmətə və faydalı təcrübə mübadiləsinə əsaslanan əməkdaşlığın ardıcıl şəkildə inkişaf etdiyini diqqətə çatdırıb.

Azərbaycan və Çin prokurorluq orqanları arasında hüquqi əməkdaşlığın genişləndirilməsinin, transmilli cinayətkarlıqla mübarizə, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, təcrübə və informasiya mübadiləsi, habelə prokurorluq fəaliyyəti üzrə qabaqcıl təcrübələrin öyrənilməsinin mühüm əhəmiyyət daşıdığı bildirilib.

Bildirilib ki, Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun geniş tərkibli nümayəndə heyəti 2024-cü ildə Bakı şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının Ümumi Konfransı və İllik İclasında iştirak edib. Həmçinin 2025-ci ildə Azərbaycan Respublikası Prokurorluğunun geniş tərkibli nümayəndə heyəti Çin Xalq Respublikasında təşkil olunmuş uzunmüddətli təlim proqramına qatılıb.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Yinq Yonq Azərbaycan ilə Çin arasında mövcud münasibətlərin yüksək inkişaf səviyyəsini qeyd edərək iki ölkənin strateji tərəfdaş dövlətlər olduğunu vurğulayıb, müxtəlif sahələri əhatə edən faydalı əməkdaşlığın uğurla davam etdirildiyini bildirib.

Yinq Yonq iki ölkənin prokurorluq orqanları arasında mövcud əməkdaşlıq səviyyəsindən məmnunluğunu ifadə edərək səfərlərin, təcrübə mübadiləsinin və peşəkar əlaqələrin bu münasibətlərin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını qeyd edib.

Çin Xalq Respublikasının baş prokuroru Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında müqavilənin hüquq-mühafizə orqanları arasında hüquqi əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın səmərəliliyinin artırılması və cinayət işləri üzrə hüquqi yardım mexanizmlərinin daha da təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Görüşün nəticələrinə uyğun olaraq iki qurum arasında hüquqi əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi, təcrübə və informasiya mübadiləsinin genişləndirilməsi, transmilli cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi, habelə prokurorluq orqanları arasında institusional əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Diqqətə çatdırılıb ki, imzalanmış sənəd iki ölkənin prokurorluq orqanları arasında yüksək səviyyədə inkişaf edən əlaqələrin və əməkdaşlığın məntiqi nəticəsi olmaqla, bu sahədə münasibətlərin yeni mərhələyə yüksəldilməsinə xidmət edir.

Memorandum təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi, prokurorluq əməkdaşlarının peşəkar inkişafının və ixtisasının artırılması, müasir informasiya texnologiyalarının prokurorluq fəaliyyətində tətbiqi üzrə qabaqcıl təcrübənin öyrənilməsi və bu sahədə əldə olunmuş nailiyyətlərin bölüşülməsi, habelə əməkdaşlığın digər aktual istiqamətlərdə inkişaf etdirilməsi ilə bağlı məsələləri əhatə edir.

Bundan başqa, Azərbaycan və Çin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına və ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə verdiyi mühüm töhfələr nəzərə alınaraq Yinq Yonqa "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub.

Daha sonra Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun nümayəndə heyəti Azərbaycan Respublikası Prokurorluğunun Tarix Muzeyini ziyarət edib.

Qonaqlara Azərbaycan Prokurorluğunun tarixi, müxtəlif dövrlərdə fəaliyyəti və müasir inkişaf mərhələləri barədə məlumat verilib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

*"Azərbaycan"*

# Uqanda Respublikasının vitse-prezidenti ilə görüş

**Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində avqustun 31-də Uqanda Respublikasının vitse-prezidenti xanım Cessika Alupo ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə iki ölkə arasında əlaqələrin mövcud vəziyyəti nəzərdən keçirilib. Söhbət zamanı BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıqdan və birgə fəaliyyətdən məmnunluq ifadə olunub. Bildirilib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi uğurla başa vuraraq onu Uqandaya təhvil verib. Qoşulamama Hərəkatı çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd edən Milli Məclisin Sədri Azərbaycanın bu təşkilata 4 illik sədrliyi dövründə gördüyü işlər, Azərbaycan Prezidenti cənab İlham Əliyevin irəli sürdüyü təşəbbüslər, o cümlədən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılması və onun fəaliyyəti, ölkəmizin sədrliyi dövründə əldə edilmiş nailiyyətlər barədə fikirlərini bölüşüb.

Görüşdə bir sıra sahələrdə ikitərəfli əlaqələrin mövcud vəziyyətinə də toxunulub, qarşılıqlı münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, əməkdaşlığımızın çox gözəl nümunələrindən biri də ASAN xidmət modelidir. Hazırda bu model Uqandada uğurla tətbiq olunur və ölkələrimiz bir sıra sahələrdə əməkdaşlıq edirlər. Bundan başqa, uqandalı tələbələr 2024-2025-ci illərdə Heydər Əliyev Beynəlxalq Təqaüd Proqramından faydalanıblar.

Söhbət zamanı parlamentlər arasında və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi barədə də danışılıb, qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Uqanda Respublikasının vitse-prezidenti xanım Cessika Alupo bildirib ki, Uqanda Azərbaycanla mövcud olan ikitərəfli əlaqələri yüksək qiymətləndirir və bunu daha da inkişaf etdirməkdə maraqlıdır. Qeyd olunub ki, investisiya, ticarət, kənd təsərrüfatı, elm, texnologiya və digər sahələr üzrə əməkdaşlığı irəli aparmaq üçün yaxşı imkanlar mövcuddur.

Söhbət zamanı Uqanda Respublikasının vitse-prezidenti Uqandanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. O, iki ölkə arasında beynəlxalq təşkilatlarda, həmçinin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva klassik avtomobillərin yürüşü və sərgisini izləyiblər






















**Avqustun 30-da Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı ilə klassik avtomobillərin sərgisi və yürüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, gənclər və idman naziri Fərid Qayıbov, digər tanınmış şəxslər və şəhər sakinləri iştirak ediblər.

Klassik avtomobillərin sərgisi və yürüşü bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da artıq ənənə halını alıb.

Dənizkənarı Milli Parkda klassik avtomobillərin nümayişi ilə başlayan tədbirdə 1986-cı ilədək istehsal olunan 100-dən çox avtomobil sərgilənib.

Bunlar tədbir üçün qeydiyyatdan keçən klassik avtomobillər, həmçinin Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələridir.

Bakı sakinlərinin hər zaman böyük maraqla qarşıladığı sərgi daha sonra retro avtomobillərin yürüşü ilə davam edib.

Paytaxtın əsas küçə və prospektindən keçən yürüş "Sea Breeze" ərazisində başa çatıb. "Marina Bay"də klassik avtomobillərin sərgisi Xəzərin sahilində retro ab-hava yaradıb.

Sərgidə müxtəlif dövrlərə aid avtomobillər nümayiş olunub. Onların arasında illərdir qorunub saxlanılan və sahibləri üçün xüsusi xatirə dəyəri daşıyan avtomobillər də var.

AZƏRTAC-a müsahibəsində klassik avtomobilin sürücüsü Nuhbala Dadaşov 1967-ci il istehsalı olan "Volqa QAZ-21" avtomobilinin onun ailəsi üçün xüsusi mənəvi əhəmiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, avtomobili atası həmin il martın 19-da Saratovdan gətirib.

"Biz uşaq olanda bu maşının başından ayrılmırdıq. Atam dünyasını dəyişib, amma bu avtomobil bizə onu xatırladır. Ona görə də maşını qoruyub saxlamışıq", - deyə N.Dadaşov bildirib.

O qeyd edib ki, avtomobillə Azərbaycanda müxtəlif tədbir və sərgilərdə iştirak edir: "Haraya çağırırlarsa gedirik. Abşeron yeməkləri, Novruz bayramı ərəfəsində şirniyyat və paxlava sərgiləri, müxtəlif digər tədbirlər olur. Mümkün qədər bu avtomobillə həmin tədbirlərdə iştirak edirəm. Abşeron camaatı bu maşını çox sevir".

N.Dadaşovun sözlərinə görə, klassik avtomobil şəhərdə də böyük maraq doğurur. "Bu gün 100-dək insan yaxınlaşıb şəkil çəkdirib. Yolda hərəkət edərkən də insanların maşının və bizim şəkillərimizi çəkdiyini görürəm", - deyə o əlavə edib.

Sərgiyə gələn ziyarətçilər də retro avtomobillərə böyük maraq göstəriblər.

Klassik avtomobillər sərgisinin ziyarətçisi Fidan Əfəndi AZƏRTAC-a müsahibəsində köhnə avtomobillərə xüsusi maraq göstərdiyini deyib. O, xüsusilə "Mercedes" markalı klassik modelləri sevdiyini və sərgidə nümayiş olunan avtomobilləri çox gözəl hesab etdiyini bildirib.

"Bu cür tədbirlərin ölkəmizdə keçirilməsi çox gözəldir. Sərgilər böyük maraq doğurur və biz hər dəfə bu günləri səbirsizliklə gözləyirik", - deyə F.Əfəndi vurğulayıb.

Retro avtomobillərin sahibləri üçün isə sərgi yalnız nəqliyyat vasitələrini nümayiş etdirmək deyil, həm də onların tarixini və şəxsi xatirələrini bölüşmək imkanı yaradıb.

Sərginin "Canlı əfsanə" nominasiyasının qalibi Röyanə Seyfəli AZƏRTAC-a müsahibəsində 1986-cı il istehsalı olan "Mercedes-Benz W126" S-Class avtomobili ilə ilk dəfə belə sərgidə iştirak etdiyini bildirib.

Onun sözlərinə görə, avtomobili xüsusi məqsədlə əldə etməyib, sadəcə, bir xatirə olaraq qoruyub saxlayıb: "Belə bir həvəsim əvvəllər yox idi. Sadəcə, xatirə olaraq saxlamışam və nəhayət, sərgidə iştirak edə bildim. Bu, mənim üçün çox xoşdur".

R.Seyfəli gələcəkdə də bu cür sərgilərdə iştirak etmək və avtomobilini nümayiş etdirmək istədiyini qeyd edib.

"Marina Bay"də keçirilən sərgidə yürüşdə iştirak edən avtomobil sahibləri arasından müxtəlif nominasiyalar üzrə qaliblər müəyyən edilərək mükafatlandırılıb.

Qaliblər "Sərginin veteranı", "Qızıl standart", "Canlı əfsanə", "Nadir incilər", "Dövrün stil ikonası", "Dövrün ruhu", "Vintaj zərifliyi", "Ənənələrin qoruyucusu", "Yarış əfsanəsi", "Dəmir aristokrat", "Zəhmətkeş əfsanə", "Xalqın sevimlisi", "Dövrün səsi" və "Zaman kapsulu" nominasiyaları üzrə müəyyənləşdirilib.

Qonaqlara musiqi proqramı da təqdim edilib.

# Şanxay Əməkdaşlıq Təşkilatı - Avrasiyanın dəyişən geosiyasi mənzərəsində yeni imkanlar

**Azərbaycan üçün Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əməkdaşlığın dərinləşdirilməsi əhəmiyyətli istiqamətlərdən biridir. Ölkəmizin bu təşkilatla münasibətlərinin dinamikası rəsmi Bakının çoxşaxəli və balanslı xarici siyasət strategiyasının bir hissəsidir.**



AZƏRTAC xəbər verir ki, rəsmi Bakı ilə ŞƏT arasında institusional əməkdaşlığın əsas xarakteri aşağıdakı mərhələlərlə xarakterizə olunur:

*- 2015-ci ildə ŞƏT-in Dövlət Başçıları Şurasının iclasında Azərbaycana "dialoq üzrə tərəfdaş" statusunun verilməsi ilə bağlı qərar qəbul edilib;*

*- 2016-cı ildə Pekində Azərbaycanın "dialoq üzrə tərəfdaş" statusunu rəsmiləşdirən Memorandum imzalanıb;*

*- 2022-ci ildə Səmərqənddə ŞƏT sammitində Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak edib;*

*- Prezident İlham Əliyev 2024-cü ildə Astanada ŞƏT-in Zirvə toplantısının iştirakçısı olub. Bununla da, institusional əlaqələr yeni müstəviyə keçib. Ona görə ki, həmin sammitdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə imzalanıb;*

*- 2025-ci il sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüşdə Prezident İlham Əliyev çıxış edib.*

## ŞƏT-in böyüməsi fonunda Azərbaycanın yeri

1996-cı ildə "Şanxay Beşliyi" əsasında formalaşan və 2001-ci il iyunun 15-də təsis edilən təşkilat özünü əsasən qonşu ölkələr arasında etimadın və əməkdaşlığın qurulmasına yönəldib. ŞƏT qısa tarixi dövr ərzində profilini əhəmiyyətli dərəcədə yüksəldərək, müasir qlobal siyasi-iqtisadi arxitekturanın həlledici komponentlərindən birinə çevrilib. Ona görə də ŞƏT-in cari və perspektiv gündəliyi regional inkişafın demək olar ki, bütün əsas sahələrini əhatə edir. Azərbaycan isə bu prosesin iştirakçısına çevrilərək regionlararası inteqrasiya modelində mandatını genişləndirir.

ŞƏT-in tamhüquqlu iştirakçıları 10 ölkə - Rusiya, Belarus, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Tacikistan və Özbəkistandır. Hazırda Əfqanıstan və Monqolustan təşkilatda müşahidəçi, Azərbaycan, Bəhreyn, Misir, Kamboca, Ermənistan, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Türkiyə və Şri-Lanka isə təşkilatın dialoq tərəfdaşı statusuna malikdirlər.

Azərbaycan Respublikasının məhz belə bir təşkilatda mövqelənməsi regional və qlobal çağırışların yenilənməsi fonunda diqqətəlayiq hadisədir. Çünki ŞƏT Avrasiya üzrə geosiyasətin təyin edilməsində böyük dəyərə malikdir. Avrasiyada artan iqtisadi, siyasi və nəqliyyat-logistika potensialı həmin məkanın qlobal güc balansının formalaşmasında rolunu daha da artırır.

ŞƏT dünya nizamında və qlobal idarəetmədə, beynəlxalq hüququn tətbiqi və beynəlxalq idarəetmənin effektivliyi ilə bağlı mübahisələrin artdığı bir dövrdə dünya siyasətinin vizyonunda mövqeyini irəliyə aparır. Təşkilatın yanaşması çoxqütblü dünya nizamının qurulmasına uyğun şəkildə inkişaf edir.

## Çinlə əlaqələr nə deməkdir?

ŞƏT dünya əhalisinin, ərazisinin və iqtisadiyyatının mühüm bir hissəsini birləşdirərək regional və qlobal proseslərdə getdikcə daha çəkili söz sahibinə çevrilir. Hətta Çinin və Hindistanın ŞƏT-də təmsil olunması Avrasiya məkanında mühüm geosiyasi tarazlıq amili kimi qiymətləndirilə bilər. Bu, gərgin rəqabətdən əməkdaşlığa keçidi rəmzləşdirə biləcək mühüm məqamdır.

2025-ci ildə üzv dövlətlərin ümumi iqtisadi gücü dünya iqtisadiyyatının təxminən 33 faizini təşkil edərək 30 trilyon dollara çatıb. ŞƏT-in uğuru təkcə onun sıralarının genişlənməsi ilə ölçülmür. Bu təşkilatı fərqləndirən əsas xüsusiyyətlərdən biri onun əməkdaşlıq fəlsəfəsi ilə əlaqəlidir. Burada ölkələr üçüncü tərəflərə qarşı yönəlmiş hərbi ittifaqlar yaratmadan bərabərhüquqlu tərəfdaşlıq prinsipləri ilə fəaliyyət göstərirlər.

Digər tərəfdən, qlobal liderlik rolu üçün lazım olan əhəmiyyətli xüsusiyyətlərə yiyələnən Çin ŞƏT-də məxsusi dəyərə sahibdir. Çin bir sıra təşəbbüslərin müəllifi kimi çıxış etməklə tərəfdaşlıq coğrafiyasını genişləndirir. Bu, Azərbaycanın xarici siyasət prioritetləri ilə uyğundur. Prezident İlham Əliyevin ötən ilin aprelində Çinə dövlət səfəri zamanı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında Hərtərəfli Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyanat" imzalanması Bakı-Pekin əlaqələrinin ŞƏT formatındakı inkişafına əlavə çəki qazandırır.

Dövlətimizin başçısı 2025-ci ilin sentyabrında "ŞƏT Plyus" formatında keçirilən görüşdə deyib: "Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq".

Digər tərəfdən, Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət kursunda çoxtərəfli platformalara, o cümlədən ŞƏT-ə spesifik tərəfdən yanaşır. Bunu şərtləndirən başqa bir amil Azərbaycanın geoiqtisadiyyatdakı mövqeyi ilə əlaqəlidir. Şərqlə Qərbi birləşdirən nəqliyyat-logistika şəbəkəsinin mühüm xətti olan Azərbaycan üçün bunun əhəmiyyəti Zəngəzur dəhlizi fonunda strateji mənaya malikdir. Bu, ölkəmizə Cənubi Qafqaz geosiyasətinin zirvəsindəki mövqeyini şaxələndirməyə imkan verir.

Bu sitat Azərbaycanın geostrateji mövqeyindən irəli gələrək ŞƏT-ə necə yanaşmasının indikatorudur. Bunu aşağıdakı tezislərlə ifadə etmək mümkündür:

1. Azərbaycan Çinin qlobal təşəbbüslərini dəstəkləməklə, bunu sülh, təhlükəsizlik və inkişaf baxımından əhəmiyyətli hesab edir;

2. Azərbaycan Çinlə əməkdaşlığı beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər kontekstində qiymətləndirir. Bununla Azərbaycan daha ədalətli və səmərəli beynəlxalq idarəetmə mexanizmlərinin formalaşdırılmasına marağını nümayiş etdirir.

3. Azərbaycanın Çinin təşəbbüslərinə dəstəyi beynəlxalq hüquq və suveren bərabərlik prinsiplərinə əsaslanır.

Azərbaycan ŞƏT və Çinlə əlaqələrə çoxtərəfli təhlükəsizlik məsələlərində koordinasiyaedici müstəvi kimi baxır.

Bu baxımdan Avrasiya geosiyasi məkanında mühüm təsir imkanlarına malik olan ŞƏT üzvü və tərəfdaş ölkələrlə əməkdaşlıq Azərbaycanın regional və qlobal proseslərdə mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır.

# "Azərbaycan Avrasiyada dialoqun əvəzolunmaz iştirakçısına çevrilib"

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitində beş türk dövlətinin liderinin iştirakı Bişkekdə müzakirə olunacaq gündəmə xüsusi əhəmiyyət verəcək.**

Bunu **Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi Hulusi KILIÇ** AZƏRTAC-ın müxbirinə müsahibəsində deyib.

Sabiq səfir beynəlxalq arenada ŞƏT-ə marağın artmasına diqqət çəkərək, 1996-cı ildə təşkilatın təməlini cəmi beş dövlətin qoyduğunu xatırladıb.

H.Kılıç Azərbaycan Prezidenti İlham Əliyevin Bişkekdə keçiriləcək tədbirlərdə iştirakının əhəmiyyətini qeyd edib, Bakının xarici siyasətinin, ŞƏT ölkələri ilə qarşılıqlı fəaliyyətin töhfə verdiyi istiqamətlərini diqqətə çatdırıb.

"Azərbaycan bu gün Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıq edir. Bakının bu dövlətlərlə növbəti ümumi platformada təmsil olunması, şübhəsiz ki, qarşılıqlı fəaliyyət formatını stimullaşdırır", - deyə Türkiyənin sabiq səfiri qeyd edib.

Onun sözlərinə görə, ŞƏT sammitində müzakirələrin mühüm mövzularından biri Avrasiyada, o cümlədən Orta dəhliz və onun tərkib hissəsi olan Zəngəzur dəhlizi üzrə nəqliyyat-logistika kommunikasiyalarının inkişafı olacaq.

"ŞƏT platforması Avropa ilə Asiya arasında əlaqələrin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu isə Azərbaycanla Türkiyənin töhfəsi və dəstəyi olmadan mümkün deyil. Azərbaycanın regionda nüfuzunun artması Bakını Avrasiyada dialoqun əvəzolunmaz iştirakçısına çevirib. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Bişkekdə keçiriləcək sammitdə iştirakı iki qardaş ölkənin xarici siyasət kurslarının bir-birini tamamladığını göstərir", - deyə İMZA birliyinin nümayəndəsi əminliyini ifadə edib.




Sabiq səfir Bişkekdə keçiriləcək müzakirələrin Ankara və Bakı üçün yalnız ŞƏT ölkələri ilə dialoq imkanı deyil, həm də türk dünyasının geosiyasi əlaqələr platformasının möhkəmləndirilməsinə töhfə olacağını vurğulayıb.

Bununla yanaşı, o, Türkiyə liderinin ŞƏT-in ikigünlük müzakirələrində iştirakını NATO, Avropa İttifaqı və ümumilikdə Qərblə əməkdaşlığa paralel olaraq türk dünyası və Avrasiyanın digər ölkələri ilə dialoqu inkişaf etdirən Ankaranın çoxvektorlu diplomatiyasının göstəricisi adlandırıb. "Türkiyə üçün ŞƏT sammiti ikitərəfli və çoxtərəfli əsasda diplomatik əlaqələri dərinləşdirmək imkanıdır", - deyə H.Kılıç qeyd edib.

Türkiyənin sabiq səfirinin fikrincə, ŞƏT sammiti həm də qlobal siyasətdə çoxqütblülüyə üstünlük verilən və beynəlxalq münasibətlərin mərkəzi oxu kimi Qərbə yönəlməkdən imtina edilən yeni reallıqların nümayişidir.

"ŞƏT yalnız müasir dövrün çağırış və təhdidlərinin müzakirə formatı deyil, həm də Avrasiyada yeni əlaqələrin qurulması üçün platformadır. Türkiyə prizmasından söhbət Şərqlə yaxınlaşmadan gedir, lakin bu, Qərblə dialoqa zərər gətirməməlidir. Azərbaycan üçün prioritet geosiyasi nüfuzunu artırmaqdır", - deyən H.Kılıç fikirlərini yekunlaşdırıb.



# Azərbaycan-ŞƏT tərəfdaşlığının strateji perspektivləri

## Bu nüfuzlu təşkilatla sıx əməkdaşlıq ölkəmizin aparıcı mövqeyini göstərməklə yanaşı, Avrasiya məkanında inteqrasiyaya böyük töhfə verir

**Dünya köklü dəyişiklik mərhələsini yaşayır. Belə mürəkkəb şəraitdə hər bir dövlətin beynəlxalq aləmdə tutduğu mövqe həmin ölkənin həyata keçirdiyi xarici siyasətin çevikliyindən və uzaqgörənliyindən bilavasitə asılıdır. Azərbaycan qlobal nizamın yenidən formalaşdığı həssas dönəmdə müstəqil siyasət yürüdərək öz mövqelərini daha da möhkəmləndirir, beynəlxalq müstəvidə uğurlu diplomatiya yürüdür.**

Dövlətimizin başçısı İlham Əliyevin yüksək nüfuzu, siyasi iradəsi və qətiyyətli addımları ölkəmizin bu proseslərdə daha fəal rol almasını təmin edir. Məhz bu məqsədyönlü liderlik sayəsində Azərbaycan müasir dövrün tələblərinə cavab verərək beynəlxalq miqyasda nüfuzlu "orta güc"ə çevrilib.

Ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, dayanıqlı sülh prosesini başlatması sadəcə Cənubi Qafqaz regionu üçün deyil, daha geniş coğrafiya üçün tamamilə yeni imkanlar və əməkdaşlıq üfüqləri açıb. Bölgədə sülh və sabitliyin təmin olunması Azərbaycanın xarici siyasət coğrafiyasını daha da genişləndirməsinə təkan verib. Son zamanlar ölkəmizin Avropa, Asiya və Afrika dövlətləri ilə münasibətləri dinamik inkişaf etməkdədir. Azərbaycan bu regionların ölkələri ilə həm ikitərəfli formatda, həm də çoxşaxəli platformalarda qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrini dərinləşdirir. Çoxqütblü dünya nizamının tərəfdarı olan, qlobal təşəbbüslərdə aktiv rol alan Azərbaycan beynəlxalq təşkilatlarda fəaliyyətini getdikcə gücləndirir.

Bu gün Azərbaycan qlobal gündəliyin formalaşdığı, vacib qərarların qəbul edildiyi mühüm mərkəzə çevrilib. Ölkəmizin 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurlu sədrlik etməsi bu sahədə qazanılmış ən böyük diplomatik uğurlardan biridir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz də Azərbaycanın qlobal problemlərin həllindəki liderliyini nümayiş etdirir. Eyni zamanda 13-cü Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi etməyimiz və D-8 təşkilatına üzvlüyümüz ölkəmizin artan beynəlxalq çəkisinin göstəricisidir. Ötən ilin iyul ayına İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə təşkil olunmuş Zirvə toplantısı da xüsusi rəmzi və siyasi məna daşıyır. Bununla yanaşı, Azərbaycan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə 2024-2026-cı illər üzrə uğurla sədrlik edir. Bu sədrlik çərçivəsində 2026-cı ildə ölkəmizdə AQEM Zirvə toplantısının təşkili planlaşdırılır. Bütün bu tədbirlər və qlobal təşəbbüslər Azərbaycanın beynəlxalq miqyasda önəmli tərəfdaş kimi qəbul edildiyinin nümunəsidir.

Azərbaycanın fəal əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq qurumlardan biri də Şanxay Əməkdaşlıq Təşkilatıdır. 2001-ci il iyunun 15-də Şanxay şəhərində təməli qoyulan ŞƏT ilk vaxtlar Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan ibarət idi. Zaman keçdikcə qurum böyüdü, 2017-ci ildə Hindistan və Pakistan, 2023-cü ildə İran, 2024-cü ildə isə Belarus təşkilata tamhüquqlu üzv oldu. Təşkilatın hüquqi bazasını 25-dən çox müqavilə və sənəd təşkil edir. Bu fakt qurumun fəaliyyətinin geniş sahələri əhatə edən böyük bir əməkdaşlıq sisteminə çevrildiyini göstərir. Burada terrorçuluq, separatçılıq, radikallıq, narkotik və silah alveri, mütəşəkkil cinayətkarlıqla mübarizə ilə yanaşı, ticarət, sərmayə qoyuluşu, yol-nəqliyyat infrastrukturu, tranzit daşımaları və enerji sistemlərinin inkişafı da əsas prioritetlər sırasındadır.

2025-ci ilin sentyabrından etibarən ŞƏT-ə Qırğızıstan sədrlik edir. Təşkilatın 2026-cı il Zirvə toplantısı Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev də Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğızıstana işgüzar səfər edib.

Yaradılmasının 25 illiyini qeyd edən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) hazırda 10 tamhüquqlu üzvü özündə birləşdirir. Təşkilatın əhatə etdiyi ərazi təxminən 36 milyon kvadratkilometr, bu ölkələrdə yaşayan əhalinin sayı isə 3,4 milyard nəfərdən çoxdur. Dünya Bankının 2025-ci il üzrə göstəricilərinə görə, ŞƏT-in 10 üzvünün ümumi iqtisadi həcmi təxminən 27,4 trilyon dollara çatır ki, bu da ümumi dünya iqtisadiyyatının dörddəbirinə yaxındır. ŞƏT bir tərəfdən, böyük əhali və alıcılıq qabiliyyətinə malik bazarları, digər tərəfdən, zəngin neft-qaz və xammal ehtiyatları olan ölkələri, eyni zamanda Avrasiya materikinin əsas quru tranzit yollarını bir araya gətirir. Bu üstünlüklər təşkilatın iqtisadi və coğrafi-siyasi çəkisini daha da artırır.

ŞƏT-in 2035-ci ilə qədər olan İnkişaf Strategiyası qurumun gələcək yol xəritəsini müəyyən edir. Sənəddə təhlükəsizliklə bərabər ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi, birgə layihələrin icrası, elm, texnologiya, səhiyyə, ətraf mühitin qorunması və təhsil sahələrində əlaqələrin dərinləşdirilməsi əsas məqsəd kimi göstərilir.

Azərbaycan bu geniş coğrafiya ilə təkcə təkbətək əlaqələr saxlamır, həm də təşkilat səviyyəsində əməkdaşlıq edir ki, bu da ölkəmizə ŞƏT-in siyasi, iqtisadi, tranzit, energetika, təhlükəsizlik və mədəniyyət sahələrindəki fəaliyyətinə yaxından qoşulmaq imkanı yaradır. Ölkəmiz üçün bu məkan həm mövcud ticarəti böyütmək, həm də logistika, investisiya və sənaye imkanlarını artırmaq baxımından çox önəmlidir. Azərbaycanın gücü həmin böyük bazarları Avropa ilə birləşdirən etibarlı mərkəz rolu oynamağındadır.

Enerji resurslarına malik olmaq qədər onları təhlükəsiz, fasiləsiz və müxtəlif yollarla ehtiyacı olan ölkələrə çatdırmaq da həyati əhəmiyyət daşıyır. Azərbaycanın əsas üstünlüyü də məhz burada ortaya çıxır. Təxminən 3500 kilometrlik "Cənub qaz dəhlizi" Azərbaycan qazını Gürcüstan və Türkiyədən keçirməklə Avropaya çatdırır. 2025-ci ildə Azərbaycan Avropa İttifaqı ölkələrinə bu marşrutla 12,5 milyard kubmetr təbii qaz göndərib. Bakı-Tbilisi-Ceyhan, TANAP və TAP kimi iri layihələr ölkəmizin müxtəlif regionları birləşdirmək gücünün təzahürüdür. Hazırda üzərində işlənilən Zəngəzur dəhlizi (TRIPP) bu imkanları bir qədər də artıracaq.

Eyni vəziyyət nəqliyyat sektorunda da müşahidə olunur. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan ilə ŞƏT-in üzv dövlətləri arasında əməkdaşlığın əsas sahələrindən birini təşkil edir. Çin və Mərkəzi Asiyanın istehsal mərkəzləri, Rusiya, İran və Hindistan istiqamətləri, Xəzər dənizi və Qərb bazarları arasında əlaqələrin sıxlaşması yeni logistika yollarını tələb edir. Azərbaycan bu xəritədə xüsusi mövqeyə malikdir. Bakı Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi müxtəlif istiqamətlərə rahat çıxış yaradır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələdə illik 15 milyon ton yük daşıma gücünə malik olması, gələcəkdə bu göstəricinin 25 milyon tona yüksəldilməsinin planlaşdırılması Azərbaycanın regiondakı tranzit mövqeyini daha da gücləndirəcək.

Azərbaycan ilə ŞƏT arasındakı siyasi əlaqələr də nəzərəçarpan dərəcədə intensivləşib. Bu prosesdə Çin ilə münasibətlər xüsusi rol oynayır. 2024-cü il iyulun 3-də Astanada Azərbaycan və Çin arasında imzalanmış "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də Çin tərəfi Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığını dəstəklədiyini və ölkəmizin təşkilatdakı rəsmi statusunun artırılmasına tərəfdar olduğunu bildirib. Çinin təşkilatda aparıcı ölkələrdən biri olması və Azərbaycanla strateji əlaqələrini dərinləşdirməsi yeni imkanlar açır. Azərbaycan-Çin münasibətlərinin yeni mərhələyə qədəm qoyması ŞƏT çərçivəsindəki əməkdaşlığın iqtisadi yükünü də artırır. Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini fəal dəstəkləməsi, Çində "Azərbaycan Ticarət Evi"nin açılması, ticarət, investisiya və logistika sahələrindəki irəliləyişlər iki ölkə arasındakı bağları daha da möhkəmləndirir.

Ölkəmizin ŞƏT ilə siyasi təmaslarının artması Prezident İlham Əliyevin təşkilatın yüksəksəviyyəli toplantılarında iştirakı ilə də təsdiqlənir. Dövlətimizin başçısı İlham Əliyev 2022-ci ildə ŞƏT-in Özbəkistanda fəxri qonaq qismində, 2024-cü ildə Qazaxıstanda və 2025-ci ildə Çində keçirilən sammitlərində iştirak və çıxışlar edib. Prezident İlham Əliyevin 2025-ci il avqustun 31-də Tiencində keçirilən "ŞƏT plyus" formatındakı görüşdə iştirakı bu baxımdan xüsusi önəm kəsb edib.

Hazırda Azərbaycan ilə ŞƏT arasında çoxşaxəli əməkdaşlıq istiqamətində fəaliyyət uğurla davam etdirilir. Humanitar əlaqələr də münasibətlərin vacib hissəsidir. Mədəniyyət, təhsil, elm, səhiyyə, turizm, mədəniyyətlərarası dialoq və multikulturalizm sahəsindəki əməkdaşlıq bu tərəfdaşlığın iqtisadi və siyasi maraqlarla yanaşı, xalqlararası yaxınlaşmaya da söykəndiyinə dəlalət edir.

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə getdikcə dərinləşən strateji tərəfdaşlığı ölkəmizin geoiqtisadi mövqeyini daha da möhkəmləndirməklə yanaşı, Avrasiya məkanında dayanıqlı sülh və inteqrasiyaya mühüm töhfə verir. Şərqlə Qərbi birləşdirən Azərbaycan bu çoxtərəfli platforma çərçivəsində qlobal miqyasda nüfuzunu daha da artırır.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# ŞƏT ilə genişlənən tərəfdaşlıq

## Azərbaycanın strateji xarici siyasət prioritetlərindən biridir

**"Beynəlxalq münasibətlər sisteminin yenidən formalaşdığı müasir dövrdə çoxqütblü dünya nizamına keçid və qlobal idarəetmə institutlarının rolu aparıcı diplomatik platformaların ana müzakirə mövzusuna çevrilib. Bu xüsusda şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) genişləndirilmiş tərəfdaşlıq formatı olan "ŞƏT+" görüşləri qlobal dialoqa öz töhfəsini verir. Ölkəmizin həyata keçirdiyi uğurlu, müstəqil və balanslaşdırılmış xarici siyasət kursu dünyanın aparıcı beynəlxalq institutları ilə səmərəli əlaqələrin qurulmasına geniş imkanlar yaradır. Bu mənada Avrasiya məkanının siyasi, təhlükəsizlik və iqtisadi arxitekturasında xüsusi çəkiyə malik olan Şanxay Əməkdaşlıq Təşkilatı ilə inkişaf edən əlaqələr ölkəmizin xarici siyasət prioritetlərində mühüm yer tutur".**



Bu fikirləri **Milli Məclisin deputatı Kamran BAYRAMOV** mətbuata açıqlamasında bildirib. O qeyd edib ki, Avropa ilə Asiyanın kəsişməsində yerləşən, Xəzər dənizinə çıxışı olan və müasir nəqliyyat infrastrukturu formalaşdıran ölkəmiz Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında mühüm bağlantı qovşağı rolunu oynayır. Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və milli maraqlara əsaslanan xarici siyasət Azərbaycanın müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmasına imkan yaradıb. Ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunması isə bu uğurlu siyasətin mühüm nəticəsidir.

Son illərdə Asiyanın aparıcı dövlətləri ilə siyasi, iqtisadi, energetika və logistika sahələrində əlaqələrini genişləndirən Azərbaycan üçün Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) mühüm beynəlxalq platformalardan birinə çevrilmişdir. 2026-cı ildə yaradılmasının 25-ci ildönümünü qeyd edən ŞƏT 2001-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan tərəfindən regional təhlükəsizliyin və etimadın möhkəmləndirilməsi məqsədilə təsis edilib. Bu təşkilata 2017-ci ildə Hindistan və Pakistan, 2023-cü ildə İran, 2024-cü ildə isə Belarus qoşulub. Beləliklə, tamhüquqlu üzvlərin sayı 10-a çatıb. ŞƏT 10 üzv dövlətlə yanaşı, 2 müşahidəçi və 15 dialoq tərəfdaşını bir araya gətirir. Təşkilat təxminən 36 milyon kvadratkilometr ərazini və 3,4 milyarddan çox əhalini əhatə edən nəhəng bir məkandır. Dünya Bankının 2025-ci il göstəricilərinə görə, üzv ölkələrin ümumi nominal ÜDM-i 27,4 trilyon dollar təşkil edir ki, bu da qlobal iqtisadiyyatın 23,1 faizinə bərabərdir. Zəngin enerji və xammal resurslarına, nəhəng istehlak bazarlarına və Avrasiyanın əsas quru nəqliyyat marşrutlarına malik olması platformanın iqtisadi və geosiyasi çəkisini daha da artırır. Təşkilatın 2002-ci il xartiyasına əsaslanan hüquqi bazası dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq və məsələləri sülh yolu ilə həll etmək prinsiplərinə söykənir. ŞƏT hərbi və ya siyasi blok deyil; fərqli idarəetmə sistemlərinə malik ölkələrin ortaq maraqlar ətrafında bərabərhüquqlu tərəfdaşlıq platformasıdır. Təşkilatın gündəliyi terrorizm, separatizm, ekstremizm və transmilli cinayətkarlıqla mübarizədən tutmuş iqtisadiyyat, investisiya, energetika, nəqliyyat, elm, təhsil və səhiyyəyə qədər geniş sahələri əhatə edir. ŞƏT-in 2035-ci ilədək İnkişaf Strategiyası da məhz bu çoxşaxəli layihələrin həyata keçirilməsini prioritet hesab edir. Azərbaycan bu nəhəng məkanla həm ikitərəfli, həm də institusional çərçivədə sıx bağlıdır. Ölkəmiz 2015-ci ildən təşkilatın dialoq tərəfdaşı statusuna malikdir. 2025-ci ilin avqust-sentyabr aylarında Tyantszin Sammitində qəbul edilən qərara əsasən statuslar optimallaşdırılmış və Azərbaycanın təşkilatdakı mövqeyi vahid "ŞƏT tərəfdaşı" statusu kimi müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin ŞƏT-in Zirvə görüşlərində və "ŞƏT+" formatında fəal iştirakı Azərbaycanın bu platformaya verdiyi əhəmiyyəti göstərir. Tərəfdaşlıq regional təhlükəsizlik, kibercinayətkarlıqla mübarizə, ticarət, KOB-ların dəstəklənməsi və humanitar əlaqələri ehtiva edir. Xüsusilə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2021-ci ildə Nizami Gəncəvinin büstünün Pekindəki ŞƏT qərargahında ucaldılması bu mədəni bağların bariz nümunəsidir. Eyni zamanda "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat koridorlarının kəsişməsində yerləşən Azərbaycan ŞƏT ölkələri üçün əvəzolunmaz tranzit və logistika tərəfdaşıdır. Qırğızıstanın Bişkekdə təşkil etdiyi yubiley sammiti və "ŞƏT+" dialoqları çoxqütblü dünya nizamının formalaşmasında bu əməkdaşlığın rolunu bir daha nümayiş etdirir. Azərbaycanın ŞƏT ilə dərinləşən münasibətləri ölkəmizin milli maraqlarına, təhlükəsizlik prioritetlərinə və transregional logistika strategiyasına tam cavab verməklə, onun Avrasiya məkanındakı nüfuzlu və balanslaşdırılmış mövqeyini daha da möhkəmləndirir.

Deputat diqqətə çatdırıb ki, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) əhatə etdiyi geniş coğrafiya həm dünyanın ən böyük enerji istehsalçılarını, həm də əsas enerji istehlakçılarını özündə birləşdirir. Günümüzdə enerji resurslarına sahib olmaq qədər, onların təhlükəsiz, sabit və şaxələndirilmiş marşrutlarla bazarlara çatdırılması da strateji əhəmiyyət kəsb edir. Azərbaycanın bu müstəvidəki üstünlüyü məhz burada üzə çıxır. Ölkəmiz regionun ən böyük enerji istehsalçısı olmasa da, enerjinin hasil edildiyi bölgələrlə istehlak bazarları arasında əvəzolunmaz bağlantı halqasıdır. Təxminən 3500 kilometr uzunluğunda olan "Cənub qaz dəhlizi" Azərbaycan qazını Gürcüstan və Türkiyə üzərindən Avropaya nəql edən mühüm sistemdir. 2025-ci ildə bu dəhliz vasitəsilə Avropa İttifaqı ölkələrinə 12,5 milyard kubmetr təbii qaz tədarük edilmişdir. Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP və hazırda inkişaf etdirilən Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın enerji və nəqliyyat infrastrukturu imkanlarını daha da genişləndirir. Eyni strateji məntiq nəqliyyat-logistika sahəsində də özünü göstərir. ŞƏT məkanı Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan əsas quru nəqliyyat marşrutlarının böyük hissəsini əhatə edir. Çin, Mərkəzi Asiya, Rusiya, İran, Hindistan və Xəzər hövzəsini Qərb bazarları ilə birləşdirən xəritədə Azərbaycan xüsusi geostrateji mövqeyə malikdir. Ölkəmiz eyni vaxtda "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişmə nöqtəsində yerləşir.

Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi regional bağlantıları təmin edən ana arteriyalardır. Bu zəncirdə mühüm halqa olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələ üzrə illik yükaşırma qabiliyyəti 15 milyon ton və 100 min TEU təşkil edir. Gələcəkdə bu göstəricinin 25 milyon ton və 500 min TEU-ya çatdırılması nəzərdə tutulur ki, bu da Azərbaycanın Avrasiyanın logistika xəritəsindəki aparıcı mövqeyini daha da möhkəmləndirəcəkdir.

K.Bayramov vurğulayıb ki, Azərbaycanın müxtəlif geosiyasi məkanlarla paralel əməkdaşlıq siyasəti də ŞƏT-lə münasibətlərinin məzmununu genişləndirir. Avropa ilə siyasi və iqtisadi əlaqələrin inkişafı, türk dünyası və islam ölkələri ilə əməkdaşlığın dərinləşdirilməsi ölkəmizin müxtəlif regional platformalar arasında əlaqələndirici rolunu gücləndirir. Cənubi Qafqazda yeni sülh reallıqlarının formalaşması isə bu imkanlara nəqliyyat və iqtisadi bağlantılar baxımından əlavə məzmun qazandırır. Siyasi dialoqu iqtisadi əməkdaşlıq tamamlayır. 2025-ci ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsi 48,9 milyard dollar təşkil edib. Həmin il xarici ticarətdə Rusiya 10 faiz, Çin 9,9 faiz, Özbəkistan 1,6 faiz, Qazaxıstan 1,4 faiz, İran isə 1,3 faiz paya malik olub. Bu göstəricilər ŞƏT üzvlərinin Azərbaycan üçün artıq real və əhəmiyyətli iqtisadi tərəfdaşlara çevrildiyini göstərir. Əlaqələrin genişləndirilməsi üçün potensial yalnız ticarətlə məhdudlaşmır. ŞƏT məkanı Azərbaycan üçün nəqliyyat və logistika, investisiya, sənaye, energetika və qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsi baxımından böyük imkanlar yaradır. Azərbaycanın Orta dəhlizdəki mövqeyi, Xəzər üzərindən nəqliyyat bağlantıları və Avropa bazarlarına çıxış imkanları ŞƏT ölkələrinin artan istehsal və ixrac potensialı ilə birləşdikdə yeni iqtisadi zəncirlərin formalaşmasına şərait yarada bilər. Cənubi Qafqazda sülhün möhkəmlənməsi isə "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarının daha səmərəli inteqrasiyası üçün əlavə imkanlar yaradır. Bu baxımdan Azərbaycan-Qırğızıstan əlaqələrinin inkişafı, Mərkəzi Asiya ölkələri ilə artan iqtisadi əməkdaşlıq və Çinlə strateji tərəfdaşlığın dərinləşməsi daha geniş regional bağlantının ayrı-ayrı elementləri kimi çıxış edir. Azərbaycan-ŞƏT əməkdaşlığının gələcəyinə yalnız təşkilatla münasibətlərin formal genişlənməsi prizmasından yanaşmaq kifayət deyil. Əsas məsələ Azərbaycanın ŞƏT məkanının yaratdığı geniş iqtisadi və geosiyasi imkanları öz nəqliyyat, enerji, investisiya və diplomatik potensialı ilə səmərəli şəkildə uzlaşdıra bilməsidir. ŞƏT-in gücü onun nəhəng coğrafiyasında, əhalisində, iqtisadi resurslarında və bazarlarındadır. Azərbaycanın üstünlüyü isə bu nəhəng məkanı Xəzər üzərindən Qərb istiqaməti ilə birləşdirən strateji coğrafi mövqeyindədir. Ölkəmizin əsas üstünlüyü ŞƏT ölkələri ilə miqyas baxımından rəqabət aparmaqda deyil, həmin məkanın yaratdığı iqtisadi potensialı real nəqliyyat, logistika, enerji və investisiya imkanlarına çevirməsindədir.

K.Bayramov əlavə edib ki, bütün bu faktlar və geostrateji reallıqlar göstərir ki, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə getdikcə dərinləşən münasibətləri təkcə formal diplomatik tərəfdaşlıq xarakteri daşımır. Bu əməkdaşlıq ölkəmizin milli maraqlarına, regional təhlükəsizlik prioritetlərinə və transregional nəqliyyat-logistika strategiyasına tam cavab verir. Azərbaycanın təşkilatda "ŞƏT tərəfdaşı" statusunda yer alması, Prezident İlham Əliyevin sammitlərdə fəal iştirakı və Bakının "Şərq-Qərb" ilə "Şimal-Cənub" nəqliyyat dəhlizlərindəki əvəzedilməz rolu ölkəmizi Avrasiya məkanında mühüm qərarqəbuletmə mexanizmlərinin ayrılmaz hissəsinə çevirir. Nəticə etibarilə, ŞƏT ilə çoxşaxəli əlaqələrin inkişafı Azərbaycanın çoxqütblü dünya nizamında öz müstəqil, balanslaşdırılmış və nüfuzlu mövqeyini daha da möhkəmləndirməsinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şərq-Qərb yolunun Azərbaycan qovşağı

**İndiki beynəlxalq münasibətlər sistemində geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişməsi dövlətlərarası və çoxtərəfli əməkdaşlıq platformalarının əhəmiyyətini bir qədər də artırır. Bu baxımdan Avrasiyanın mühüm siyasi, iqtisadi və nəqliyyat tərəflərini bir araya gətirən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) xüsusi əhəmiyyət kəsb edir.**

ŞƏT-in yaranmasından ötən 25 il ərzində dünya da, regionlar da dəyişib. Dövlətlərin maraq və prioritetləri yeni məzmun qazanıb. Bir zamanlar yalnız Mərkəzi Asiyanın təhlükəsizlik və əməkdaşlıq gündəliyi ətrafında formalaşan bu platforma indi Avrasiyanın geniş coğrafiyasını əhatə edən, dünyanın mühüm siyasi və iqtisadi güclərini bir araya gətirən nüfuzlu təşkilat kimi möhkəmlənib. ŞƏT artıq Şərqlə Qərbin, Şimalla Cənubun kəsişdiyi böyük bir coğrafiyada dialoq, əməkdaşlıq və qarşılıqlı maraqların platformasıdır.

Bu gün ŞƏT miqyasına görə dünyanın ən böyük regional platformalarından biridir. Təşkilatın 10 üzv ölkəsində təxminən 3,5 milyard insan yaşayır. Bu, dünya əhalisinin təxminən 42 faizinə bərabərdir. ŞƏT ölkələrinin ümumi ərazisi isə 36 milyon kvadratkilometrə yaxındır ki, bu da planetin quru ərazisinin təxminən 24 faizini əhatə edir.

Qurumun iqtisadi çəkisi də onun geosiyasi əhəmiyyətini tamamlayır. ŞƏT ölkələrinin nominal ÜDM-i təxminən 27 trilyon dollardır ki, bu da dünya iqtisadiyyatının təxminən 23 faizi deməkdir. Alıcılıq qabiliyyəti nəzərə alındıqda isə ŞƏT ölkələrinin qlobal ÜDM-də payı 36 faizə yüksəlir. Bu rəqəmlərin özü də ŞƏT-in dünya iqtisadiyyatında böyük çəkiyə malik çox mühüm əməkdaşlıq məkanı olduğunu təsdiq edir.

Hazırda ölkəmizin ŞƏT-lə münasibətləri zamanın dəyişən ritminə uyğun olaraq yeni mərhələyə qədəm qoyub. Azərbaycanın bu təşkilata münasibəti təbii ki, təsadüfi maraqdan deyil. Bu, ölkənin yerləşdiyi coğrafiyanın yaratdığı imkanlardan, artan regional rolundan və çoxşaxəli xarici siyasət kursundan qaynaqlanır. Xüsusilə son illər dünyada nəqliyyat və logistika marşrutlarının əhəmiyyətinin artması Azərbaycanın strateji mövqeyini ön plana çıxarıb. Şərqdən Qərbə uzanan yollar, Xəzərdən keçən nəqliyyat xətləri, Bakı limanı, dəmir yolları və Orta dəhliz Azərbaycanın həm tranzit ölkəsi, həm də Avrasiyanın yeni iqtisadi xəritəsinin formalaşmasında fəal iştirak edən tərəf olduğunu göstərir.

Digər tərəfdən, ŞƏT-in coğrafiyasının genişlənməsi Azərbaycan üçün yeni iqtisadi və siyasi imkanlar deməkdir. Təşkilatın üzv dövlətləri arasında böyük enerji və geniş istehlak bazarlarının, sürətlə inkişaf edən nəqliyyat şəbəkələrinin olması əməkdaşlığın potensialını daha çox artırır. Ölkəmiz üçün bu məkan yeni ticarət əlaqələri, investisiya imkanları, nəqliyyat dəhlizlərinin inkişafı, enerji əməkdaşlığının şaxələndirilməsi və humanitar əlaqələrin genişləndirilməsi baxımından mühüm perspektivlər vəd edir. Azərbaycanın ŞƏT-də dialoq tərəfdaşı kimi fəaliyyətindən müşahidəçi statusuna doğru irəliləmək istəyi də məhz dəyişən reallığın ifadəsidir.

Əslində, Azərbaycanın ŞƏT-lə münasibətlərinin arxasında daha böyük bir mənzərə dayanır. Bu mənzərədə yollar var - Şərqdən Qərbə uzanan yollar. Xəzərin dərinliklərindən müxtəlif istiqamətlərə uzanan enerji xətləri var. Ticarət, qarşılıqlı maraqlar və diplomatik dialoq mövcuddur. Və bütün bu yolların bir nöqtəsində Azərbaycan dayanır. Məlumdur ki, beynəlxalq münasibətlərdə güc təkcə




siyasi və hərbi imkanlarla ölçülmür. Bu məsələdə dövlətlərin bir-biri ilə nə qədər əlaqə qura bilməsi, körpü yaratması, fərqli maraqların ortaq məxrəcə gətirilməsi də böyük əhəmiyyət kəsb edir.

Ona görə ŞƏT ilə əməkdaşlığın perspektivləri həm də gələcəyin məsələsidir. Qarşıdakı illərdə nəqliyyat və logistika, enerji, rəqəmsal iqtisadiyyat, investisiya, kənd təsərrüfatı, turizm, elm və təhsil kimi sahələrdə yeni imkanların yaranması mümkündür. Ən əsası isə bu əməkdaşlıq qarşılıqlı maraqlar üzərində qurulduğu təqdirdə, Azərbaycanla ŞƏT ölkələri arasında münasibətləri daha dərin və çoxşaxəli müstəviyə daşıyar. Zaman dəyişir, yollar yenilənir, coğrafiyalar bir-birinə daha sıx bağlanır. Bu böyük hərəkətin içərisində Azərbaycan üçün əsas məsələ yolun üzərində dayanmaq yox, həmin yolun istiqamətini müəyyən edən ölkələrdən birinə çevrilməkdir.

Bu mənada ŞƏT-in Bişkekdə keçirilən ikigünlük Zirvə toplantısı beynəlxalq gündəmin diqqətçəkən hadisələrindəndir. Təşkilatın 25 illiyinə həsr olunan sammitin əsas şüarı "Dayanıqlı sülh, inkişaf və rifah naminə birlikdə"dir. Azərbaycanın bu toplantıda iştirakı isə ölkəmizin dəyişən Avrasiya məkanında fəal tərəf kimi mövqeyini möhkəmləndirir. Prezident İlham Əliyevin tədbirdə iştirakı ölkəmizin ŞƏT-ə verdiyi önəmi və üzv ölkələrlə əməkdaşlığı genişləndirmək niyyətini nümayiş etdirir.

Bu əməkdaşlığın ən real və görünən istiqamətlərindən biri isə nəqliyyatdır. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri Azərbaycanı ŞƏT ölkələri ilə birləşdirən əsas marşrutlardandır. Bu yollar ölkəmizin Avrasiyanın nəqliyyat xəritəsində rolunu artırır. Qeyd edək ki, Azərbaycanın ŞƏT məkanındakı əlaqələri sadəcə nəqliyyatla məhdudlaşmır. Hələ 2021-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nizami Gəncəvinin büstünün Pekindəki ŞƏT qərargahında ucaldılması bu əlaqələrin mədəni ölçüsünü göstərən nümunələrdəndir. Nizami Gəncəvi burada Çin filosofu Konfutsidən sonra büstü qoyulan ikinci tarixi şəxsdir.

Xatırladaq ki, ötən il Çinin Tiencin şəhərində keçirilən ŞƏT sammitində təşkilatın inkişafı ilə bağlı mühüm qərarlar qəbul olunub. Müşahidəçi və dialoq tərəfdaşı statuslarının vahid "ŞƏT tərəfdaşı" statusunda birləşdirilməsi ilə Azərbaycanın da təşkilatdakı statusu dəyişib. Hazırda Azərbaycanla yanaşı, Türkiyə, Misir, Qətər, Səudiyyə Ərəbistanı, BƏƏ və digər ölkələr ŞƏT tərəfdaşı statusuna malikdir. Bu, təşkilatın coğrafiyasının və əməkdaşlıq imkanlarının genişləndiyini göstərir.

Bütün bu deyilənlərə söykənərək deyə bilərik ki, Azərbaycanla ŞƏT arasındakı əməkdaşlıq nəqliyyat, ticarət və investisiya imkanlarının genişlənməsi üçün yeni yollar açır. Ölkəmiz isə Avrasiyanın dəyişən mənzərəsində bu imkanlardan istifadə edərək öz mövqeyini bir qədər də gücləndirməyə çalışır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Özbəkistan strateji əməkdaşlığı sürətli yüksəliş yolundadır

**Özbəkistan qədim İpək yolunun üzərində yerləşən, Səmərqənd və Buxara kimi mədəniyyət inciləri ilə dünya sivilizasiyasına Əmir Teymur, Mirzə Uluqbəy, İbn Sina və Əl-Xarəzmi kimi dahi şəxsiyyətlər bəxş etmiş zəngin tarixə malik bir diyardır. Hazırda bu qardaş ölkə strateji logistika qovşağı olmaqla yanaşı, dinamik inkişaf edən müasir sənaye sahələrinə və geniş kənd təsərrüfatı potensialına malik regional gücə çevrilmişdir. Müxtəlif çağlarda tarixin amansız sınaqlarından üzüağ çıxan özbək xalqı hazırda Mərkəzi Asiyada özünün iqtisadi potensialına və sülhsevər xarici siyasətinə görə söz sahiblərindən biri kimi çıxış edir.**



Hər il dövlət müstəqilliyinin ildönümünü ölkənin daxili və xarici siyasətində əldə olunmuş böyük uğurlarla qeyd edən Özbəkistan həmçinin bir sıra möhtəşəm beynəlxalq geoiqtisadi logistika layihələrinin fəal iştirakçılarından biridir.

Sürətli tərəqqi yoluna qədəm qoymuş qardaş ölkə son illər bir sıra uğurlara imza atmışdır. 2026-cı ilin ilk rübündə Özbəkistanın rəsmi qızıl ehtiyatı təxminən 415-416 ton, ikinci rübdə isə artaraq 431,7 tona çatmışdır. 1 avqust 2026-cı il tarixinə Özbəkistanın beynəlxalq (qızıl-valyuta) ehtiyatları 64,34 milyard dollar təşkil etmişdir.

2025-ci ildə ümumi daxili məhsul 7,7 faiz artaraq 147 milyard dolları keçib. Artıq 2026-cı ilin birinci yarısında iqtisadiyyat 8,5 faiz artıb və cari ilin sonunadək ümumi daxili məhsulun həcminin 180 milyard dollar səviyyəsinə çatması gözlənilir. Belə ki, artıq 2026-cı ilin birinci rübündə ümumi daxili məhsul 37,2 milyard dollar təşkil edib. Real olaraq iqtisadiyyat ötən ilin eyni dövrü ilə müqayisədə 8,7 faiz artıb. Bu, mühüm nailiyyətdir.

Özbəkistanda sənaye istehsalının həcmi 2025-ci ildə 87,5 milyard dollar təşkil etmişdir. Belə ki, sənaye istehsalı ölkənin ümumi daxili məhsulunun təxminən 33,6 faizini təşkil etmişdir.

Kənd təsərrüfatı Özbəkistan iqtisadiyyatının aparıcı və strateji sahələrindən biridir (ÜDM-in təxminən dörddəbirini təşkil edir). 2025-ci ildə ölkədə ümumi dənli bitkilər (əsasən buğda) yığımı 10,11 milyon tonu ötüb keçib. Bu göstərici əvvəlki illə müqayisədə təqribən 13 faiz artım deməkdir. Həmçinin qabaqcıl texnologiyalar və yüksək məhsuldar sortların tətbiqi sayəsində təxminən 4 milyon ton xam pambıq yığılmışdır.

Son illər həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində aqrar sahə köhnə planlı iqtisadiyyat sistemindən azad olaraq innovativ, şaxələnmiş və bazar yönümlü bir istiqamətə transformasiya olunur.

Tarixən, əsasən, pambıq və buğda istehsalına yönəlmiş sahə indi aktiv şəkildə şaxələndirilir. Aşağı məhsuldar torpaqlarda pambıq əkinləri azaldılaraq həmin sahələr meyvə-tərəvəz, paxlalılar, yağlı bitkilər və yem bitkilərinin becərilməsinə yönəldilir. Bu da ölkənin ixrac potensialını və ərzaq təhlükəsizliyini gücləndirir.

Prezident Şövkət Mirziyoyevin yeritdiyi kurs sayəsində Özbəkistanın xarici siyasəti daha açıq, pragmatik və fəal bir mərhələyə qədəm qoyub. Ölkənin xarici siyasi kursu milli maraqların qorunması, iqtisadi inkişafın dəstəklənməsi və regional sabitliyin təmin edilməsinə köklənib. Qonşu dövlətlərlə illərlə dondurulmuş delimitasiya, demarkasiya və su ehtiyatlarından birgə istifadə məsələlərində barışdırıcı və uzlaşdırıcı mövqe nümayiş etdirilir. Region ölkələri arasında iqtisadi, ticarət və nəqliyyat əlaqələrinin canlandırılması ön plana çəkilib. Beynəlxalq ticarət dəhlizlərinin açılması aktiv surətdə dəstəklənir. Özbəkistan dünyadakı böyük güc mərkəzləri ilə balanslaşdırılmış münasibətlər saxlayır. Qərb dövlətləri ilə demokratik islahatlar, texnoloji tərəfdaşlıq, investisiya və insan hüquqları mövzularında açıq dialoq aparır. Özbəkistanın 2019-cu ildə TDT-yə tamhüquqlu üzv olması onun türk dünyası ilə siyasi, iqtisadi və mədəni inteqrasiya əlaqələrində yeni keyfiyyət mərhələsinə yüksəldib.

Özbəkistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksələn münasibətlər 2025-2026-cı illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan və Özbəkistan arasında müqavilə-hüquq bazasının genişlənməsi nəticəsində indiyədək iki ölkə arasında 220-yə yaxın müxtəlif səviyyəli sənəd imzalanmışdır.

Hazırda iki ölkə liderlərinin siyasi iradəsi sayəsində iqtisadi əməkdaşlıq sadə mal mübadiləsi çərçivəsindən çıxaraq dərin inteqrasiya, birgə istehsal və regional logistika layihələrini əhatə edir. 2025-ci ilin iyul ayında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana, 2026-cı ilin avqust ayında isə Azərbaycan Prezidenti İlham Əliyevin Daşkəndə dövlət səfərləri siyasi münasibətlərin dinamikasını qoruyub saxlayıb. Bu çərçivədə fəaliyyət göstərən Ali Dövlətlərarası Şura əməkdaşlığın strateji koordinasiyasını təmin edən əsas mexanizmə çevrilib. Daşkənddə imzalanmış "Əbədi dostluq haqqında Müqavilə" ikitərəfli münasibətləri keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə daşıyıb. Sənəd tərəflərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə sadiqliyini, həmçinin hər hansı üçüncü dövlətin bir-birinin əleyhinə ərazilərindən istifadə etməsinə yol verilməməsi kimi mühüm təhlükəsizlik və siyasi etimad prinsiplərini ehtiva edir.

Azərbaycan və Özbəkistan TDT, BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalarda bir-birinin mövqeyini fəal şəkildə dəstəkləyir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatı daxilində geosiyasi mərkəz rolunu gücləndirmiş, qlobal və regional təhlükəsizlik məsələlərində birgə mövqe nümayiş etdirmişlər. Türk dünyasının birliyinin möhkəmləndirilməsi və ortaq maraqların qorunması istiqamətində atılan addımlar siyasi həmrəyliyin əsas tərkib hissəsidir. 2025-ci ilin noyabrında Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə Azərbaycanın "C5" formatına tamhüquqlu iştirakçı kimi qəbul edilməsi Bakı-Daşkənd xəttinin regional miqyasını daha da artırmışdır.

2025-2026-cı illərdə Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikasının Ali Məclisi (Senat və Qanunvericilik Palatası) arasında münasibətlər yüksək dinamika ilə inkişaf edib. Bu dövrdə parlament diplomatiyası iki ölkə prezidentinin müəyyənləşdirdiyi siyasi-iqtisadi hədəflərin hüquqi bazasını möhkəmləndirən əsas mexanizmlərdən birinə çevrilmişdir.

2025-ci ildə Milli Məclisin Sədri Sahibə Qafarova və Özbəkistan Ali Məclisi Senatının sədri Tanzilə Narbayevanın başçılığı ilə keçirilən I Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumu iki ölkə parlamentləri tarixində yeni əməkdaşlıq mərhələsinin əsasını qoydu. Forum çərçivəsində imzalanan "Yol xəritəsi" qanunvericilik təcrübəsinin mübadiləsi, parlament komitələrinin birgə iclaslarının keçirilməsi, gənc parlamentarilər və qadın deputatlar arasında əlaqələrin genişləndirilməsini əhatə edən konkret tədbirlər planını rəsmiləşdirdi. Qarşılıqlı razılığa əsasən, 2026-cı ildə növbəti II forumun Azərbaycanda təşkil edilməsi parlament dialoqunun davamlı xarakter aldığını göstərir. Hər iki ölkə parlamentində fəaliyyət göstərən parlamentlərarası dostluq qrupları iqtisadi, mədəni-humanitar və regionlararası əməkdaşlıq təşəbbüslərinin dəstəklənməsində fəal vasitəçi rolunu yerinə yetirir.

Siyasi münasibətlərdəki yaxınlaşma praktiki müstəvidə Orta dəhlis (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ilə Cənubi Qafqazın birləşdirilməsinə xidmət edir. Azərbaycanın qərb qapısı rolunu oynaması, Özbəkistanın isə regional mərkəz kimi bu marşruta qoşulması geosiyasi baxımdan hər iki dövlətin çəkisini artırır. Özbəkistanın Mərkəzi Asiyanın dərinliklərindən gələn ixracat məhsullarının Azərbaycanın tranzit infrastrukturu (Xəzər dənizi limanları, Bakı-Tbilisi-Qars dəmir yolu və Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin sinergiyası) vasitəsilə Avropa bazarlarına çıxarılmasında Orta dəhliz əsas tənzimləyici qüvvəyə çevrilmişdir.

2025-2026-cı illərdə "Yaşıl enerji" dəhlizi layihəsi çərçivəsində Mərkəzi Asiya resurslarının Azərbaycan üzərindən Avropaya ötürülməsi istiqamətində siyasi-iqtisadi qərarlar qəbul olunmuşdur. Logistika mərkəzləri və konteyner daşımalarının optimallaşdırılması tranzit vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaldır.

İki ölkənin kənd təsərrüfatı məhsullarının üçüncü ölkələrin bazarlarına birgə çıxarılması üçün kooperasiya modelləri işlənilir. Ənənəvi enerji daşıyıcıları ilə yanaşı, bərpaolunan enerji mənbələri üzrə təcrübə mübadiləsi aparılır. Özbəkistanın enerji sektorunda Azərbaycan şirkətlərinin iştirakı, neft-qaz sənayesində birgə geoloji kəşfiyyat və texniki xidmət layihələrinin genişləndirilməsi aktual olaraq qalır. Hazırda Azərbaycanda Özbəkistan investisiyalı 130-dan çox kommersiya təşkilatı və şirkət qeydiyyatdan keçərək fəaliyyət göstərir. Bu şirkətlər iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən sənaye və ticarət istiqamətlərində fəaliyyətlərini genişləndirirlər. Qarşılıqlı investisiya mühitinin tərkib hissəsi olaraq, əks istiqamətdə də - Özbəkistanda Azərbaycan kapitalı ilə fəaliyyət göstərən şirkətlərin sayı 470-i ötüb. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu tərəfindən maliyyələşdirilən layihələr iqtisadi əməkdaşlığın praktiki nəticələrini üzə çıxarmışdır.

Son illərdə qarşılıqlı ticarət dövriyyəsində görünməmiş artım müşahidə olunub. 2025-ci ilin yekunlarına əsasən, iki ölkə arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artaraq təxminən 795 milyon dollar təşkil etmişdir. Mövcud dinamika və reallaşdırılan birgə layihələr yaxın perspektivdə ticarət dövriyyəsinin həcmini 1 milyard dollara çatdırmağın tamamilə real olduğunu göstərir. Azərbaycandan Özbəkistana şəkər və şəkər məhsulları (ixracın yarıdan çoxu), emal olunmamış alüminium, qaynaq edilmiş borular və metal məmulatları, qabıqlı badam və digər kənd təsərrüfatı qida məhsulları, müxtəlif növ sənaye malları və kimya sənayesi məhsulları ixrac olunur.

Özbəkistandan Azərbaycana təzə və quru meyvələr (məsələn, ərik, kişmiş, qoz-fındıq), paxlalı bitkilər, müxtəlif növ tərəvəzlər, eləcə də kənd təsərrüfatı xammalı, pambıq lifi, müxtəlif növ parça materialları, hazır tikinti-geyim məhsulları və corab məmulatları, mineral gübrələr (xüsusilə azot gübrələri), mis məmulatları, müxtəlif metal filizləri və onlardan hazırlanan yarımfabrikatlar, sənaye və məişət təyinatlı müxtəlif texniki avadanlıqlar, kabel məmulatları ixrac olunur.

Əməkdaşlığın prioritet istiqamətlərindən biri xammal mübadiləsindən əlavə dəyər verən birgə istehsalat sahələrinin yaradılmasıdır. Özbəkistanda Azərbaycan texnologiyaları və sərmayələri ilə yanaşı, Azərbaycanda da özbək avtomobillərinin yığılması və sənaye kooperasiyasının genişləndirilməsi istiqamətində addımlar atılır. Təsis edilmiş birgə investisiya fondunun maliyyələşdirdiyi layihələr hər iki ölkədə sənaye, kənd təsərrüfatı, yüngül sənaye (xüsusilə toxumculuq və ipəkçilik) sahələrində yeni müəssisələrin açılmasına güclü təkan verir.

2025-2026-cı illərdə Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığı yalnız ikitərəfli ticarətin artması ilə deyil, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində regional iqtisadi inteqrasiyanın güclənməsinə mühüm töhfə verir. Əsas diqqət artıq sadəcə mal mübadiləsinə deyil, "birgə istehsal və üçüncü bazarlara çıxış" strategiyasına yönəldilib, kiçik və orta sahibkarlığın bu prosesə qoşulması isə əməkdaşlığın sosial bazasını daha da möhkəmləndirir.

Özbəkistan tərəfindən işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Füzuli şəhərində qardaşlıq simvolu olaraq tikilib istifadəyə verilmiş Mirzə Uluqbəy adına tam orta məktəbdə 2025-2026-cı tədris ilində 583 şagird təhsil almışdır.

İqtisadi və siyasi layihələrlə yanaşı, hər iki ölkənin tarixi şəhərlərində (məsələn, Daşkənd, Buxara, Bakı, Şuşa və s.) keçirilən mədəniyyət günləri və qarşılıqlı incəsənət layihələri xalqlarımız arasındakı mənəvi bağları daha da möhkəmləndirmişdir. Məsələn, 2025-ci ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri təşkil olunub. İki ölkə arasında humanitar dialoqun mühüm tərkib hissəsi kimi 2025-ci ildə Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu baş tutub.

Təhsil, mədəniyyət və gənclər siyasəti sahəsində həyata keçirilən qarşılıqlı proqramlar siyasi münasibətlərin ictimai təməlini daha da möhkəmləndirir. Hər iki ölkənin ali təhsil müəssisələri arasında tələbə-müəllim mübadiləsi genişlənir. Son iki ildə Azərbaycanda 70-ə yaxın Özbəkistan vətəndaşı, Özbəkistanda isə təqribən 180 Azərbaycan vətəndaşı ali təhsil almışdır.

Birbaşa aviareyslər (Bakı ilə Daşkənd, Səmərqənd və digər şəhərlər arasında) işgüzar turizmin və qarşılıqlı səfərlərin həcmini dəfələrlə artırıb. Özbəkistandan Azərbaycana gələn turistlərin sayında əhəmiyyətli artım müşahidə olunur. 2026-cı ilin ilk yeddi ayında Özbəkistandan Azərbaycana səfər edənlərin sayı əvvəlki illə müqayisədə təqribən 40 faiz artıq dinamika nümayiş etdirmişdir.

Son illər Azərbaycanla Özbəkistan arasındakı ikitərəfli münasibətlərdə sadəcə dostluq və qardaşlıq əlaqələrinin deyil, həm də müttəfiqlik səviyyəsinə yüksələn strateji tərəfdaşlığın zirvə dövrü kimi yadda qalmışdır. Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı təkcə iki ölkənin milli maraqlarına xidmət etmir, eyni zamanda Avrasiya məkanında sabitliyin, iqtisadi inkişafın və nəqliyyat təhlükəsizliyinin təmin olunmasında həlledici regional modelə çevrilmişdir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Azərbaycanın ŞƏT ilə əməkdaşlığı və Orta dəhlizdəki rolu mühüm əhəmiyyət daşıyır

**Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əməkdaşlığı, Orta dəhlizin inkişafındakı rolu və Mərkəzi Asiya ilə nəqliyyat əlaqələri qazaxıstanlı ekspertlərin də diqqət çəkdiyi əsas məsələlər sırasındadır.**

Bu barədə AZƏRTAC-a açıqlamalarında **qazaxıstanlı politoloqlar Janat MOMINKULOV** və **Aman MAMBETALİYEV** bildiriblər.

Politoloq Janat Momınkulov Azərbaycanın dialoq tərəfdaşı qismində ŞƏT sammitində iştirakının Qazaxıstan üçün böyük əhəmiyyət daşıdığını bildirib.

"Qazaxıstan və Azərbaycanın Orta dəhlizin liman infrastrukturunun inkişafı və multimodal marşrutların əlaqələndirilməsi ilə bağlı ortaq maraqları var. Qazaxıstan bu məsələyə praqmatik nöqteyi-nəzərdən yanaşır. Çünki bu gün Azərbaycan ŞƏT məkanında və Mərkəzi Asiya üçün "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat marşrutlarının qovuşduğu əsas məntəqələrdən biridir. Bu halda söhbət, xüsusilə, Mərkəzi Asiya-Qafqaz istiqamətindən gedir", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, Azərbaycan ŞƏT ölkələri üçün strateji əhəmiyyət daşıyır. Ənənəvi Şimal və Cənub marşrutlarının müəyyən geosiyasi və logistik məhdudiyyətlərlə üzləşməsi fonunda Orta dəhlizin əsas alternativ istiqamətlərdən biri kimi rolu artır.

"Əlbəttə, Orta dəhliz yeganə marşrut deyil, lakin bu nəqliyyat axınlarının əhəmiyyətli hissəsi Azərbaycan ərazisindən keçir. Buna görə də Azərbaycanın ŞƏT-də iştirakı və təşkilatla əməkdaşlığının daha da genişləndirilməsi üzv dövlətlərin maraqlarına uyğundur", - deyə Janat Momınkulov qeyd edib.

Politoloq vurğulayıb ki, bu, ilk növbədə, Qazaxıstan üçün vacibdir. Çünki həm siyasi rəhbərlik, həm də xarici işlər nazirlikləri səviyyəsində nəqliyyat əlaqələrinin daha da inkişaf etdirilməsinin zəruriliyi ilə bağlı aydın qarşılıqlı anlaşma mövcuddur.







Janat Momınkulovun sözlərinə görə, Trans-Xəzər dəhlizi Azərbaycan üçün Mərkəzi Asiya və oradan daha geniş Asiya bazarlarına çıxış imkanı yaradır. Hazırda region ölkələri ilə tərəfdaşlıq fəal şəkildə genişlənir.

"ŞƏT çərçivəsində status məsələsi isə əsas məqsəd deyil. Çünki ölkə artıq öz geostrateji əhəmiyyətini nümayiş etdirib və Avrasiyanın nəqliyyat-logistika sisteminin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan ölkənin Çin üçün də əhəmiyyəti artır. Pekin Avrasiya nəqliyyat dəhlizlərinin inkişafında və regionlar arasında bağlantıların gücləndirilməsində maraqlıdır. Bu sistemdə Azərbaycan əsas tranzit məntəqələrindən biridir", - deyə ekspert bildirib.

Onun fikrincə, Qazaxıstan-Azərbaycan əməkdaşlığı Asiya ilə Avropa arasında nəqliyyat bağlantılarının inkişafında mühüm rol oynayacaq.

Politoloq Aman Mambetaliyev isə bildirib ki, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı kimi fəal siyasət yürüdür.

Aman Mambetaliyevin sözlərinə görə, Azərbaycan bu gün fəal xarici siyasət yürüdərək müxtəlif beynəlxalq platformalarda, o cümlədən əvvəllər ölkənin daha az fəal təmsil olunduğu platformalarda öz mövqelərini möhkəmləndirir.

"Şanxay Əməkdaşlıq Təşkilatı Azərbaycanın öz mövqelərini əhəmiyyətli dərəcədə gücləndirə biləcəyi platformalardan biridir. Çünki təşkilatda Azərbaycanın sıx əlaqələr saxladığı bir çox dövlət təmsil olunur", - politoloq bildirib.

O qeyd edib ki, təhlükəsizlik, ekologiya, elm, təhsil, iqtisadiyyat və xarici siyasət də daxil olmaqla bir çox məsələlər üzrə yanaşmalar oxşardır.

"Düşünürəm ki, türk dünyası dövlətləri, ilk növbədə Qazaxıstan, Özbəkistan və Qırğızıstan təşkilat daxilində Azərbaycanın mövqeyini fəal şəkildə dəstəkləyəcəklər. Buna görə də Azərbaycanın burada öz mövqelərini gücləndirmək istəyi tamamilə təbiidir", - Aman Mambetaliyev vurğulayıb.

Politoloqun fikrincə, geosiyasi dəyişikliklər fonunda formalaşan yeni iqtisadi paradiqmada Azərbaycanın, Qazaxıstanın və ümumilikdə türk dövlətlərinin rolunu nəzərə almaq lazımdır.

Onun sözlərinə görə, əsas logistika marşrutları bu gün əhəmiyyətli dərəcədə dəyişir. Bu, həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərinə aiddir.

"Yaxın Şərqdəki münaqişə, Ukraynadakı müharibə və sanksiya siyasəti türk dövlətlərinin inteqrasiyası üçün yeni imkanlar yaradıb. Orta dəhliz böyük əhəmiyyət daşıyır. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın bu məsələdə ortaq mövqeyi təkcə dövlətlərimiz üçün deyil, həm də onların tərəfdaşları üçün logistika, iqtisadiyyat, malların, xidmətlərin və insanların hərəkəti baxımından unikal imkanlar yaradır", - deyə ekspert bildirib.



Aman Mambetaliyevin fikrincə, bu güclənmə siyasi əməkdaşlığa da təsir göstərəcək. İqtisadi imkanların genişlənməsi Azərbaycanın təhlükəsizlik və iqtisadiyyat da daxil olmaqla geniş məsələləri əhatə edən Şanxay Əməkdaşlıq Təşkilatındakı mövqelərinin daha da möhkəmlənməsinə töhfə verəcək.

# Naməlum talelilərin günü

## Ermənistanın işğalçılıq siyasəti nəticəsində 4000-dən artıq Azərbaycan vətəndaşı itkin düşüb

**Hər il avqustun 30-da qeyd olunan Beynəlxalq İtkin Düşmüş Şəxslər Günü dünya miqyasında münaqişələr, zorakılıq və ya naməlum şəraitdə itkin düşənlərin xatirəsini anmaq, onların ailələrinin illərlə davam edən ağrılarına diqqət çəkmək məqsədi daşıyır. 2010-cu il dekabrın 21-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsis edilən bu tarix Azərbaycan xalqı üçün, sadəcə, təqvim günü yox, həm də dərin mənəvi və tarixi yara deməkdir.**

### Qanlı əməllərin statistikası

Ermənistanın yürütdüyü etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində Birinci Qarabağ müharibəsindən etibarən 4000-dən çox Azərbaycan vətəndaşı - hərbçilər, mülki şəxslər, qadınlar və uşaqlar itkin düşüb. Nə işğal dövründə, nə də Vətən müharibəsindən sonra Ermənistan tərəfi taleyi naməlum olan vətəndaşlarımızla bağlı ölkəmizə heç bir məlumat verməyib. Bu məsələni bütün nüfuzlu tribunalardan beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra da Ermənistana qarşı əsas tələblərindən biri itkin düşmüş minlərlə azərbaycanlı haqqında məlumat verməsi ilə bağlıdır. Həmçinin kütləvi məzarlıqların koordinatlarını təqdim etməsi barədədir. İrəvan isə hələ də bu tələbləri yerinə yetirməyərək xalqımıza qarşı törətdiyi cinayətləri gizlətməyə çalışır. Ancaq Qarabağ və Şərqi Zəngəzur vaxtilə Ermənistanın basdırdığı minalardan təmizləndikcə ard-arda aşkarlanan kütləvi məzarlıqlar təcavüzkar ölkənin qanlı əməllərini gün üzünə çıxarır. Erməni caniləri Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürdükləri Azərbaycan vətəndaşlarını beynəlxalq hüququn tələblərinə uyğun olaraq Azərbaycana qaytarmaq əvəzinə, onlara insan ağlına gəlməyən tükürpədici işgəncələr verərək qətlə yetiriblər və kütləvi şəkildə basdırıblar.

İşğaldan azad edilən ərazilərdə - Xocalıda, Şuşada, Füzulidə və digər ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar itkin vətəndaşlarımızın faciəvi sonunu göstərməklə yanaşı, erməni faşizminin miqyasını da gözlər önünə sərir.

Kütləvi məzarlıqların aşkarlanması və itkin düşən şəxslərin kim-



liklərinin DNT analizləri ilə müəyyən edilməsi istiqamətində intensiv dövlət proqramları həyata keçirilir.

Cari il iyunun 30-na olan məlumata əsasən, işğaldan azad olunmuş ərazilərdə axtarış-qazıntı işlərinə başlanılan 2021-ci ildən bu yana 32 kütləvi məzarlıq aşkarlanıb.

### 2021-ci ildən itkin düşmüş şəxslərə aid məzar yerlərinin axtarışı prosesinə başlanılıb

2014-cü ildən etibarən itkin düşmüş Azərbaycan vətəndaşlarının yaxın qohumlarından bioloji nümunələrin toplanmasına başlanıb. 2023-cü ildən etibarən isə bioloji nümunələrin toplanması işi Prezident İlham Əliyevin tapşırığı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsində yaradılmış Genetik araşdırmalar mərkəzi tərəfindən aparılır. Bu il iyunun 30-na olan məlumata əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərlə bağlı 11 min 542 donordan bioloji nümunələr toplanıb sistemləşdirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini, general-leytenant Şərafət Həsənov bu il iyunun 30-da Bakıda "İtkin düşmüş şəxslər məsələsinin həllində müasir yanaşmalar və əməkdaşlığın gücləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edərkən məlumat verib ki, toplanmış bioloji nümunələrin DNT profilləri Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik araşdırmalar mərkəzi tərəfindən çıxarılaraq arxivləşdirilir.

2021-ci ilin fevral ayından etibarən işğaldan azad edilmiş ərazilərdə intensiv şəkildə itkin düşmüş şəxslərə aid məzar yerlərinin axtarışı, qazıntı, ekshumasiya və aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesinə başlanılıb.

O bildirib ki, bu il iyunun 30-na olan məlumata əsasən, 893 itkin düşmüş şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanıb. İşğaldan azad olunmuş ərazilərdə axtarış-qazıntı işlərinə başlanılan vaxtdan ötən dövr ərzində 32 kütləvi məzarlıq aşkarlanıb. Həmin kütləvi məzarlıqlardan 253 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən olunaraq istintaq orqanları nümayəndələrinin iştirakı ilə ekshumasiya edilib. Bu il iyunun 30-na olan məlumata əsasən, aşkarlanmış meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, I Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 327 nəfərin şəxsiyyəti eyniləşdirilib. Onlardan 226 nəfərə dair məlumatlar ictimaiyyətə açıqlanaraq ailələrinə təhvil verilib, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn ediliblər. Dəfn edilənlərdən 181-i hərbçi, 45-i isə mülki şəxslərdir. Şəxsiyyəti eyniləşdirilmiş mülki şəxslərdən 14-ü qadın, 2-si isə azyaşlı uşaq olub.

Beynəlxalq ictimaiyyətin bu insanlıq faciəsinə uzun illər göz yummasına və Ermənistana lazımi təzyiqi göstərməməsinə baxmayaraq, Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa etdi. Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması ilə Qarabağdakı cinayətkar rejim ləğv edildi, dinc əhaliyə divan tutan erməni hərbi canilər isə Bakıda ədalət məhkəməsi qarşısında cavab verməli oldular.

Bütün bunlar İlahi ədalətin yerini tapması, erməni faşizminin qurbanına çevrilən vətəndaşlarımızın qisaslarının alınması deməkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Mənasız missiyanın sonu

## Bir il əvvəl ATƏT-in Minsk qrupunun fəaliyyətinə rəsmən xitam verildi

**ATƏT-in Minsk qrupunun və onunla əlaqəli bütün strukturların rəsmən ləğv edilməsi ilə bağlı qərarın verilməsindən bir il ötür. 1 sentyabr 2025-ci il tarixində ATƏT Nazirlər Şurası tərəfindən qəbul edilmiş tarixi qərarla keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə 1992-ci ildə təsis olunmuş bu qurumun fəaliyyətinə rəsmən xitam verildi.**

Minsk qrupu fəaliyyət göstərdiyi 30 ildən artıq dövr ərzində üzərinə düşən öhdəliklərin heç birini yerinə yetirə bilməyib. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz boşaldılmasını tələb edən 4 məlum qətnamə qəbul edilmiş və bu qərarların icrası mexanizmi kimi Minsk qrupuna mandat verilmişdi. Lakin həmsədrlərin fəaliyyəti real həll yolları tapmaqdan ziyadə, mövcud status-kvonu saxlamağa və münaqişəni dondurmağa xidmət edirdi.

Həmsədr ölkələrin nümayəndələrinin regiona etdikləri mütəmadi və nəticəsiz səfərlər, hər dəfə münaqişənin hərbi həll yolunun olmadığını bəyan etmələri faktiki olaraq Azərbaycan xalqını işğal reallığı ilə barışdırmaq məqsədi daşıyırdı. Beynəlxalq ictimaiyyətin işğalçı Ermənistana qarşı təzyiq göstərməməsi, beynəlxalq hüququn tələblərinə laqeyd münasibəti və vasitəçilərin yarıtmaz fəaliyyəti dinc danışıqlar resurslarını tamamilə tükəndirdi və İkinci Qarabağ müharibəsini labüd etdi.

Beynəlxalq təşkilatların və vasitəçilərin illərlə həll edə bilmədiyi bu ədalətsizliyi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz və müzəffər ordumuz öz gücü hesabına aradan qaldırdı. Azərbaycan öz hərbi-siyasi imkanlarından istifadə edərək torpaqlarını düşməndən təmizlədi, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Azərbaycan BMT TŞ-nin müvafiq qətnamələrini özü icra etməklə Minsk qrupunun illərlə öhdəsindən gələ bilmədiyi və ya gəlmək istəmədiyi tarixi vəzifəni təkbaşına yerinə yetirdi. 2020-ci il noyabrın 10-da əldə edilmiş böyük Zəfərlə şanlı ordumuz Minsk qrupunu de-fakto tarixin arxivinə göndərdi. Prezident İlham Əliyev münaqişənin hərbi-siyasi yolla həll olunduğunu bütün dünyaya sübut etdi. Müharibədən sonra həmsədrlərin regiona səfərləri zamanı dövlətimizin başçısının münaqişənin artıq tarixə qovuşduğunu bildirməsi ilə bu qurumun nə qədər lazımsız və funksiyasız bir mexanizmə çevrildiyi aydın oldu.

Azərbaycan münaqişə səhifəsinin qapandığını bəyan edərək sülh gündəliyini ortaya qoydu və Ermənistana beynəlxalq prinsiplərə əsaslanan təkliflər verdi. Lakin Minsk qrupunun de-yure mövcudluğu iki ölkə arasında yekun sülhün əldə olunması yolunda hüquqi və siyasi maneə olaraq qalırdı. Çünki bu mexanizmin kağız üzərində qalması münaqişənin güya hələ də davam etməsi illüziyasını yaradırdı. Ermənistanın Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımasından sonra bu strukturun rəsmən ləğvi zərurətə çevrildi.

Bu istiqamətdə həlledici addım 8 avqust 2025-ci il tarixində Vaşinqtonda atıldı. ABŞ Prezidenti Donald Trampın dəvəti və iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında keçirilən tarixi görüş çərçivəsində hər iki ölkənin xarici işlər nazirləri ATƏT-in Fəaliyyətdə olan sədrinə birgə müraciət məktubu ünvanladılar. Bu birgə müraciətə əsasən, ATƏT Nazirlər Şurası 57 üzv ölkənin yekdil konsensusu ilə 1 sentyabr 2025-ci il tarixindən etibarən ATƏT-in Minsk prosesinin, Fəaliyyətdə olan sədrin Şəxsi Nümayəndəsinin və Yüksəksəviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə tam xitam verilməsi haqqında qərar qəbul etdi.

Qərara uyğun olaraq, ATƏT Katibliyi tərəfindən həyata keçirilən bütün təşkilati, inzibati və texniki prosedurlar 30 noyabr 2025-ci il tarixində yekunlaşdırıldı və keçmiş münaqişə ilə bağlı vaxtilə qəbul edilmiş bütün ATƏT qərarları qüvvədən düşmüş və etibarsız elan olundu.

Minsk qrupunun və onunla əlaqəli bütün strukturların tam buraxılması Azərbaycanın beynəlxalq müstəvidə növbəti böyük diplomatiya qələbəsidir. Bu addım Azərbaycanın öz əraziləri üzərində bərpa etdiyi suverenliyinin və regionda yaratdığı yeni reallıqların bütün dünya tərəfindən qətiyyətlə qəbul olunmasının təsdiqidir. Beynəlxalq hüquqa və ədalətə söykənən bu ardıcıl siyasət bir daha göstərdi ki, Azərbaycan yalnız öz ərazi bütövlüyünü bərpa edən qalib dövlət deyil, həm də Cənubi Qafqazda davamlı sülhün, təhlükəsizliyin və tərəqqinin əsas memarı və zəmanətçisidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*




# İkinci Dünya müharibəsi - bəşəriyyətin ağır sınağı

**Bu gün İkinci Dünya müharibəsinin başlanmasından 87 il ötür. Bəşər tarixinin ən qanlı hadisələrindən olan bu müharibə 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşa üzərinə hücumu ilə başladı. Tarixdə silinməz izlər qoyan bu qanlı müharibə təxminən 71 milyon insanın həyatına son qoydu ki, bunun da yarıdan çoxunu dinc sakinlər təşkil edir. 1945-ci il sentyabrın 2-nə kimi davam edən müharibədə 61 dövlət, 1,7 milyard insan iştirak edib. Hərbi əməliyyatlar 40 ölkənin ərazisində aparılıb.**

İkinci Dünya müharibəsi bütövlükdə bəşəriyyətin yaşam böhranı idi. Birinci Dünya müharibəsindən sonra məğlub dövlətlərə tətbiq olunan ağır iqtisadi və siyasi cəzalar Avropada qisas hissini gücləndirdi. Xüsusilə Almaniyada nasistlərin hakimiyyətə gəlməsi və qonşu torpaqların işğal edilməsi qlobalmiqyaslı bu müharibəni qaçılmaz etdi.

Müharibənin ağır yükünü çiyinlərində daşıyan milyonlarla insan faşizmə qarşı ölüm-dirim mübarizəsinə qalxdı. Bu mübarizədə Azərbaycan xalqı əsl qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərdi. Həmin dövrdə ərazisində hərbi əməliyyatlar getməsə də, Azərbaycan ön və arxa cəbhədə qələbəni təmin edən əsas dayaq nöqtələrindən birinə çevrildi. Arxiv sənədləri və tarixi faktlar ölkəmizin bu qələbəyə verdiyi töhfənin miqyasını açıq-aydın ortaya qoyur: müharibə illərində Azərbaycan 600 mindən çox oğul və qızını cəbhəyə yola saldı. Onların təqribən yarısı Qələbə uğrunda döyüşlərdə canlarından keçdi. Döyüşlərdə göstərdikləri misilsiz şücaətə görə 130-dan çox azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adını aldı, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edildi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş əfsanəvi tankçı korpus komandiri, general Həzi Aslanov, Mehdi Hüseynzadə və digər igidlərimiz bütün dünyaya Azərbaycan oğullarının şücaətini nümayiş etdirdilər.

İkinci Dünya müharibəsində Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. 416-cı Taqanroq, 223-cü, 402-ci və digər milli diviziyalarımız faşizmə qarşı vuruşaraq Qafqaz döyüşlərindən tutmuş Berlinə hücuma qədər mühüm hərbi əməliyyatlarda fəal iştirak etdilər. Həmyerlilərimiz Brest qalasının müdafiəsindən tutmuş Moskva, Leninqrad, Kiyev, Stalinqrad döyüşlərinə qədər qəhrəmanlıq nümayiş etdirdilər. Fransa, İtaliya, Yuqoslaviya və Polşa kimi ölkələrdə yüzlərlə soydaşımız yerli partizan dəstələrinin tərkibində faşistlərə qarşı qəhrəmancasına vuruşdular. Mehdi Hüseynzadənin İtaliya və Yuqoslaviya partizanları arasında göstərdiyi igidliklər dastana çevrildi.

İkinci Dünya müharibəsinin taleyini həll edən əsas amillərdən biri də Azərbaycan nefti idi. Azərbaycan neftçiləri arxa cəbhədə gecəli-gündüzlü fədakarlıqla çalışaraq ön cəbhəni zəruri yanacaqla təmin etdilər.

İkinci Dünya müharibəsi 1945-ci il sentyabrın 2-də başa çatdı. Bununla da faşizm ideologiyasına son qoyuldu. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məqsədilə Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradıldı.

İkinci Dünya müharibəsi bəşəriyyətə unudulmaz yaralar vursa da, həm də xalqların əzm və iradəsinin nümayişinə çevrilərək sınaq meydanı oldu. Azərbaycan xalqı həm ön cəbhədə döyüşən igid əsgərləri, həm də arxa cəbhədə fədakarlıqla çalışan əmək adamları ilə faşizm üzərində qələbənin qazanılmasına böyük töhfə verdi.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*



# Revanşist ssenarilər artıq keçmişdə qalıb

## Erməni diasporunun "siyasi şouları" heç bir təsirə malik deyil

**Cənubi Qafqazda onilliklərlə davam edən münaqişənin həllindən sonra dayanıqlı sülh, təhlükəsizlik və bölgə xalqlarının rifahı üçün tarixi fürsət yaranıb. Lakin belə bir həssas dönəmdə Avropa səhnəsində yenidən köhnə, revanşist ssenarilərin dövriyyəyə buraxılması antiazərbaycançı şəbəkənin regiondakı sülh quruculuğuna qarşı çıxdığını göstərir. Lakin erməni diasporu Avropanın iki mühüm paytaxtında - Paris və Praqada Azərbaycana qarşı növbəti təxribat xarakterli aksiyalara hazırlaşır.**

### Həqiqət siyasi manevrlə dəyişdirilə bilməz

Xarici mediada yayımlanan məlumatlara görə, Fransanın paytaxtı Parisdə sentyabrın 4-dək Azərbaycanda törətdikləri ağır cinayətlərə görə məhkum edilən erməni hərbi-siyasi şəxslərin portretlərindən ibarət küçə sərgisi keçiriləcək. Tədbirin təşəbbüskarları arasında Paris merinin müavini Odri Pülvar, Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədrləri Ara Toranyan və Murad Papazyanın adı çəkilir.

Bu küçə şousuna yerli siyasi dairələrin, o cümlədən Paris meriyasının açıq dəstək verməsi prosesin, sadəcə, diaspor təşəbbüsü olmadığını, eyni zamanda müəyyən Qərb dairələrinin anti-Azərbaycan xəttini davam etdirmək cəhdini göstərir. Humanitar mövzular pərdəsi altında təqdim olunmağa çalışılan bu aksiya, əslində, Bakıda ağır hərbi cinayətlərə və separatçılığa görə layiqli cəzalarını almış şəxsləri "siyasi məhbus" kimi qələmə vermək məqsədi güdür.

Ancaq tarixi və hüquqi həqiqətlər heç bir siyasi manevrlə dəyişdirilə bilməz. Azad olunması tələb edilən şəxslərin kimliyinə diqqət yetirmək belə bəs edir ki, bu istəyi irəli sürənlərin, yumşaq ifadə etsək, ikiüzlülüyünü, qərəzini aydın görəsən.

Bunlar milli kimliyimizə düşmən kəsilərək xalqımızın qanına susayan, işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, eləcə də Vətən müharibəsi dövründə Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünən qatillər, terrorçular, hərbi canilərdir.

Hərbi cinayətlər törətmiş ermənəsilli şəxslər barəsindəki cinayət işi üzrə ittiham aktında da qeyd olunur ki, 1988-2024-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində 3 min 493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb. 4 min 435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

2023-cü ildə "dəmir yumruq" Qarabağda separatizmin tabutuna son mismarı çaldı. Azərbaycan dövlət suverenliyini tam təmin etdi və Konstitusiyası bütün ərazilərində hüquqi qüvvəyə mindi.

Bakıda beynəlxalq hüququn norma və prinsiplərinə uyğun keçirilən məhkəmə prosesi nəticəsində erməni canilər haqq etdikləri cəzalarını alıblar.

### İkili standartlar və cavabsız qalan suallar

Bu gün Paris və Praqada hay-küy salan ermənipərəst dairələr nədənsə qarşı tərəfi görməzdən gəlirlər. Bu isə haqlı suallar doğurur. Görəsən, Birinci Qarabağ müharibəsindən bəri itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyi Avropadakı "insan hüquqları müdafiəçiləri"ni nə üçün narahat etmir?

1980-ci illərin sonlarında öz ata-baba yurdlarından kütləvi şəkildə deportasiya olunmuş yüz minlərlə azərbaycanlının geriyə, dinc şəkildə qayıtmaq hüququ nə üçün bir dəfə də olsun Qərb təsisatlarının gündəliyinə gətirilmir? Bunun üçün hansısa aksiyalar düzənlənmir, Ermənistana siyasi təzyiq göstərilmir. Əvəzində erməni diasporunun dəyirmanına su tökülməsi ilə məşğul olunur, çoxdan tarixin zibilliyinə tolazlanmış məsələlər yenidən süni şəkildə gündəmə gətirilməyə çalışılır.

Təbii ki, Avropanın bəzi paytaxtlarında təşkil olunan bu cür şoular və lobbi fəaliyyətləri Azərbaycanın öz milli maraqları istiqamətində atdığı qətiyyətli addımlara heç bir təsir göstərə bilməz. Revanşist ssenarilər artıq keçmişdə qalıb.

Bölgədə yeni reallığı yaradan Azərbaycan həm öz təhlükəsizliyini qorumaq, həm də ədaləti bərqərar etmək gücünə malikdir.

Azərbaycanın qətiyyəti Cənubi Qafqazda sülhü de-fakto bərqərar edib. Bu gerçəkliyi gözardı edən qərəzli Avropa dairələri isə yaxşı olar ki, revanşizmi qızışdıran aksiyalara dəstək vermək yerinə, regionda yaranmış bu unikal sülh fürsətini qiymətləndirərək tarixi ədalətin yanında yer alsınlar. O zaman dildə dedikləri ilə əməlləri də üst-üstə düşmüş olar.

*Y.MUSAYEVA,*
*"Azərbaycan"*



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## Süni intellekt əsrində Azərbaycanın rəqəmsal suverenliyi



**Dünya artıq yeni texnoloji mərhələyə daxil olub. Bu mərhələni əvvəlkilərdən fərqləndirən əsas xüsusiyyət süni intellektin elmi araşdırmaların və texnoloji şirkətlərin fəaliyyət istiqaməti olmaması, dövlət idarəçiliyindən iqtisadiyyata, təhlükəsizlikdən səhiyyəyə qədər həyatın bütün sahələrinə nüfuz etməsidir.**

Dünyada güc anlayışının məzmunu dəyişdikcə, dövlətlərin rəqabət üstünlüklərini müəyyən edən amillər də yenilənir. Məlumat, hesablama gücü, süni intellekt texnologiyaları və rəqəmsal infrastruktur milli gücün mühüm elementlərinə çevrilir. Belə bir şəraitdə kibertəhlükəsizlik məsələsi də əvvəlki məzmunundan daha geniş anlam kəsb edir. Söhbət yalnız kompüter sistemlərinin haker hücumlarından qorunmasından getmir, eyni zamanda dövlətin rəqəmsal müstəqilliyindən, milli məlumatların qorunmasından və strateji informasiyanın kim tərəfindən idarə olunmasından gedir. Azərbaycanın qarşısında duran yeni çağırışlara məhz bu prizmadan yanaşmaq lazımdır.

Süni intellekt dövlətlər üçün geniş imkanlar açır. Böyük həcmdə məlumatların sürətli təhlili, iqtisadi proseslərin proqnozlaşdırılması, dövlət xidmətlərinin təkmilləşdirilməsi, kibertəhdidlərin əvvəlcədən müəyyənləşdirilməsi və istehsal proseslərinin optimallaşdırılması bu texnologiyanın üstünlüklərindən bir neçəsidir. Amma bir məsələni də unutmamalıyıq ki, imkan artdıqca risk də çoxalır. Süni intellekt kibertəhlükəsizliyin təmin edilməsində güclü vasitəyə çevrildiyi kimi, kiberhücumların daha mürəkkəb və məqsədyönlü təşkilində də istifadə olunur. Dezinformasiyanın, saxta məzmunun yaradılması, məlumatların manipulyasiyası və informasiya sistemlərinə yönəlmiş hücumlar artıq günün reallığıdır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva Rəqəmsal İnkişaf Şurasının ilk iclasındakı çıxışında məhz bu reallığa diqqət çəkərək süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolunun artdığını və yeni imkanlarla yanaşı, yeni təhlükələr də yaratdığını vurğulamışdır. Deməli, rəqəmsal inkişafla milli təhlükəsizlik artıq bir-birindən ayrı məsələlər deyil.

Azərbaycanın bu sahədə atdığı mühüm addımlardan biri Rəqəmsal İnkişaf Şurasının yaradılmasıdır. Şuranın qarşısında rəqəmsal inkişaf, elektron hökumət, süni intellekt və innovasiya sahələrində vahid dövlət siyasətinin formalaşdırılması, milli texnoloji potensialın gücləndirilməsi və rəqəmsal suverenliyin möhkəmləndirilməsi kimi strateji vəzifələr dayanır. Şuraya Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etməsi də məsələnin dövlət siyasətindəki əhəmiyyətini göstərən mühüm amildir. Burada söhbət sadəcə yeni bir idarəetmə qurumunun yaradılmasından getmir. Əsas məsələ müxtəlif dövlət qurumlarının rəqəmsal transformasiya ilə bağlı fəaliyyətinin vahid strategiya ətrafında əlaqələndirilməsidir. Şuranın ilk iclasında qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını nəzərdə tutan konkret yol xəritəsinin müəyyənləşdirilməsi də bunun göstəricisidir. Bu baxımdan Rəqəmsal İnkişaf Şurasını Azərbaycanın yeni texnoloji dövrə keçidinin koordinasiya mərkəzlərindən biri kimi qiymətləndirmək mümkündür.

Məlum olduğu kimi, süni intellektin mühüm resurslarından biri məlumatdır. Məlumatsız süni intellekt modeli mövcud ola bilməz. Model nə qədər güclü olsa da, onun öyrədildiyi məlumatın keyfiyyəti, həcmi və etibarlılığı nəticənin səviyyəsini müəyyən edir. Buna görə də Azərbaycanın qarşısında yalnız xarici süni intellekt platformalarından istifadə etmək vəzifəsi dayanmır.

Daha mühüm məsələ ölkənin öz milli məlumat ekosistemini formalaşdırmasıdır. Azərbaycan dilində böyük və keyfiyyətli məlumat bazalarının yaradılması, dövlət idarəçiliyində formalaşan məlumatların təhlükəsiz və sistemli şəkildə emalı, iqtisadiyyat, kənd təsərrüfatı, energetika, səhiyyə, təhsil, nəqliyyat və digər sahələr üzrə milli məlumat resurslarının inkişafı strateji əhəmiyyət daşıyır. Çünki gələcəyin süni intellekti Azərbaycanın reallığını məlumatlar əsasında nə qədər yaxşı öyrənərsə, ölkənin özünəməxsus ehtiyaclarına bir o qədər dəqiq cavab verə bilər. Burada mühüm bir məqam var - milli data sadəcə texnoloji resurs deyil, milli maraqların qorunmasının bir hissəsidir.

XX əsrdə enerji resursları ölkələrin iqtisadi və geosiyasi gücündə mühüm rol oynayırdısa, XXI əsrdə məlumat və onu emal etmək imkanları strateji üstünlüyün əsas komponentlərindən birinə çevrilir. Rəqəmsal suverenlik anlayışının mahiyyəti də məhz burada üzə çıxır. Bir dövlətin əsas məlumatları harada saxlanılır? Onları hansı texnologiyalar emal edir? Kritik rəqəmsal infrastruktur hansı sistemlərdən asılıdır? Süni intellekt hansı məlumatlarla öyrədilir? Bu suallar texniki mütəxəssisləri maraqlandırmır. Bunlar dövlət təhlükəsizliyinə birbaşa aid olan məsələlərdir.

Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində həyata keçirdiyi strategiya ölkənin müstəqil inkişaf imkanlarını necə gücləndiribsə, gələcəkdə rəqəmsal infrastrukturun, milli data resurslarının və süni intellekt imkanlarının inkişaf etdirilməsi də rəqəmsal müstəqilliyə xidmət edə bilər. Bu baxımdan ölkədə data mərkəzlərinin, yüksək hesablama imkanlarının, milli bulud infrastrukturlarının, təhlükəsiz dövlət informasiya sistemlərinin və Azərbaycan dilində süni intellekt resurslarının inkişafı strateji istiqamətlər kimi nəzərdən keçirilməlidir.

Rəqəmsallaşma genişləndikcə dövlətin və cəmiyyətin rəqəmsal məkandan asılılığı da artır. Elektron hökumət xidmətləri, bank sistemi, enerji infrastrukturu, nəqliyyat şəbəkələri, rabitə sistemləri və digər mühüm sahələr rəqəmsal platformalarla daha sıx əlaqələnir. Bu isə kibertəhlükəsizliyi milli təhlükəsizlik siyasətinin ayrılmaz hissəsinə çevirir. Gələcəkdə kiberhücumun məqsədi yalnız məlumat oğurlamaq olmaya bilər. Kritik infrastrukturların fəaliyyətinin pozulması, informasiya sistemlərinə müdaxilə, süni intellekt modellərinin manipulyasiyası və ictimai rəyə təsir göstərilməsi kimi təhlükələr də ön plana çıxa bilər. Deməli, Azərbaycanın kibertəhlükəsizlik siyasəti də yeni texnoloji reallıqlara uyğun inkişaf etməlidir. Burada əsas prinsip sadədir - rəqəmsallaşma sürəti təhlükəsizlik tədbirlərinin sürətini qabaqlamamalıdır.

Azərbaycanın qarşısında indi daha böyük bir vəzifə dayanır - texnologiyadan istifadə edən ölkədən texnologiya istehsal edən, məlumat yaradan və öz rəqəmsal imkanlarını formalaşdıran ölkəyə çevrilmək. Bu istiqamətdə dövlət tərəfindən qarşıya qoyulan hədəflər var. Odur ki, Rəqəmsal İnkişaf Şurasının fəaliyyətində süni intellekt, kibertəhlükəsizlik, innovasiya və rəqəmsal suverenliyin bir-biri ilə əlaqəli nəzərdən keçirilməsi də təsadüfi deyil. Eyni zamanda Azərbaycanın beynəlxalq tərəfdaşlıqlarında süni intellekt və rəqəmsal infrastrukturun ayrıca istiqamət kimi önə çıxması ölkənin bu sahədə regional imkanlarını genişləndirə bilər. Azərbaycan-ABŞ strateji tərəfdaşlıq çərçivəsində də süni intellekt, data mərkəzləri, rəqəmsal infrastruktur və kibertəhlükəsizlik üzrə əməkdaşlığın inkişafı nəzərdə tutulub. Bütün bunlar göstərir ki, rəqəmsal transformasiya Azərbaycanın gələcəyinə dair uzunmüddətli strateji məsələlərdəndir.

Süni intellekt yarışında qalib yalnız ən çox texnologiya alan dövlət olmayacaq, öz məlumatını qoruyan, kadrlarını yetişdirən, rəqəmsal infrastrukturunu quran və milli maraqlarına uyğun texnologiyalar formalaşdıran ölkələr daha dayanıqlı mövqeyə sahib olacaqlar. Azərbaycan üçün də əsas hədəf məhz belə bir rəqəmsal ekosistemin qurulması olmalıdır. Milli data bazaları, Azərbaycan dilində süni intellekt resursları, güclü data mərkəzləri, peşəkar kadrlar, təhlükəsiz informasiya sistemləri və effektiv kibertəhlükəsizlik mexanizmləri vahid strategiyanın tərkib hissəsinə çevrilməlidir. Çünki süni intellekt əsrində milli təhlükəsizliyin sərhədləri xəritədə çəkilmir, milli təhlükəsizliyin yeni sərhədlərindən biri rəqəmsal məkandır. Bu məkanda Azərbaycanın gücü yalnız texnologiyaya sahib olmaqla deyil, öz məlumatına, rəqəmsal infrastrukturuna və strateji qərarvermə imkanlarına sahib olmaqla müəyyən ediləcək. Rəqəmsal suverenlik də məhz budur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Rəqəmsal gələcəyin əsas qüvvəsi - insan

### Məhz insan məlumatı biliyə, biliyi innovasiyaya, innovasiyanı dəyərə çevirir



**XXI əsrin iqtisadi rəqabəti məlumat, texnologiya, innovasiya və ən əsası, həmin texnologiyaları yaradıb tətbiq edə bilən insan kapitalı üzərində qurulur. İndi rəqəmsallaşma deyərkən sadəcə dövlət xidmətlərinin elektronlaşdırılması, biznes proseslərinin avtomatlaşdırılması və ya yeni texnologiyaların gündəlik həyata daxil olması nəzərdə tutulmur. Rəqəmsallaşma, bunlardan əvvəl, iqtisadiyyatın, idarəetmənin və cəmiyyətin düşüncə modelinin dəyişməsidir.**

Ölkəmizin son illər qəbul etdiyi strateji sənədlər də bu transformasiyanın mahiyyətini aydın ortaya qoyur. Prezident İlham Əliyevin 16 yanvar 2025-ci il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" dövlət idarəetməsinin təkmilləşdirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, rəqəmsal iqtisadiyyat və cəmiyyətin formalaşdırılmasını da hədəfləyir. Konsepsiyada bu istiqamətdə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün İKT sahəsində əlavə mütəxəssis və menecer heyətinin formalaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilir.

Bu yanaşma dövlətimizin başçısının 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" ilə daha da konkretləşdirilir. Strategiyanın məqsədləri sırasında süni intellektin inkişafının sürətləndirilməsi, tədqiqatların təşviqi, infrastrukturun əlçatanlığının təmin edilməsi və ixtisaslı kadr potensialının gücləndirilməsi xüsusi yer tutur. Sənəddə süni intellekt ekosisteminin formalaşdırılması üçün dövlət-özəl sektor əməkdaşlığı, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi də prioritet kimi müəyyənləşmişdir.

### İnsan kapitalına transformasiya

Beləliklə, qarşıya çox mühüm bir sual çıxır: rəqəmsal transformasiyanın texnologiya istehlakçısından texnologiya yaradıcısına çevrilmək üçün Azərbaycan hansı insan kapitalına ehtiyac duyur? Bu sualın cavabı ilk növbədə təhsildən və elmdən başlanır.

Rəqəmsal transformasiya ilk növbədə insan kapitalının transformasiyasıdır. Rəqəmsal texnologiyaları ölkəyə gətirmək nisbətən asandır. Hazır proqram təminatı almaq, bulud xidmətlərindən istifadə etmək, süni intellekt alətlərini biznes proseslərinə inteqrasiya etmək mümkündür. Lakin texnologiyaların milli iqtisadiyyatın uzunmüddətli inkişafına xidmət etməsi üçün onları başa düşən, təkmilləşdirən, yerli problemlərə uyğunlaşdıran və yeni həllər yaradan mütəxəssislər lazımdır. Məhz buna görə rəqəmsallaşmanın ən mühüm infrastrukturu yalnız fiber-optik şəbəkələr, data mərkəzləri və hesablama resursları yox, məhz insandır. Əgər bir ölkənin kifayət qədər data analitiki, proqramçısı, maşın öyrənməsi üzrə mütəxəssisi, kibertəhlükəsizlik eksperti, süni intellekt tədqiqatçısı, məhsul meneceri, texnologiya meneceri və rəqəmsal transformasiya üzrə olmasa, ən müasir texnoloji infrastruktur belə gözlənilən nəticəni verməyə bilər.

Qlobal əmək bazarında baş verən dəyişikliklər də bunu təsdiqləyir. Dünya İqtisadi Forumunun "Future of Jobs" hesabatına görə, 2030-cu ilədək mövcud iş yerlərinin təxminən 22 faizinin strukturunda dəyişikliklər gözlənilir. 170 milyon yeni iş yerinin yaranacağı, 92 milyon iş yerinin isə sıradan çıxacağı proqnozlaşdırılır. Eyni zamanda iş üçün tələb olunan əsas bacarıqların təxminən 39 faizinin 2030-cu ilədək dəyişəcəyi ehtimal edilir. Süni intellekt və böyük verilənlər ən sürətlə əhəmiyyət qazanan bacarıqlar sırasında ilk yerlərdədir. Bu, Azərbaycan üçün də mühüm çağırışdır: gələcəyin əmək bazarına hazırlaşmaq üçün yalnız yeni texnologiyalar gətirmək kifayət etmir, həmin texnologiyalarla işləyə bilən və onları inkişaf etdirə bilən nəsil yetişdirmək lazımdır.

### Universitetlərin fundamental rolu

Rəqəmsal iqtisadiyyatın inkişafında universitetlərin rolu fundamental xarakter daşıyır. Ənənəvi iqtisadiyyatda universitet və biznes arasında müəyyən məsafə mövcud ola bilərdi. Süni intellekt və yüksək texnologiyalar dövründə isə bu məsafənin azalması zəruridir.

Universitetdə yaradılan bilik laboratoriyaya keçid etməli, laboratoriyada yaradılan texnologiya isə real məhsula çevrilməlidir. Bu baxımdan süni intellekt strategiyasında data elmi və maşın öyrənməsi üzrə təhsil proqramlarının genişləndirilməsi ilə bağlı yanaşma xüsusi əhəmiyyət daşıyır. Universitetlərdə bu istiqamətlər üzrə ixtisaslaşmış proqramların yaradılması və mövcud proqramların təkmilləşdirilməsi gələcək rəqəmsal iqtisadiyyat üçün kadr bazasının formalaşdırılmasına xidmət edir.

Lakin burada söhbət yalnız müvafiq adlarla yeni ixtisasların açılmasından getməməlidir. Rəqəmsal iqtisadiyyat üçün yeni tipli multidissiplinar təhsil modelinə ehtiyac vardır. Məsələn, maliyyə sahəsində çalışan gələcəyin mütəxəssisi yalnız maliyyəni deyil, məlumat analitikasını və süni intellekti də bilməlidir. Həkim biotibbi məlumatların təhlili və süni intellekt əsaslı diaqnostika alətləri ilə işləmək vərdişlərinə yiyələnməlidir, hüquqşünas alqoritmik qərarvermənin hüquqi nəticələrini anlamalıdır, memar və mühəndis generativ dizayn və rəqəmsal modelləşdirmədən istifadə etməyi bacarmalıdır. Deməli, süni intellekt ayrıca bir ixtisas olmaqla yanaşı, digər ixtisasların da mühüm komponentinə çevrilməlidir.

Süni intellekt dövrünün təhsil siyasətində diqqət edilməli mühüm məqamlardan biri də budur ki, gələcəyin mütəxəssisini yalnız texniki biliklərlə məhdudlaşdırmaq olmaz. Dünya İqtisadi Forumunun məlumatlarına əsasən, süni intellekt və böyük verilənlərlə yanaşı, analitik düşüncə, yaradıcı düşüncə, çeviklik, dayanıqlılıq, liderlik, əməkdaşlıq və ömür boyu öyrənmə kimi bacarıqlar da getdikcə daha əhəmiyyətli olacaq. Bu, əslində, çox mühüm dəyişiklikdir. Çünki süni intellekt insanın müəyyən texniki əməliyyatları yerinə yetirmək ehtiyacını azalda bilər, amma düzgün sual vermək, problemi müəyyənləşdirmək, nəticəni qiymətləndirmək, etik qərar qəbul etmək və yeni ideya yaratmaq qabiliyyətini aradan qaldırmır, əksinə, bu bacarıqlar daha da qiymətli olur. Ona görə də araşdırmalar göstərir ki, gələcəyin təhsili insanı maşınla rəqabətə hazırlamaq yox, insanı maşınla əməkdaşlığa hazırlamaq fəlsəfəsinə əsaslanmalıdır.

### Elmi tədqiqatların əhəmiyyəti

Rəqəmsallaşmanın növbəti mərhələsi hazır texnologiyalardan istifadədən daha çox yeni texnologiyaların yaradılmasıdır. Bunun yolu isə elmi tədqiqatdan keçir. Süni intellektin inkişafı ilə bağlı dünya təcrübəsi göstərir ki, qabaqcıl ölkələr texnologiya şirkətləri ilə yanaşı, universitetlərə və tədqiqat mərkəzlərinə də böyük investisiyalar yönəldirlər.

Azərbaycan üçün də əsas məsələ miqyasına uyğun, yüksək nəticə verən tədqiqat ekosistemi yaratmaqdır. Bunun üçün müəyyən sahələrdə ixtisaslaşmaq mümkündür. Məsələn, Azərbaycan süni intellektin enerji sistemlərində, kənd təsərrüfatında, logistika və nəqliyyatda, maliyyə sektorunda, dil texnologiyalarında, səhiyyədə, dövlət xidmətlərində və kibertəhlükəsizlikdə tətbiqi üzrə regional tədqiqat mərkəzlərinə çevrilə bilər. Məqsəd bütün texnologiyalarda dünya lideri olmaqla yanaşı, seçilmiş istiqamətlərdə rəqabətqabiliyyətli elmi və texnoloji üstünlüklər yaratmaqdır.

Elmi tədqiqatın keyfiyyətini müəyyən edən əsas amillərdən biri isə alim və tədqiqatçının fəaliyyət göstərdiyi mühitdir. Tədqiqatçıların fikirlərinə görə, süni intellekt kimi sürətlə dəyişən sahələrdə yüksəkixtisaslı mütəxəssis üçün seçim imkanları qlobaldır. Yaxşı araşdırmaçının dünyanın istənilən universiteti, texnologiya şirkəti və ya tədqiqat laboratoriyası ilə əməkdaşlıq etməsi mümkündür. Bu səbəbdən Azərbaycanda qəbul edilmiş müvafiq dövlət sənədlərində akademik tədqiqatçıların və mütəxəssislərin dəstəklənməsi, yüksək texnologiya sahəsində çalışan alimlər üçün rəqabətqabiliyyətli əməkhaqqının və stimullaşdırıcı mexanizmlərin formalaşdırılması məsələsinin gündəmə gətirilməsi prinsipial əhəmiyyət daşıyır.

Sahənin mütəxəssisləri bildirirlər ki, tədqiqatçı üçün əməkhaqqı ilə yanaşı, laboratoriya, hesablama gücü, məlumat bazaları, beynəlxalq elmi şəbəkələrə çıxış, qrantlar, elmi konfranslarda iştirak imkanları, doktorantura proqramları, sənaye ilə əməkdaşlıq və nəticələrin kommersiyalaşdırılması mexanizmləri də vacibdir.

### Açıq məlumat siyasəti

Süni intellekt iqtisadiyyatında neftin yerini hansısa mənada məlumat - data tutur. Amma burada mühüm fərq var: xam məlumat öz-özlüyündə iqtisadi dəyər yaratmır. Məlumatın keyfiyyəti, strukturlaşdırılması, əlçatanlığı və emal imkanları onun dəyərini müəyyən edir. Məhz buna görə süni intellekt strategiyasında məlumat bazalarına çıxış məsələsinin xüsusi yer tutması təsadüfi sayılmamalıdır. Tədqiqat institutları və digər qurumlar tərəfindən toplanan açıq məlumatların tədqiqatçılar və mütəxəssislər üçün əlçatanlığının artırılması elmi və texnoloji inkişafın vacib şərtlərindəndir. Məsələn, nəqliyyat, meteorologiya, kənd təsərrüfatı, enerji, şəhərsalma, iqtisadiyyat və digər sahələr üzrə keyfiyyətli məlumatların müəyyən edilmiş təhlükəsizlik və məxfilik çərçivəsində tədqiqatçılara təqdim edilməsi yüzlərlə yeni araşdırmanın və innovativ məhsulun yaranmasına səbəb ola bilər.

Universitetdə çalışan gənc tədqiqatçı real Azərbaycan məlumatları üzərində işləməlidir. Çünki süni intellekt modellərinin yerli problemlərə uyğunlaşdırılması üçün yerli məlumat lazımdır. Bu baxımdan "açıq məlumat" siyasəti də innovasiya siyasəti kimi mühüm əhəmiyyət daşıyır.

Universitetdə aparılan elmi tədqiqatın nəticəsi yalnız elmi məqaləyə çevrilməklə məhdudlaşmamalıdır. Əlbəttə, fundamental elmin dəyərini yalnız kommersiya nəticəsi ilə ölçməməliyik. Lakin tətbiqi tədqiqatların məhsula və xidmətə çevrilməsi üçün mexanizmlər qurulmalıdır. Bunun üçün universitetlərdə texnologiya transfer ofislərinin, innovasiya mərkəzlərinin, inkubasiya və akselerasiya proqramlarının inkişafı mühüm rol oynayır.

Araşdırmalara görə, məlumat və dil texnologiyaları məsələsi də Azərbaycan üçün böyük əhəmiyyət daşıyır. Qlobal süni intellekt sistemlərinin böyük hissəsi ingilis dili və geniş istifadə olunan digər dillərdə daha inkişaf etmiş imkanlara malikdir. Azərbaycan dilində isə böyük dil modellərinin, nitqin tanınması, mətnin emalı, maşın tərcüməsi və digər təbii dil texnologiyalarının inkişafı ayrıca tədqiqat istiqaməti kimi qiymətləndirilə bilər. Azərbaycan dilində yüksəkkeyfiyyətli rəqəmsal resursların yaradılması dövlət xidmətlərinin, təhsilin, medianın, hüquqi informasiya sistemlərinin və biznes xidmətlərinin süni intellektlə inteqrasiyasını daha da asanlaşdırır. Bu məqsədlə universitetlər, elmi institutlar, texnologiya şirkətləri və dövlət qurumları arasında əməkdaşlıqla geniş Azərbaycan dili məlumat korpuslarının, terminoloji bazaların, açıq elmi resursların və dil texnologiyaları üçün verilənlər dəstlərinin yaradılması perspektivli istiqamətdir.

### Əsas qüvvə yenə də insandır

Rəqəmsal transformasiyanın uğuru üçün universitet-biznes əməkdaşlığı son dərəcə önəmlidir. Ənənəvi modeldə universitet bilik verir, tələbə məzun olur və daha sonra şirkətdə işə başlayır. Yeni modeldə isə şirkətlərin ehtiyacları təhsil proqramlarının formalaşdırılmasında daha fəal rol oynamalıdır. Şirkətlər universitetlərlə birlikdə laboratoriyalar yarada, tələbələrə real layihələr verə, müəllim və tədqiqatçılar üçün sənaye təcrübəsi proqramları təşkil edə bilərlər. Universitetlərin isə öz növbəsində şirkətlərin həll edə bilmədiyi texnoloji problemlər üçün tədqiqat platformasına çevrilməsi mümkündür. Bu modelin mühüm nəticələrindən biri tələbənin diplom almadan real layihələr üzərində işləməsidir. Beləliklə, əvvəl məzun olub, sonra təcrübə qazanmaq modeli tədricən təhsil alarkən təcrübə qazanmaq modelinə çevrilməlidir.

Süni intellekt təhsilin özünü də dəyişdirəcək. Burada maraqlı bir paradoksal məqam var: təhsil həm süni intellekt üçün kadr hazırlayır, həm də özü süni intellekt tərəfindən dəyişdirilir. Süni intellekt müəllimlərin yerini tamamilə tutmaya bilər, amma tədrisin fərdiləşdirilməsi, qiymətləndirmə, tədris materiallarının hazırlanması, dil öyrənilməsi və tədqiqat prosesində ciddi dəyişikliklər yaradacaq. Bu səbəbdən məktəbdən başlayaraq, şagirdlərə süni intellekt alətlərindən düzgün istifadə bacarığı öyrədilməlidir. Əslində, süni intellekt savadlılığı gələcəkdə oxu-yazı savadlılığı qədər fundamental bacarığa çevriləcək.

Rəqəmsal transformasiyada dövlətin əsas funksiyalarından biri də bazarın inkişafı üçün əlverişli mühit yaratmaqdır. Azərbaycanın Rəqəmsal İnkişaf Konsepsiyasında dövlət idarəetməsinin rəqəmsallaşdırılması, elektron xidmətlərin təkmilləşdirilməsi, böyükhəcmli məlumatların təhlili, süni intellekt və bulud texnologiyalarından istifadə kimi istiqamətlər müəyyən edilmişdir. Bu yanaşma dövlət sektorunu həm böyük texnologiya istifadəçisi, həm də innovasiya üçün mühüm sınaq meydanına çevirir. Ümumilikdə rəqəmsal transformasiyanın son məqsədi daha çox texnologiya yox, daha ağıllı cəmiyyət qurmaqdır.

Azərbaycanın Rəqəmsal İnkişaf Konsepsiyası ilə Süni İntellekt Strategiyasının bir-birini tamamlayan ən mühüm tərəflərindən biri də budur ki, hər iki sənəddə texnoloji inkişaf insan kapitalı ilə birlikdə götürülür. Bu əlaqə təsadüfi deyil. Əslində, rəqəmsal inkişafın bütün elementlərini birləşdirən əsas xətt məhz insan kapitalıdır. Bu səbəbdən Azərbaycanın rəqəmsal transformasiyasının uzunmüddətli uğuru üçün ən strateji investisiyalardan biri məhz insan kapitalına qoyulan investisiya olacaq. Çünki rəqəmsal gələcəyin ən qiymətli resursu məlumatdırsa, həmin məlumatı biliyə, biliyi innovasiyaya, innovasiyanı iqtisadi və sosial dəyərə çevirən əsas qüvvə yenə də insandır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## İQTİSADİYYAT

# Azərbaycan Çinin "ağıllı kənd təsərrüfatı"na maraq göstərir

## Çin isə ölkəmizin aqrar sektordakı investisiya mühitini öyrənir

**Son illər Azərbaycan və Çin arasında kənd təsərrüfatı əlaqələri qeyri-neft sektorunun inkişafı çərçivəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkələrimiz aqrar sahədə ticarət dövriyyəsinin artırılması, texnologiya transferi və qida təhlükəsizliyi istiqamətində fəal əməkdaşlıq edirlər.**

Bu məsələ Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində keçən il aprelin 23-də Pekində imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"da da öz əksini tapıb. Belə ki, həmin sənədin 4-cü bəndində deyilir: "Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər".

İki ölkə arasında aqrar sahədə idarəetməni gücləndirmək üçün Kənd Təsərrüfatı üzrə Birgə İşçi Qrupunun yaradılması qərara alınıb. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə ÇXR Baş Gömrük Administrasiyası arasında heyvan və bitki sağlamlığı sahəsində sıx koordinasiya mövcuddur.

Azərbaycan Çinin böyük təcrübəyə malik olduğu baramaçılıq, çəltikçilik və çayçılıq sahələrində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verir.

Bu, "ağıllı kənd" təsərrüfatına da aiddir. Belə ki, Çinin müasir aqrar texnologiyalarının, rəqəmsal həllərinin və riskəsaslı təftiş sistemlərinin ölkəmizdə tətbiqi müzakirə mövzusudur.

Eləcə də elmi əməkdaşlığa önəm verilir. Aqrar tədqiqatlar, laboratoriya işlərinin təkmilləşdirilməsi və birgə elmi layihələrin həyata keçirilməsi planlaşdırılır.

Çin şirkətləri Azərbaycanın əlverişli investisiya mühitindən yararlanaraq aqrar sektora sərmayə qoymaqda maraqlıdırlar. Orta dəhliz və "Bir kəmər, bir yol" təşəbbüsü kənd təsərrüfatı məhsullarının daşınma müddətini və xərclərini minimuma endirərək logistik üstünlük təmin edir.

Hədəflərdən biri də ixracın genişləndirilməsidir. 2026-cı ildə imzalanan yeni protokollara əsasən, Azərbaycandan Çinə vəhşi təbiətdən tutulmuş su məhsulları, akvakultura (süni su hövzələrində yetişdirilən) məhsulları və quş ətinin ixracı üçün rəsmi hüquqi baza yaradılıb. Azərbaycanın ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının (şərab, nar şirəsi, quru meyvələr və s.) Çin bazarına ixrac həcminin artırılması istiqamətində işlər davam etdirilir.



Beləliklə, Azərbaycandan Çinə əsasən daha hansı kənd təsərrüfatı və qida məhsulları ixrac olunur və ya ixracı üçün rəsmi razılaşmalar və icazələr əldə edilir? Bitkiçilik məhsulları sahəsində fındığın və badamın, eləcə də spirtli və spirtsiz içkilərin ixrac üçün icazələr əldə olunub. Potensial ixrac məhsulları isə alma, xurma, nar, zəfəran, albalı, həmçinin quş əti, akvakultura və yabanı dəniz məhsullarıdır.

Bəs biz Çindən nə alırıq? Azərbaycan Çindən müxtəlif növ ərzaq və kənd təsərrüfatı mənşəli mallar, o cümlədən qida sənayesi məhsulları, çörək və qənnadı məmulatları üçün xammallar idxal edir. Ümumilikdə Çin Azərbaycanın əsas idxal tərəfdaşlarından biridir, lakin qida təhlükəsizliyinə nəzarət məqsədilə zəruri hallarda müəyyən məhsul kateqoriyalarına qarşı nəzarət və ya müvəqqəti məhdudiyyətlər tətbiq edilə bilər.

Hazırda Azərbaycanın Çində rəsmi olaraq 6 ticarət evi fəaliyyət göstərir. Bu ticarət evlərində Azərbaycan mənşəli aqrar, kənd təsərrüfatı və qida məhsulları satılır.

Azərbaycanın Çindəki ticarət evləri paytaxt Pekin, Çindao, Canciaciye, Sian, Çendu, Nankin şəhərlərində yerləşir. Sonuncu ticarət evi 2024-cü ilin mayında açılıb. Ticarət evləri ilə yanaşı, Çinin müxtəlif regionlarında Azərbaycanın 4 ticarət bölməsi və 3 şərab evi də fəaliyyət göstərir.

"Made in Azerbaijan" brendi ilə təqdim olunan məhsullar çinli alıcılara həm topdan, həm də pərakəndə şəkildə təklif edilir. Bu pilyonlarda satılan əsas aqrar və emal məhsullarına bunlardır: meyvə şirələri (xüsusilə Çində çox populyar olan nar şirəsi), şərab və spirtli içkilər, mürəbbə, cem və kompotlar, müxtəlif konservləşdirilmiş məhsullar (məsələn, turşular), çay məhsulları və milli şirniyyatlar.

Azərbaycanın və Çinin sözügedən sahədəki qurumları və əməkdaşları yaxından əlaqə saxlayır, fikir mübadiləsi aparır, gələcək əmkdaşlıq yollarını müəyyənləşdirirlər. Məsələn, keçən ay İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Əməliyyat meneceri Elnur Əliyev Çin Xalq Respublikasının Şaansi əyalətinin Yanqlinq şəhərində keçirilən "Kənd təsərrüfatının inkişafı və yoxsulluğun azaldılması" mövzusunda beynəlxalq seminarda iştirak edib. Seminarda ölkəmiz İİTKM ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Aqrar Tədqiqatlar Mərkəzinin (ATM) nümayəndələri tərəfindən təmsil olunublar.

Bu, Çin hökumətinin inkişaf etməkdə olan ölkələr üçün həyata keçirdiyi beynəlxalq təlim proqramı çərçivəsində təşkil olunan bir seminar idi. Tədbirin kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda səmərəliliyin və rəqəmsal texnologiyaların tətbiqinin artırılması, kənd ərazilərinin inkişafı və yoxsulluğun azaldılması sahəsində Çin təcrübəsinin öyrənilməsi, habelə tərəfdaş ölkələr arasında təcrübə mübadiləsinin təşviq edilməsi məqsədini daşıyırdı.

Proqram çərçivəsində Azərbaycan, Əfqanıstan, Pakistan və Kambocadan olan nümayəndələr aqrar innovasiya ekosistemi, elmi-tədqiqat nəticələrinin istehsala inteqrasiyası, kənd təsərrüfatı məhsullarının emalı və dəyər zəncirinin formalaşdırılması ilə bağlı təqdimatlarla tanış olublar. İştirakçılar həmçinin Yanqlinq şəhərində yerləşən aqrar və elmi-tədqiqat müəssisələrinə, eləcə də qədim tarixi və müasir inkişaf modeli ilə seçilən Sian şəhərinə səfər ediblər.

Seminarın bağlanış mərasimində Azərbaycan nümayəndə heyəti adından İİTKM-in Əməliyyat meneceri Elnur Əliyev çıxış edib. O, iki ölkə arasında münasibətlərin dinamik inkişafını vurğulayıb və təşkilatçılara minnətdarlığını bildirib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Könlü balıq istəyənin..."

## Azərbaycanda balıqçılıq artıq yeni qanunla tənzimlənir

**Azərbaycanda balıqçılıq sahəsinin hüquqi tənzimlənməsi baxımından yeni mərhələsi başlayır. Balıq və digər su bioresurslarının qorunması, səmərəli istifadəsi, artırılması, akvakulturanın inkişaf etdirilməsi və balıqçılıq fəaliyyətinin müasir tələblərə uyğun təşkil edilməsi məqsədilə Prezident İlham Əliyevin imzaladığı "Balıqçılıq haqqında" qanun bu sahədə fəaliyyətin daha aydın qaydalar əsasında qurulmasına imkan yaradır.**

Sənəddə akvakultura, balıq ovu, balıqartırma, balıqyetişdirmə, balıqmühafizə, balıqçılıq infrastrukturu, vətəgə sahələri və balıqçı gəmiləri ilə bağlı məsələlərə geniş yer verilir. Başqa sözlə, balıqçılıq sudan balıq çıxarmaqla yanaşı, həm də onu qorumaq, emal etmək və insanlara çatdırmaqdan ibarət bütöv bir sahə kimi nəzərdən keçirilir.

Qanunun əhatə dairəsi bununla da bitmir. "Balıq və digər su bioresursları" dedikdə balıqlarla yanaşı, kürüsü, digər su heyvanları və bitkiləri, eləcə də onların çoxalması ilə bağlı canlılar nəzərdə tutulur. Belə yanaşma su hövzələrini öz daxilində zəngin və bir-biri ilə bağlı canlı aləmi yaşadan təbii bir sistem kimi qəbul etməyə imkan verir.

Sözügedən sənəddə sənaye, idman və həvəskar ovla yanaşı, elmi-tədqiqat, təhsil, maarifləndirmə, akvakultura, nəzarət və iqlimləşdirilmə məqsədləri üçün də ov nəzərdə tutulur. Təbii ki, bu fəaliyyət müəyyən olunmuş qaydalara və ov üçün nəzərdə tutulan kvotalara uyğun aparılmalıdır. Məqsəd sudakı həyatın tarazlığını pozmadan, ondan səmərəli istifadə etməkdir.

Qanunun mühüm istiqamətlərindən biri də mövcud ehtiyatların qorunması və gələcək üçün artırılmasıdır. Su obyektlərinin meliorasiyası ilə bağlı müddəalar bunun göstəricisidir. Yəni qanun yalnız bu günün ovunu deyil, sabahın balıq ehtiyatını da düşünür. Suyun təmizliyi, balığın yaşadığı mühit və onun çoxalması üçün əlverişli şərait bir-birini tamamlayır. Biri zəiflədikdə digəri də öz təsirini itirir.

Balıqçılıq haqqında qanunun 2-ci maddəsi bu sahənin hansı hüquqi dayaqlar üzərində qurulduğunu göstərir. Burada Konstitusiya və beynəlxalq müqavilələrlə yanaşı, Su Məcəlləsi, "Qida təhlükəsizliyi haqqında", "Heyvanlar aləmi haqqında", "Baytarlıq haqqında" və digər qanunlara da istinad edilir. Və bu da balıqçılığın təkbaşına mövcud olan bir sahə olmadığına dəlalət edir. Su, təbiət, heyvanlar aləmi, ərzaq təhlükəsizliyi və ətraf mühit bir-birinə bağlı halqalar kimi bu sistemin tərkib hissəsidir. Xəzər dənizinin Azərbaycana mənsub olan hissəsində bu sadalananlara xüsusi yanaşma var. Burada milli qanunvericiliklə yanaşı, Azərbaycanın qoşulduğu beynəlxalq müqavilələr və beynəlxalq hüquq normaları da nəzərə alınır. Çünki Xəzər yalnız bir ölkənin deyil, ortaq coğrafiyanın və ortaq təbii sərvətlərin bir hissəsidir.



Bütün bunların fonunda yeni qanunun əsas mesajını sadə şəkildə belə ifadə etmək olar: suların sərvətindən istifadə edərkən onun həyatını qorumaq lazımdır. Su hövzələri sabaha canlı ötürülməlidir. Balıqçılığın gələcəyini ovlanan balığın miqdarı ilə ölçmək doğru olmaz. Qanun balıqçılıq sahəsinin sərhədlərini daha geniş müəyyənləşdirir. Burada söhbət suda yaşayan canlı aləmin bütövlükdə qorunmasından, artırılmasından və ondan düzgün istifadə edilməsindən gedir. Yəni qanun balığın tutulmasından əvvəl onun yaşadığı mühitin qorunmasını ön plana çəkir. Balıq ehtiyatlarının artırılması, yetişdirilməsi, su hövzələrinin yaxşı vəziyyətdə saxlanılması və nadir növlərin mühafizəsi bu yanaşmanın əsas hissəsidir.

Burada akvakulturaya da geniş yer verilir. Yəni balığın xüsusi təsərrüfatlarda yetişdirilməsi, çoxaldılması və sonradan su hövzələrinə buraxılması artıq balıqçılığın mühüm istiqamətlərindən biri kimi qəbul edilir. Başqa sözlə, məqsəd təkcə təbiətdən götürmək deyil, həm də təbiətə qaytarmaq və onun ehtiyatlarını artırmaqdır.

Balıq ovu da müəyyən qaydalar çərçivəsində həyata keçirilməlidir. Kim, harada, hansı məqsədlə və nə qədər balıq ovlaya bilər? Sualın cavabı qanunla müəyyən edilmiş qaydalarda və kvotalardadır. Bu cür tənzimləmə su bioresurslarının nəzarətsiz şəkildə azalmasının qarşısını almağa xidmət edir. Çünki su hövzələrindəki balıq ehtiyatları sonsuz deyil. Həddindən artıq və nəzarətsiz ov balıqların sayının azalmasına, bəzi növlərin isə təhlükə qarşısında qalmasına səbəb ola bilər. Buna görə də ovun həcminin müəyyənləşdirilməsi, ov alətlərindən düzgün istifadə edilməsi və müəyyən edilmiş qaydalara əməl olunması vacibdir.

Balıqçılıq insanın ehtiyacını ödəməklə yanaşı, həm də təbiətin özünü bərpa etmək imkanını saxlamalıdır. Bu gün tutulan balığın miqdarı sabah su hövzəsində balığın olub-olmaması hesabına müəyyən edilməməlidir. Balıqçılığın davamlı olması üçün ovla mühafizə arasında sağlam tarazlıq qorunmalıdır. Qanunun maddələrindən birində deyilir: "Balıq ovu üçün kvota - balıq və digər su bioresurslarının ovuna yol verilən maksimum həcm". "Kvota" sözünü sadəcə ovun məhdudlaşdırılması kimi anlamayaq. O, balıq ehtiyatlarının qorunması və gələcəkdə də balıqçılığın mümkün olması üçün qoyulan bir həddir.

Qanun həmçinin balıqçılığın iqtisadi tərəfini də əhatə edir. Balıqçı gəmiləri, vətəgə sahələri, balıqçılıq infrastrukturu, balıq məhsullarının emalı və dövriyyəsi bu sahənin ayrılmaz hissəsi kimi nəzərdə tutulur.

Əslində, qanunun arxasında sadə bir fikir dayanır: sudan bu gün istifadə edərkən sabahı da düşünmək lazımdır. Çünki çaylar, göllər və Xəzər bu günün və gələcək nəsillərin sərvətidir. Ona görə də balıqçılığın gələcəyi balığın yaşaya biləcəyi sağlam su mühitini qorumaqdan keçir. Yeni qanunun əsas ruhu da məhz budur: istifadə ilə mühafizə arasında tarazlıq yaratmaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sahibkarları hansı güzəştlər gözləyir?

**Azərbaycanda qeyri-neft sektoru sürətlə inkişaf edir. Regionların tarazlı tərəqqisi təmin olunur və işgüzar mühit getdikcə daha əlverişli vəziyyətə gətirilir. Həyata keçirilən məqsədyönlü siyasət artıq yeni və daha genişmiqyaslı mərhələyə qədəm qoyur. Prezident İlham Əliyevin qarşıya qoyduğu strateji hədəflər bu istiqamətdə uğurla icra olunur.**



İslahatlar kursu sayəsində regionlarda iqtisadi fəallıq canlanır və sahibkarların investisiya-istehsal fəaliyyəti genişləndirilir. Əlavə dəyər yaradan ixracyönümlü istehsal sahələrinin formalaşmasına güclü təkan verilir və yeni dövlət dəstəyi mexanizmləri işgüzar dairələrdə böyük maraqla qarşılanır.

Bu günlərdə iqtisadiyyat nazirinin müavini Azər Bayramov Masallı şəhərində Lənkəran-Astara iqtisadi rayonunun sahibkarları ilə görüşüb. Görüşdə sahibkarlara sentyabrın 1-dən qüvvəyə minən bir sıra yeni güzəştlərdən bəhs olunub. Yeni qaydalar bilavasitə yerli ixracatçıların maraqlarını qorumağa və onların hərtərəfli dəstəklənməsinə xidmət edir. Dövlətimizin tətbiq etdiyi yeni güzəşt və dəstək mexanizmləri sahibkarlar üçün əsl biznes stimulu yaradır. Bu dəstək mexanizmləri sahibkarların maliyyə yükünü əhəmiyyətli dərəcədə yüngülləşdirir. Eyni zamanda onların investisiya və istehsal imkanlarını genişləndirir. Bu dəstək mexanizmləri çərçivəsində tətbiq edilən ixracda daşıma xərclərinin kompensasiyası mexanizmi sentyabrın 1-dən 10 il müddətində qüvvədə olacaq.

Belə ki, Azərbaycan mənşəli qeyri-neft-qaz mallarının ixracı zamanı yaranan daşıma xərclərinin 70 faizədək hissəsi dövlət tərəfindən ödəniləcək. Dəstək mexanizmi dəmir yolu, hava və dəniz nəqliyyatını əhatə edir. Azərbaycanda qeydiyyatda olan avtomobillərlə həyata keçirilən daşımalar da bu güzəştə şamil olunur. Xaricdə qeydiyyatda olan avtomobillərdən istifadə olunduqda isə dövlət dəstəyi 50 faizədək təşkil edəcək. Eyni zamanda Naxçıvanda istehsal olunan qeyri-neft-qaz məhsullarının ölkənin digər ərazilərinə quru yolu ilə daşınması zamanı xərclərin 70 faizədək hissəsi dövlət tərəfindən kompensasiya olunacaq.

Mikro, kiçik və orta sahibkarlıq subyektləri olan ixracatçılar bu güzəştdən yararlanacaq. Gömrük rəsmiləşdirilməsi xərclərinin bir hissəsi dövlət tərəfindən qarşılanacaq. Kompensasiyanın məbləği məhsulun növündən və ixrac edildiyi ölkədən asılı olacaq. Bu qayda sentyabrın 1-dən 5 il müddətində qüvvədə olacaq. Sahibkarlara kredit faizlərinin 50 faizi həcmində subsidiya verilir. İşğaldan azad edilmiş ərazilərdə əsas borcun 90 faizinədək dövlət zəmanəti təqdim olunur. Digər regionlarda isə əsas borcun 50 faizinədək dövlət zəmanəti verilir. Həmçinin yeni sənaye və kənd təsərrüfatı obyektləri yaradılır. Bu obyektlərin elektrik şəbəkəsinə qoşulması zamanı ödənilən haqq azaldılır. Qoşulma haqqının 50 faizi dövlət tərəfindən qarşılanacaq. Bu güzəşt 2027-2030-cu illərdə tətbiq olunacaq. Bundan başqa, iri layihələr xüsusi diqqətdə saxlanılır. Belə layihələrin vahid pəncərə prinsipi ilə icrası təmin ediləcək. Komissiya layihələrin sürətləndirilmiş qaydada həyata keçirilməsinə kömək edəcək.

Müasir dövrdə elektron ticarət sürətlə inkişaf edir. Sentyabrın 1-dən vergi sahəsində də mühüm yeniliklər qüvvəyə minəcək. Rəqəmsal xidmət təchizatçıları da yeni qaydalara tabe olacaq. Azərbaycanda elektron ticarət qaydasında xidmət göstərən şirkətlər var. Artıq ölkə üzrə illik dövriyyəsi 10 min ABŞ dollarını aşan qeyri-rezident rəqəmsal xidmət təchizatçıları müəyyənləşdirilib. Belə şirkətlər üçün vergi orqanında elektron qeydiyyat məcburi olacaq. Bu qərar rəqəmsal iqtisadiyyatın tənzimlənməsinə xidmət edir. Eyni zamanda ölkəmizdə ədalətli rəqabət mühitinin formalaşmasını təmin edir.

Beləliklə, sentyabrın 1-dən qüvvəyə minən yeni güzəştlər paketi ölkəmizin iqtisadiyyatının canlanmasına güclü təsir göstərəcək. Dövlətimizin sahibkarlara göstərdiyi qayğı hər zaman öz bəhrəsini verib. Qarşıdakı 10 il ərzində tətbiq olunacaq bu mexanizmlər sayəsində iqtisadiyyatda qeyri-neft sektorunun payı daha da artacaq. Sahibkarlar üçün yaradılan əlverişli şərait ölkəmizin iqtisadi qüdrətini daha da gücləndirəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Cari ilin 6 ayında xarici ticarətdə 9,3 milyard dollarlıqdan çox müsbət saldo yaranıb

**Dünyada baş verən neqativ proseslər qlobal iqtisadiyyata təsir göstərməkdə davam edir. Ölkələr arasında ticarət əlaqələri zəifləyir, təchizat zəncirləri qırılır, investisiya mühiti pisləşir və s. Amerika-İran müharibəsi nəticəsində enerji resurslarının qiymətinin kəskin bahalaşması da bir tərəfdən.**

Azərbaycan dünya iqtisadiyyatına açıq ölkədir. Ona görə dünyada baş verən proseslər ölkəmizdən də yan keçmir. Lakin aparılan məqsədyönlü iqtisadi siyasət sayəsində ölkəmiz bu təlatümlərdən minimum itki ilə çıxmağı bacarır.

Götürək xarici ticarəti. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-iyun aylarında Azərbaycan dünyanın 173 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 119 ölkəyə məhsul ixrac, 155 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış, ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsinin dəyəri 26 milyard 54,2 milyon, o cümlədən ixracın dəyəri 17 milyard 713,1 milyon, idxalın dəyəri 8 milyard 341,1 milyon dollar olmuş, nəticədə 9 milyard 372,1 milyon dollar müsbət saldo yaranmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi cari qiymətlərlə 9,1 faiz artmış, real ifadədə isə 13,1 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olan məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 89,5 faizi İtaliya, Birləşmiş Krallıq, Türkiyə, Çin, Rusiya, Almaniya, Gürcüstan, Yunanıstan, Bolqarıstan, ABŞ, İsveçrə, Rumıniya, Çexiya, İran, Ukrayna, Portuqaliya, Belarus, Hindistan, Fransa, Tunis və Suriya ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə idxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, kimya sənayesi məhsullarının, azqiymətli metalların və onlardan hazırlanan məmulatların, hazır qida məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastmas və ondan hazırlanan məmulatların, mineral məhsulların, tekstil materialları və məmulatlarının dəyəri üstünlük təşkil etmişdir.

İxracın strukturunda isə xam neft, təbii qaz və neft-qaz məhsullarından əlavə, meyvə və tərəvəzlər, plastmas və ondan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyin, kimya sənayesi məhsullarının, şəkərin, qara metallar və ondan hazırlanan məmulatlar, alkoqollu və alkoqolsuz içkilərin, bitki yağlarının payı yüksək olmuşdur.

Hesabat dövründə qeyri-neft-qaz məhsullarının ixracının payı yüksək olaraq qalmışdır. Belə ki, bu növ məhsullar üzrə artım keçən ilin yanvar-iyun aylarındakı dövrə nisbətən cari qiymətlərlə 3,2, real ifadədə isə 2,2 dəfə artmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Elm xadimləri

## Yarım əsrdən çox Azərbaycan dilinin keşiyində

**AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Möhsün Nağısoylu çoxsaylı monoqrafiyaların, 60-dan artıq tərcümə və kitabın, 500-dən çox məqalənin müəllifidir.**

Alimin 1979-cu ildə müdafiə etdiyi "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (poleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri)" adlı namizədlik "XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (tekstoloji tədqiqi və dil xüsusiyyətləri)" mövzusunda doktorluq dissertasiyaları Azərbaycanda paleoqrafiya və tərcümə tarixinə həsr olunmuş ilk ciddi elmi araşdırmalardır. Onun elmi yaradıcılığı əsasən orta yüzilliklərdə olan mənbələrin fars dilindən Azərbaycan dilinə tərcümə edilməsinə və həmin əlyazmaların mətnşünaslıq və dilçilik baxımından tədqiqinə həsr olunmuşdur.

Orta əsr ümumtürk ədəbiyyatının ən qiymətli nümunələrinin yorulmaz tədqiqatçısı, linqvistik mətnşünaslıq sahəsinə dair dəyərli elmi araşdırmaların müəllifi, xüsusən də farsdilli yazılı abidələrin peşəkar tərcüməçisi, Azərbaycan tərcümə ədəbiyyatının inkişafında xidmətləri olan şərqşünas alim akademik Möhsün Nağısoylu tərcümə etdiyi əsərlərlə ədəbiyyatımıza, ümumilikdə mədəniyyətimizə dəyərli töhfələr vermişdir. Öz dəst-xəti ilə seçilən, ardıcıl və səmərəli elmi fəaliyyət göstərən tanınmış əlyazmaşünas - mətnşünas son illərdə klassik Azərbaycan tərcümə ədəbiyyatının ilkin qaynaqları - əlyazmaları əsasında ilk dəfə tərtib edib nəşrə hazırladığı kitabları ilə filologiya elmimizdə özünəməxsus məktəb yaratmışdır.

Onun istər Azərbaycan ədəbiyyatı tarixi, istərsə də ədəbi dil tarixinin aktual problemlərinə həsr olunmuş əsərlərində ədəbi dilin inkişaf tarixi yüksək peşəkarlıqla tədqiq olunmuşdur. Akademikin "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" monoqrafiyasında ilk dəfə olaraq Şərq klassik tərcümə sənətinin növ və xüsusiyyətləri ətraflı şəkildə araşdırılmış və indiyədək elm aləminə bəlli olmayan bir sıra mənbələr üzə çıxarılmışdır. Qeyd olunduğu kimi, Yaxın və Orta Şərq xalqlarının əsrlər boyunca qarşılıqlı əlaqələrdə olmaları, ərəb, fars və türklərin möhtəşəm islam mədəniyyətinin inkişafında yaxından iştirak etmələri ədəbiyyatın ayrıca bir qolu kimi tərcümə sənətinin inkişafına səbəb olmuşdur. Tədqiqatda Orta əsrlərdə tərcümə sənəti müstəqil bədii yaradıcılığın ayrıca bir növü hesab edilərək bir sıra özəl xüsusiyyətləri təyin edilmiş və müasir tərcümədən köklü surətdə fərqləndiyi müəyyənləşdirilmişdir. İlk dəfə tərcümə əsərləri ilə onların orijinallarının mətnləri üzərində müqayisəli tekstoloji təhlil aparılmış və Azərbaycanda tərcümə sənətinin səciyyəvi xüsusiyyətləri üzə çıxarılmışdır. Azərbaycanda tərcümə sənətinin qədim tarixi Orta əsrlərə aid təzkirələr, tarixi və ədəbi əsərlər, eləcə də günümüzə qədər gəlib çatan tərcümə əsərlərinin əlyazmaları əsasında araşdırılaraq göstərilir ki, bu tərcümələr anadilli yazılı ədəbiyyatla eyni dövrdə yaranmısdır.



M.Z.Nağısoylunun Azərbaycan filologiyasında yeni bir sahə olan linqvistik mətnşünaslıq üzrə araşdırmalarında XV-XVI əsrlərə aid tərcümə əlyazmalarında işləyən ayrı-ayrı söz və ifadələrin məhz klassiklər tərəfindən ilk dəfə yazılı ədəbi dilə gətirilməsi əsaslandırılmış və onların şərhi verilmişdir. Müəllifin "Gülşəni-raz" tərcüməsi ilə onun farsca orijinalının müqayisəli tekstoloji tədqiqinə həsr olunmuş əsəri tərcümə ədəbiyyatı tarixinin araşdırılması və tərcümə mətninin düzgün qavranılması üçün çox dəyərlidir. Tərcümənin dil xüsusiyyətləri göstərir ki, XIV-XV əsrlərin anadilli məsnəviləri kimi ümumxalq danışıq dilində qələmə alınmış və həmin dövrün türk mənşəli sözləri işlək olmuşdur. Bununla yanaşı, Həzinin "Hədisi-ərbəin" tərcüməsi Nəsimi "Divan"ı və Xətainin "Dəhnamə" məsnəvisi ilə müqayisə edilərək təhlil edilmişdir.

Alimin tədqiqatlarında Orta əsrlər yazılı abidələrin həm də linqvistik xüsusiyyətləri geniş araşdırılmış, dövrün dil xüsusiyyətləri bu mənbələr əsasında müəyyənləşdirilmiş, dil vahidlərinin etimoloji təhlilləri verilmiş, müasir dil üçün arxaikləşmiş sözlərin Şiraziyə qədərki və ondan sonrakı dövr əsərlərində işlənmə məqamları dəqiqləşdirilmişdir. Mətnşünas alim klassik Azərbaycan tərcümə ədəbiyyatı nümunələrinin XV-XVI əsrlərdə daha geniş vüsət aldığını və həmin dövrdə milli ədəbi dilimizin güclü inkişafı ilə birbaşa bağlılığını qeyd edir. Buna görə də tərcümə abidələri üzərində alimin apardığı tədqiqatların Azərbaycan dilinin tarixi inkişaf mərhələlərini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyəti var. Görkəmli alimin hazırladığı elmi təsvirlər farsdilli əlyazmalar kataloqunun birinci, ikinci və üçüncü cildlərinə daxil edilmisdir.

M.Nağısoylunun tədqiqatlarında dəfələrlə əlifba dəyişikliyinə məruz qalmış Azərbaycan xalqının Orta əsrlərdəki elmi-ədəbi, mədəni tarixinin yaşadılması üçün gördüyü səmərəli fəaliyyət nəticəsində arxivdə saxlanılan bir çox əsərlər tərcümə edilərək müasir Azərbaycan oxucusuna təqdim olunmuşdur. Onun yaradıcılıq irsinin mühüm bir hissəsini tərcüməçilik fəaliyyəti təşkil edir. O, uzun illər Əfqanıstanda fars dili üzrə tərcüməçi işləməklə yanaşı, fars dilindən bir sıra kitabları da Azərbaycan dilinə tərcümə etmişdir. Tərcümə tarixi sahəsində tanınmış mütəxəssis kimi tanınan alimin tərcümələri sırasında İran alimi Sədrəddin Bəlağinin "Quran qissələri" kitabının tərcüməsi də xüsusi yer tutur. Möhsün Nağısoylunun aydın və axıcı bir dillə tərcümə etdiyi bu kitabdan respublikamızın ayrı-ayrı təhsil müəssisələrində dərs vəsaiti kimi istifadə olunur. Klassik ədəbiyyatımız üçün böyük rol oynayan bu əsər 2001 və 2006-cı illərdə İranın paytaxtı Tehranda və Qum şəhərində təkrar nəşr olun-muşdur. Bununla yanaşı, M.Nağısoylu Ə.Bəxşayişinin "Sidiqiye-Tahirə" (Bakı, 1996, 228 səh.), Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" (Bakı, Nurlan, 2005, 128 səh.), Seyid Yəyha Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" (Bakı, 2014) əsərlərini də tərcümə etmişdir.

Möhsün Nağısoylu bir çox beynəlxalq və respublika konfranslarında, müşavirə və elmi sessiyalarda Azərbaycan filologiyasını təmsil edən görkəmli alimdir. O, Almaniyada, Türkiyədə, Tehranda, Kabildə, Ankarada, Konyada, Lefkoşada və Rusiyanın müxtəlif şəhərlərində keçirilən beynəlxalq elmi konfranslarda iştirak etmiş, türkologiya və Azərbaycan mətnşünaslığının, dilinin, ədəbiyyatının aktual problemləri ilə bağlı rus, fars və türk dillərində məruzələr etmişdir.

Möhsün Nağısoylu 2015-2021-ci illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru olmuşdur. Alimin rəhbərliyi ilə Azərbaycan dilinin - dövlət dilimizin inkişaf etdirilməsi, zənginləşdirilməsi və qorunması sahəsində elmi əhəmiyyətli vəzifələr yerinə yetirilmişdir. Akademiyanın həqiqi üzvü, bacarıqlı elm təşkilatçısı M.Nağısoylu hazırda ARNK yanında Terminologiya Komissiyasının "Dilçilik və orfoqrafiya" bölməsinin sədri, 2015-ci ildə təşkil olunmuş Dil Komissiyasının üzvü və 2021-ci ildən AMEA-nın müşaviridir. Elmi fəaliyyətinin bütün dövrlərində Azərbaycan filologiyasının ən aktual problemləri ilə bağlı araşdırmalar aparmış görkəmli alim istər elmi, istər pedaqoji, istərsə də təşkilatçı kimi ibrətamiz bir ömür sahibidir. Alimin üzün müddət apardığı səmərəli elmi fəaliyyəti yüksək qiymətləndirilərək 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2017-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

M.Nağısoylu Azərbaycan ictimaiyyətində tanınmış mətnşünas, mükəmməl tərcüməçi kimi ana dilimizin inkişafında mühüm rolu olan və milli köklər üzərində təşəkkül tapan əlyazmalar üzərində 50 ildən çoxdur tədqiqat aparır və Azərbaycan elminin gələcəyi naminə bilik və bacarığını, fiziki qüvvəsini əsirgəmədən öz elmi fəaliyyətini davam etdirir. Bütün qüvvə və bacarığını ana dilinin tədqiqi, tədrisi və təbliği işinə, elmi, pedaqoji kadrların hazırlanması kimi son dərəcə şərəfli, məsuliyyətli bir məqsədə həsr etmişdir. Onlarla kitab, yüzlərlə elmi məqalə, ümumən Azərbaycan mədəniyyəti tarixinin qızıl fondunu təşkil edən ayrı-ayrı qədim əlyazmaların elmi-tekstoloji baxımdan araşdırılıb ərsəyə gətirilməsi məhz M.Nağısoylunun ardıcıl və səmərəli elmi fəaliyyətinin nəticələridir. Onun elmi rəhbərliyi ilə 30-a qədər doktorant dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru və elmlər doktoru alimlik dərəcəsini almışdır. Bu alimlərin hər biri M.Nağısoylu məktəbinin davamçılarıdır.

Tanınmış şərqşünas, mətnşünas-dilçi alim, akademik Möhsün Nağısoylu 80 illik ömür yolunun yarım əsrini elmə, maarifə, milli-mənəvi sərvətimiz olan əlyazmaların tədqiqinə həsr etmişdir. Görkəmli əlyazmaşünas-mətnşünas, dilçi alim, yazılı abidələrimizin yorulmaz tədqiqatçısı, filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu ömrünün müdriklik dövrünü yaşayır.

*Sayalı SADIQOVA,*
*Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor*

● Yaddaş

## Milli maarifçiliyin "Nəşri-maarif" yolu

**XX əsr yalnız siyasi təlatümlərlə deyil, eyni zamanda iqtisadi inkişafla, mədəni tərəqqiyə meyillərin güclənməsi ilə gəldi. Azərbaycanın mərkəz şəhəri - Bakı sürətlə dəyişdi. Neft hasilatının yüksəlməsi Bakını Qafqazın sənaye mərkəzinə çevirdi.**



Amma o dövrdə Bakı həm də ictimai fikrin, mətbuatın və maarifçiliyin inkişafına çalışan Azərbaycanın qabaqcıl övladlarının toplandığı məkan idi. Əhalinin böyük hissəsinin savadsızlığı, məktəblərin azlığı, uşaqların təhsil almaq imkanlarının məhdudluğu onları rahatsız edirdi.

Problem böyük idi. Məktəb açmaq, müəllim hazırlamaq, kitab almaq və uşaqların təhsilinə yardım göstərmək yalnız ayrı-ayrı şəxslərin deyil, bütövlükdə cəmiyyətin işi olmalı idi. Bu mənada Azərbaycanda maarif və xeyriyyə cəmiyyətlərinin yaradılması labüd idi. Belə bir vaxtda, 120 il öncə Bakıda "Nəşri-maarif" və ya "Nəşri-savad və maarif" Cəmiyyəti yaradıldı.

Cəmiyyətin ilk nizamnamə layihəsi 1906-cı il avqustun 1-də təsdiq edildi. Həmin il noyabrın 10-da Bakı Dumasında "Nəşri-maarif" Cəmiyyətinin açılışı keçirildi. 1906-cı il noyabrın 24-də isə "Nəşri-maarif"in idarə heyətinə ilk seçkilərdə cəmiyyətin tərkibi müəyyənləşdi. Hacı Zeynalabdin Tağıyev idarə heyətinin sədri, Məmmədhəsən Hacınski sədr müavini seçildi. Əhməd bəy Ağayev, Əli İsgəndər Cəfərov, Əbdüləli bəy Əmircanov, Həsən bəy Məlikov, Məhəmmədəli bəy Nəzirov və başqa tanınmış şəxslər də cəmiyyətin fəaliyyətinə cəlb olundular.

Azərbaycanda, xüsusilə Bakıda müsəlman əhali arasında təhsilin və maarifin yayılmasında "Nəşri-maarif" cəmiyyətinin mühüm xidmətləri oldu. Maarifçilik məqsədi daşıyan bu cəmiyyət Bakı quberniyasının müxtəlif ərazilərində məktəblər açaraq kütləvi savadsızlığın və cəhalətin aradan qaldırılmasına səy göstərirdi. Cəmiyyətin fəaliyyətinə sənaye və ticarət sahibkarları da maddi dəstək verirdilər.

Cəmiyyət kənd müsəlman əhalisi arasında maarifin yayılması istiqamətində böyük işlər reallaşdırdı. Onun əsas məqsədlərindən biri maarifin əhəmiyyətini xalqa çatdırmaq və valideynlərdə uşaqlarını məktəbə göndərmək istəyini formalaşdırmaq idi. Savadsızlığın geniş yayıldığı bir mühitdə bu məqsədə nail olmaq ciddi çətinliklər tələb etsə də, "Nəşri-maarif" cəmiyyəti buna nail ola bilirdi.

"Nəşri-maarif" fəaliyyətinin ilk vaxtlarında, əsasən, Bakını əhatə edirdi. Həmin vaxt şəhərdə müsəlman uşaqlarının dünyəvi təhsil ala biləcəyi məktəblərin sayı çox az idi. Rus-tatar məktəbləri əhalinin ehtiyaclarını tam ödəmirdi. Rayon və kəndlərdə fəaliyyət göstərən məktəblərin vəziyyəti isə acınacaqlı idi. Bir çox şagird illərlə dərs alsa da, bilik əldə edə bilmirdi.

Bu vəziyyəti nəzərə alan cəmiyyətin idarəsi 1907-ci ildə Bakının müsəlman əhalisinin yaşadığı üç əsas mərkəzdə məktəblər açdı. Həmin təhsil ocaqları qısa müddətdə əhali arasında rəğbət qazandı. Cəmiyyətin digər məktəblərində olduğu kimi, burada da təlim yeni üsulla və pulsuz həyata keçirilirdi.

Cəmiyyətin büdcəsi daimi üzvlərin üzvlük haqları, birdəfəlik ianələr, hər il təşkil olunan müsəlman gecələrindən əldə olunan gəlirlər hesabına formalaşırdı. Hacı Zeynalabidin Tağıyevin rəhbərliyi ilə Bakı idarəsinin razılığı əsasında teatr tamaşaları, xeyriyyə tədbirləri və konsertlər təşkil olunurdu. Bu tədbirlərdə varlı təbəqənin nümayəndələri, xarici konsulluqlar və quberniya rəhbərləri iştirak edir, cəmiyyətə maddi yardım göstərirdilər. Həmin hesaba "Nəşri-maarif" cəmiyyəti Bilgəh, Balaxanı, Zabrat, Bülbülə, Qala, Hövsan, Keşlə, Ramana, Suraxanı, Şağan, Buzovna, Binə və digər yaşayış məntəqələrində 16 ibtidai məktəb açdı. Təhsil alan uşaqların sayı ildən-ilə artdı. Bu məktəblər arasında Balaxanıda 4 sinifli və Zabratda 2 sinifli qız məktəbləri də fəaliyyət göstərirdi.

Müxtəlif illərdə cəmiyyətin Qubada, Göyçayda, Astarada, Bankə bölgəsində, Ağdaşda, Qaryagində (indiki Füzuli rayonu), Şuşada, Gəncədə, həmçinin Həştərxan quberniyasında, Saratovda, Moskvada, Türkiyə və Rumıniyada şöbələri yaradıldı. Yeni məktəblər açmaqla yanaşı, cəmiyyət mövcud təhsil müəssisələrinə maddi yardım da göstərirdi. Şagirdlər kitab, dəftər, dərslik, qələm və mürəkkəblə təmin edilir, yoxsul uşaqlara təqaüd formasında yardım edilirdi. Təhsil tamamilə pulsuz idi. Məktəblərdə ana dili, rus dili, fars dili, hesab, coğrafiya, tarix, gigiyena və digər fənlər tədris olunurdu.

"Nəşri-maarif"in Bakıda və onun kəndlərində Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək 20 məktəbi fəaliyyət göstərdi. Həmin təhsil ocaqlarından ikisi qız məktəbi idi.

1907-ci ildə cəmiyyətin Bakıda Darülmüəllimin - "İslam" müsəlman müəllimlər seminariyası fəaliyyətə başladı. Seminariya 3 il fəaliyyət göstərdi. Təəssüf ki, sonradan maliyyə problemləri səbəbindən bağlandı.

Cəmiyyətin açdığı məktəblərdə zəngin kitabxana yaradılırdı. Bakıda isə 1914-cü ildə böyük kitab anbarı açıldı. Ümumiyyətlə, "Nəşri-maarif" kitabxana və qiraətxanaların təşkilinə də səy göstərirdi. 1911-ci ildə "Nəşri-maarif"in ilk böyük kitabxanası, "Nur" kitabxanası Balaxanıda açıldı.

Fəaliyyətində teatr tamaşaları, xüsusilə "Müsəlman axşamları" mühüm yer tutan bu məktəblər Azərbaycan Xalq Cümhuriyyəti illərində də əhalinin maariflənməsi, milli mədəniyyətin inkişafı naminə çalışırdı. Həmin dövrdə "Nəşri-maarif"öz məktəblərini Maarif Nazirliyinin sərəncamına verdi.

"Nəşri-maarif" Cəmiyyəti bütün fəaliyyəti müddətində Azərbaycanda maarifçilik ideyalarının yayılmasına, müsəlman əhali arasında təhsilə marağın artırılmasına, yeni məktəblərin açılmasına, pedaqoji kadrların hazırlanmasına mühüm işlər gördü. Pulsuz təhsil imkanlarının yaradılması, yoxsul və yetim uşaqlara yardım göstərilməsi, qızların təhsilə cəlb olunması, müəllim hazırlığı və məktəblərin dərs vəsaitləri ilə təmin edilməsi cəmiyyətin fəaliyyətinin əsas istiqamətləri idi. Maddi və təşkilati çətinliklərə baxmayaraq, "Nəşri-maarif" Cəmiyyətinin Azərbaycanın maarifçilik tarixində şərəfli yeri var.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

## Qədim "Şah Abbas" məscidi yeni görkəmdə

**Qədim Bakının memarlıq tikililəri, məhəllə və meydanları sırasında məscid və inanc yerlərinin mühüm yeri var. Belə tarixləşən ünvanlardan biri də paytaxtın Keşlə qəsəbəsində yerləşən, qədimdən Şah Abbas məscidi kimi tanınan tikilidir. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində məscidin tarixi və taleyi ilə tanışlıq bizi xəyalən ötən əsrin əvvəllərinə apardı.**

Məxəzlərdən məlum olur ki, Bakının qədim məscidlərindən hesab edilən bu tikili Şah Abbasın göstərişi ilə XVII əsrdə əhəng daşı ilə Abşeron məscidlərinə xas formada inşa edilmişdir. Sahəsi 139, ümumi ərazisi 1300 kvadratmetr olmaqla yerli əhəmiyyətli memarlıq abidəsidir və dövlət tərəfindən qorunur.

Sovet hakimiyyəti illərində məsciddən istifadə edilməmişdir. Dövlət müstəqilliyimizi qazandıqdan sonra Keşlə qəsəbə sakinlərinin məscidinin uzun müddət təmirsiz qalması və minarənin olmaması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə etdikləri müraciət öz həllini tapmışdır.

Dövlət başçısının tapşırığına əsasən, məscidin əsaslı təmiri və bərpası, yeni minarənin tikintisi ilə bağlı layihə hazırlanaraq bərpa və yenidənqurma işlərinə başlanılmışdır. Məsciddə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən araşdırmalar aparılmış, mühəndis-müayinəsi və texniki vəziyyəti haqqında rəy verilmiş, rəyə Konstruksiya layihəsi hazırlanmışdır. Bünövrədə möhkəmləndirmə, binada isə mövcud mikroçatların aradan qaldırılması üçün yüksəkkeyfiyyətli ineksiya işləri görülmüşdür.

Möhkəmləndirmə işləri aparılarkən binanın ilkin tarixi görünüşünün qorunub saxlanılmasına xüsusi diqqət yetirilmiş, əlavə olaraq atmosfer təsirlərinə məruz qalmış fasad üzlük daşları ilə bərpa olunmuş və yenilənmişdir. Daxildə sonradan görülmüş suvaq işləri sökülmüş, məscidin tikintisi zamanı istifadə olunmuş daxili üzlük daşları bərpa olunaraq tarixi görünüşünə qaytarılmışdır. Məscidin günbəz örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuş, binanın memarlıq üslubuna uyğun olaraq hündürlüyü 20 metr olan yeni minarə inşa edilmişdir. Bundan əlavə, həyətdə yerləşən istifadəyə yararsız köməkçi tikili sökülərək yenidən inşa edilmişdir. Burada imam üçün otaq, 80 yerlik ehsan zalı, 70 yerlik əlavə ibadət zalı, kişi və qadınların dəstəmaz alması üçün otaqlar, mətbəx, anbar, qazanxana və təsərrüfat otaqları ibadətçilərin xidmətindədir.



Məscidin həyətinə daxil olmaq üçün 2 giriş qapısı və ümumi memarlıq üslubunu tamamlayan 52 metr uzunluğunda dekorativ hasar inşa edilmişdir. Əlavə olaraq məscidin ətraf ərazilərində abadlıq-quruculuq və təmir işləri aparılmış, küçələr boyunca səkilər, hasarlar, iaşə və xidmət obyektlərinin və yaşayış evlərinin fasadları, bəzi evlərin yararsız dam örtükləri yenilənmiş, yaxın məhəllələrə asfalt örtüyü vurulmuş, kommunikasiya xətləri təmir edilmiş, küçə işıqları sistemi yenidən qurulmuş, yaşıllıqlar salınmış, çoxlu sayda yeni ağaclar, bəzək kolu və güllər əkilmişdir.

Nizami Rayon İcra Hakimiyyəti tərəfindən həyata keçirilmiş bərpa və restavrasiya işlərindən sonra yeni görkəm alan Şərq memarlıq ənənələrini özündə ehtiva edən məscid müasirliyi və qədimliyi ilə Bakıya gələn turistlərdə, habelə gənc nəsildə böyük maraq doğurur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Cəfər Cabbarlı irsi yeni təqdimatda

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İctimai Birliyinin "Cəfər Cabbarlı müasirimizdir" adlı layihəsinin fəaliyyət planına uyğun olaraq, dünən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycan ədəbiyyatının klassiki, dahi dramaturq Cəfər Cabbarlının bədii irsinin təbliği məqsədilə iki yeni kitabın təqdimatı baş tutub.**

"Şekspir dramaturgiyası Cəfər Cabbarlı tərcüməsində" adlı kitabda oxucular ədibin dünyaşöhrətli dramaturq Vilyam Şekspirdən tərcümə etdiyi "Hamlet" və "Otello" faciələri ilə tanış olacaq, böyük sənətkarın tərcüməçilik fəaliyyəti haqqında, bədii tərcümə sənətinin inkişafı yolunda gördüyü əvəzsiz xidmətlər barədə maraqlı məlumatlar əldə edəcəklər.

"Cəfər Cabbarlı yaradıcılığı ədəbi cərəyanlar və mətnin çoxqatlılığı kontekstində" adlı digər irihəcmli monoqrafiya filologiya elmləri doktoru, professor Tahirə Məmmədin Cəfər Cabbarlı yaradıcılığına həsr olunmuş çoxillik elmi araşdırmalarının nəticələrindən bəhs edir. Monoqrafiyada müəllifin müxtəlif illərdə apardığı araşdırmalar sistemləşdirilmiş şəkildə bir araya gətirilərək Cəfər Cabbarlı yaradıcılığının bədii-estetik çoxqatlılığı və struktur xüsusiyyətləri təhlil olunub.

Hər iki kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Təqdimatda alimlər, mədəniyyət işçiləri, QHT nümayəndələri, təhsil və mətbuat işçiləri iştirak ediblər.

"Cəfər Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İB-nin sədri, Cəfər Cabbarlı ev-muzeyinin direktoru Qəmər Seyfəddin qızı qonaqlara layihə haqqında geniş məlumat verib və tədbiri açıq elan edib.

Təqdimat mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubova, ADPU-nun prorektoru, professor Fikrət Rzayev, AMEA Folklor İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Leyla Məmmədova, ADPU-nun dosenti, əməkdar jurnalist Qafar Əsgərzadə, BDU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru Məhbubə Qurbanova və "Milli Mədəniyyətin Təbliği" İB-nin sədri Jalə Cəfərova çıxış ediblər. Çıxışçılar yeni işıq üzü görən kitablar haqqında fikirlərini bölüşərək Cəfər Cabbarlı ədəbi irsinin müasir dövrümüzdə əhəmiyyətindən, klassik yazıçılarımızın bədii irsinin təbliğinin vacibliyindən bəhs ediblər.

Tərcüməçi-jurnalist, Cəfər Cabbarlının nəvəsi Bəhlul Abbasov çıxış edərək Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinə layihənin həyata keçirilməsində göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bakıda yayın son konserti keçirildi

**İsti yay axşamlarında paytaxt sakinlərinin asudə vaxtının daha səmərəli təşkili məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə şəhər sakinlərinin və çoxsaylı qonaqların sevimli istirahət yerlərindən olan Nərimanov rayonundakı yeni parkda, Yasamal rayonundakı "Meşə", Nizami rayonundakı Heydər Əliyev, Xətai rayonundakı "Nizami Gəncəvi" və Səbail rayonundakı Mərkəzi Nəbatat parklarında açıq hava konsertləri keçirilir. Həftə sonu artıq dördüncü dəfədir ki, paytaxtın bu beş istirahət məkanında növbəti dəfə kütləvi konsert proqramları təşkil edilib.**





Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, konsert proqramlarının keçirildiyi park və istirahət bağları paytaxt sakinlərinin ən çox üz tutduğu istirahət məkanlarındandır. Burada insanların asudə vaxtlarını rahat və mənalı keçirməsi üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqları, istirahət guşələri və uşaq əyləncə meydançaları bu məkanları ziyarətçilər üçün cəlbedici edir. Gün ərzində uşaqlar burada oynayır, ailələr piknik edir, gənclər və yaşlı nəslin nümayəndələri isə təmiz hava və sakit mühitdən zövq alaraq dincəlirlər. Hazırda bu parklar minlərlə sakinin sevimli görüş və istirahət ünvanlarıdır.

Peşəkar və gənc ifaçılar, müxtəlif musiqi qruplarının iştirak etdiyi axşam konsertlərində milli və xarici estrada, klassik musiqi nümunələri, eləcə də müxtəlif instrumental ifalar səsləndirilib, Mərkəzi Nəbatat bağında təcrübəli pedaqoqlar uşaqlara ustad dərsləri keçiblər. Rəngarəng repertuar, canlı ifalar və xoş atmosfer parklara istirahət üçün üz tutan sakinlərə unudulmaz axşam yaşadıb.

Konsertlərdə iştirak edən ifaçıların çıxışları tamaşaçılar tərəfindən maraq və alqışlarla qarşılanıb. Sakinlər, xüsusilə konsertdə iştirak edən müxtəlif yaş qruplarına aid uşaqlar, gənclər xoş musiqilərin sədaları altında rəqs ediblər.

*"Azərbaycan"*

## BEYNƏLXALQ HƏYAT

# İstanbulda Məkkə Sazişinə dair mühüm toplantı

**İstanbulda Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanı arasında imzalanan Məkkə Birgə Müdafiə Sazişi çərçivəsində yaradılan Strateji Siyasi və Müdafiə Komitəsinin ilk iclası keçirilir.**



AZƏRTAC xəbər verir ki, Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanının dövlət rəsmilərinin iştirak etdiyi görüşdə beynəlxalq təhlükəsizlik, müdafiə imkanlarının inkişaf etdirilməsi, üç ölkənin silahlı qüvvələri arasında qarşılıqlı fəaliyyət imkanlarının artırılması, müdafiə sənayesində birgə istehsal, tədqiqat və inkişaf əməkdaşlığının genişləndirilməsi, terrorla mübarizədə birgə səylərin gücləndirilməsi məsələləri müzakirə olunacaq.

İclas zamanı komitənin müəyyən edəcəyi birgə fəaliyyət istiqamətləri üzrə işləri əlaqələndirəcək katibliyin və digər mexanizmlərin çərçivəsinin müəyyənləşdirilməsi, qarşıdakı dövrdə atılacaq addımlar üzrə yol xəritəsinin hazırlanması gözlənilir.

Məkkə Birgə Müdafiə Sazişinin regionda təhlükəsizlik, sülh və sabitliyin möhkəmləndirilməsinə, məsələlərə əməkdaşlığa əsaslanan təhlükəsizlik yanaşması ilə baxılmasına və qarşıdurma əvəzinə əmin-amanlıq və rifahın prioritet seçilməsinə yönəldiyi vurğulanır.

Xatırladaq ki, ölkələr arasındakı "Birgə Müdafiə Sazişi" avqustun 7-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman və Pakistanın Baş naziri Şahbaz Şərif tərəfindən Məkkədə imzalanıb.

Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanının regionda və beynəlxalq aləmdə artan qeyri-sabitlik fonunda ortaq məsuliyyət və regional sahiblənmə anlayışı ilə imzalanan sənəd regional və qlobal miqyasda təhlükəsizlik, sülh, sabitlik və rifahın təşviq edilməsini, həmçinin birgə çəkindirmə imkanlarının artırılmasını hədəfləyir.

# Şimali Kiprdə 3 günlük milli matəm elan edilib

**Şimali Kipr Türk Respublikasında (ŞKTC) Girne şəhərinin sahillərində bərənin batması nəticəsində həlak olanlarla bağlı 3 günlük milli matəm elan edilib.**

AZƏRTAC xəbər verir ki, avqustun 30-da ŞKTR sahillərində 267 nəfəri daşıyan bərə batıb. Faciə Girne sahillərindən təxminən 4 mil aralıda baş verib. 241 nəfər xilas edilib, 8 nəfər ölüb, 18 nəfərin axtarışları qayıq və dronlardan istifadə etməklə davam edir.

Şimali Kipr Türk Respublikasının Prezidenti Tufan Ərhürman jurnalistlərə bildirib ki, batan gəmi 514 metr dərinlikdədir.

Axtarış-xilasetmə işlərinə Türkiyədən 3 təyyarə, 4 pilotsuz uçuş aparatı (PUA), 6 helikopter, 4 sahil mühafizəsi qayığı, 1 patrul qayığı, 1 freqat və 1 patrul gəmisi, eləcə də Şimali Kipr Türk Respublikasından 4 sahil mühafizəsi qayığı, 2 helikopter, 1 patrul qayığı və 1 patrul gəmisi cəlb olunub.

# İslandiya Aİ-yə üzvlük danışıqlarının bərpasını rədd edib

**İslandiyada keçirilən referendumda seçicilər Avropa İttifaqına (Aİ) üzvlük danışıqlarının yenidən başlanması təklifini rədd ediblər.**



AZƏRTAC xəbər verir ki, "Euractiv" nəşrinin məlumatına görə, ilkin nəticələrə əsasən, seçicilərin təxminən 52,5 faizi "yox", 47,5 faizi isə "bəli" deyib. Referendumun nəticəsi Brüsselin Aİ-nin genişlənməsi ilə bağlı planlarına ciddi zərbə kimi qiymətləndirilir.

Baş nazir Kristrun Frostadottir danışıqların şərtlərini öyrənmək imkanının verilməsini müdafiə etsə də, "yox" tərəfdarları milli suverenliyin, biznesin və xüsusilə balıqçılıq sektorunun qorunması arqumentlərini ön plana çəkiblər. Aİ-yə qoşulmağın tərəfdarları isə avroya keçidin yüksək inflyasiyanı azaltmağa kömək edə biləcəyini bildiriblər.

İslandiya Avropa iqtisadi məkanının və NATO-nun üzvüdür, Aİ-nin vahid bazarına çıxış imkanına malikdir. Ölkə 2009-cu ildə Aİ-yə üzvlük üçün müraciət etmiş, lakin danışıqlar 2013-cü ildə dayandırılmışdı. Brüsseldə isə İslandiyanın mümkün üzvlüyü gələcək genişlənmə prosesinə əlavə təkan kimi nəzərdən keçirilirdi. Aİ rəsmiləri nəticəni hörmətlə qarşıladıqlarını və əməkdaşlığın davam edəcəyini bildiriblər.

# Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir

**Azərbaycanda sentyabrın 1-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi ehtimal edilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 18-20, gündüz 23-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 25-29, dağlarda gecə 10-15, gündüz 18-22 dərəcə isti olacağı bildirilir.

# Kia "Qızıl Açar" stimullaşdırıcı lotereyasının nəticələrini açıqlayıb

*30 avqust tarixdə "Kia Motors Az" MMC tərəfindən keçirilən "Qızıl Açar" stimullaşdırıcı lotereyasının yekun tirajı baş tutub və qaliblər müəyyən edilib. Lotereya 6 may - 29 avqust tarixlər arası keçirilirdi. Lotereyanın şərtlərinə görə bu müddət ərzində rəsmi satış mərkəzlərindən Kia avtomobili alan fiziki səxslər stimullaşdırıcı lotereyada iştirak edirdi.*

***Tirajın nəticələri (qalib/mükafat/bilet nömrəsi)***

**Cəlalova Gülnar** - Samsung S26 smartfonu (bilet nömrəsi: **KNAPV81DBV7517197);**
**Nəsirov İslam** - iPhone 17 smartfonu (bilet nömrəsi: **KNAPV81DBT7498810);**
**Səmədov Şaiq** - Kia Soluto avtomobili (bilet nömrəsi: **LJD0AA297T0400512).**

*Lotereyanın uduş fondu müəyyən edilmiş qaydalara uyğun olaraq tiraj komissiyasının iştirakı ilə oynanılıb və nəticələr rəsmiləşdirilib. "Kia Motors Az" MMC bütün iştirakçılara təşəkkür edir və qalibləri təbrik edir.*

## İdman

# Şahmatçımız "Sofia Cup 2026" turnirini uğurla başa vurub

**Azərbaycan şahmatçısı, qrosmeyster Rauf Məmmədov 29-30 avqust 2026-cı il tarixlərində Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən "Sofia Cup 2026" turnirində uğurlu çıxış edib.**



Turnirdə blits və rapid növlərində mübarizə aparan şahmatçımız hər iki yarışda yüksək nəticə göstərərək Azərbaycanı layiqincə təmsil edib.

Şahmatçımız blits yarışında 11 oyunda 9 xal toplayıb. Bu nəticə ona turnirin bürünc medalını qazandırıb. Şahmatçımız rapid yarışında isə daha inamlı çıxış edib. O, 9 oyunda 7,5 xal toplayaraq bütün rəqiblərini geridə qoyub və qızıl medalın sahibi olub.

Beləliklə, Rauf Məmmədov "Sofia Cup 2026" turnirini bir qızıl və bir bürünc medalla başa vurub.

# Azərbaycan Kubokunda 97 boksçu mübarizə aparacaq

**Kadet boksçular (U-15) arasında Azərbaycan Kuboku keçiriləcək. Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, sentyabrın 1-də start götürəcək yarışda zona birinciliklərinin final mərhələsində fərqlənən idmançılar güclərini yoxlayacaqlar.**




U-15 Azərbaycan kubokuna 39 komandanın 97 boksçusu qatılacaq. 17 çəki dərəcəsində 4 gün davam edəcək yarışın qalibləri Avropa çempionatında ölkəmizi təmsil edəcəklər.

Qeyd edək ki, U-15 Avropa çempionatı oktyabrda Trabzonda təşkil olunacaq.

# Azərbaycan cüdoçuları Krakov turnirində komanda hesabında birinci olublar

**Polşanın Krakov şəhərində keçirilən cüdo üzrə beynəlxalq turnir başa çatıb. Cüdo Federasiyasından AZƏRTAC-a bildirilib ki, böyüklər arasında mübarizə aparan Balabəy Ağayev (66 kiloqram) bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıb.**




U-16 yaş kateqoriyasında Aqil Nağıyev (55 kiloqram), Hüseyn Şıxəliyev (66 kiloqram) və Məhəmmədəli Mehdi (81 kiloqram) də fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Daha əvvəl U-18 yaş kateqoriyasında yeniyetmə oğlanlardan ibarət yığmamız 3 qızıl, 2 gümüş və 2 bürünc olmaqla 7 medal əldə etmişdi. Əli Abdullayev (60 kiloqram), Hüseyn Şıxəliyev (66 kiloqram) və Ömər Atayev (81 kiloqram) qızıl, Dünyamalı Asdanlı (66 kiloqram) və Ruslan Kazımov (+90 kiloqram) gümüş, Rəvan Məmmədli (55 kiloqram) və Əli Cəfərov (66 kiloqram) isə bürünc medala layiq görülmüşdülər.

Beləliklə, Azərbaycan cüdoçuları beynəlxalq turniri 7 qızıl, 2 gümüş və 2 bürünc olmaqla ümumilikdə 11 medalla başa vurublar. Millimiz bu nəticə ilə yarışın ümumi komanda hesabında birinci yeri tutub.

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Hüseyn Telman oğlu Sadıqovun adına verilmiş sosial mənzilə dair order itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və əməkdaşları iş yoldaşları Sevda Xəlilovaya atası

**UĞURLU XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitə üzvləri Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva, Kamaləddin Qafarov, İlham Məmmədov, Müşfiq Məmmədli, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevə əzizi

**SAHİB MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevə əzizi

**SAHİB MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Səttar Möhbalıyev Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevə əzizi

**SAHİB MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Həbib Mikayıllıya anası

**SÜRMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3316
Sifariş 1119

Qiyməti 60 qəpik